

ÜMUMİ TARİX

DƏRSLİK

6

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

PƏRVİZ AĞALAROV
NİYAMƏDDİN QULİYEV
ELŞƏN QASIMOV
ELNUR HÜSEYNOV

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün

ÜMUMİ TARİX

fənni üzrə

DƏRSLİK

© “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

Mündəricat

1 Tarixdə il hesabı 6

2 İbtidai cəmiyyət 10

Qədim Şərq sivilizasiyaları

3 Ehramlar ölkəsi 20

4 Şumerdən başlanan tarix 30

5 İkiçayarasının digər dövlətləri 40

6 Oda sitayiş edənlər 50

7 Ərsaklar ölkəsi 58

8 Tanrının döyüşçüləri 64

9 Böyük İpək yolunun başlandığı ölkə 78

10 Şahmatın vətəni 88

Qədim Qərb sivilizasiyaları

11 Avropa mədəniyyətinin beşiyi 96

12 İlk Respublika yaradanlar 116

Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.



Əziz məktəblilər!

Bilirsiniz ki, tarix insanların qədim dövrdə necə yaşadıqlarını, onların həyatında hansı hadisələrin baş verdiyini, həyatlarının necə və nə üçün dəyişdiyini öyrənən bir elmdir. Siz 6-cı sinifdən etibarən Ümumi tarix fənnini öyrənməyə başlayırsınız. Bu dərslikdə ümumdünya tarixinin bir hissəsi öz əksini tapmışdır. Həmin hissədə insanların fəaliyyəti ən qədim zamanlardan beşinci əsrin ortalarınadək olan bir dövrü əhatə edir. Dərsliyin köməyi ilə siz qədim insanların həyat tərzləri, dövlətlərin yaranma xüsusiyyətləri, müxtəlif xalqların adət-ənənələri, Şərq və Qərb ölkələrinin mühüm mədəni nailiyyətləri barədə ilkin təsəvvürlər əldə edəcəksiniz. Afrika, Asiya və Avropanın qədim yaşayış məskənləri sizin tədqiqat obyektinizə çevriləcək.

Biz tarixi ona görə öyrənirik ki, bu günümüz üçün düzgün nəticələr çıxarıb, sabahımız üçün doğru qərarlar qəbul edə bilək.

Tarixi oxuyun və yadda saxlayın! Çünki bu fənn insanda vətənpərvərlik, insansevərlik, qorxmazlıqla yanaşı, Vətənə və onun tarixinə böyük məhəbbət hissi yaradır.

Şərti işarələr

S	T	A
Sual	**Tapşırıq**	**Araşdırma**

1 Tarixdə il hesabı

Tarixi dövrlər, mənbələr, arxeologiya, epiqrafika, xronologiya, il, milad, hicri, minillik, əsr, rüb

İnsan cəmiyyətinin tarixi, bir qayda olaraq, dörd dövrə bölünür: Qədim dünya, Orta əsrlər, Yeni və Ən Yeni (Müasir) tarix. Bu tarixi dövrlərə uyğun olaraq bəşər cəmiyyəti aşağıdakı inkişaf mərhələlərindən keçmişdir: ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm.

S **Sizcə, tarixi dövrləşmənin əhəmiyyəti nədir?**



Tarixi dövrlər



QƏDİM DÖVR		ORTA ƏSRLƏR DÖVRÜ	YENİ DÖVR	ƏN YENİ DÖVR
İbtidai icma quruluşu	Quldarlıq quruluşu	Feodalizm quruluşu	Kapitalizm quruluşu	

Qədim dünya tarixi ən uzaq keçmişdə yaşamış insanların həyatından bəhs edir. Qədim dünya tarixi ümumdünya tarixinin bir hissəsidir.

Mənbələr

Yer üzərində yaşamış insanlar öz həyat tərzləri ilə bağlı tarixdə izlər qoymuşlar. Keçmişə aid olan maddi mənbələr (əşyalar), yazılı qaynaqlar tarixi öyrənməyə imkan verir. **Maddi** mənbələr, əsasən, yaşayış yerlərindən və qəbir abidələrindən əldə edilir. Maddi mənbələr əsasında insanların həyatını öyrənən elm **arxeologiya** (yunanca "arxayos"– qədim, "loqos" – elm deməkdir) adlanır.

Daş, saxsı, metal üzərindəki qədim yazıları **epiqrafika** (yunanca "epiqraf" – yazı sözündəndir) elmi öyrənir. Tarixdə ən qədim yazılı mənbə e.ə. IV minilliyin ikinci yarısına aiddir.

Hadisələrin ardıcıl öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Tarixdə baş vermiş hadisələri ardıcıllıqla öyrənən elmə **xronologiya** (yunanca "xronos" – zaman sözündəndir) deyilir.

Yaxın keçmişə dair tarixi həm də audiovizual və rəqəmsal mənbələr əsasında da öyrənirik.

Mənbələrin tarixi öyrənmək baxımından nə kimi əhəmiyyəti vardır?

Misir sərdabəsindən tapıntı

Arxeoloqlar qazıntıda

Qədimdə vaxtın hesablanması

Qədim əkinçilər vaxtı bir məhsul yığımından o biri məhsul yığımınadək keçən müddətə görə hesablayırdılar. Beləliklə, vaxtı illərə görə hesablamaq qaydası yarandı.

Əlamətdar hadisənin baş verdiyi ili birinci il adlandırırdılar. Məs., romalılar vaxtı Roma şəhərinin salınmasından, yunanlar isə ilk olimpiya oyunlarının keçirildiyi ildən hesablayırdılar. Müxtəlif ölkələrdə ayrı-ayrı hadisələrə görə ilin hesablanması vahid təqvim sisteminin yaradılmasını zəruri etdi.

Sizcə, vaxtın hesablanması nə üçün vacib idi?

Qayaüstü yazı

Miladi və hicri təqvimləri

Bizim bu gün təqvimdə istifadə etdiyimiz tarix İsa peyğəmbərin doğum günündən başlayır. Bu hadisəyə "milad" (anadan olma) deyilir. Birinci ildən əvvəl olan hadisələrdən danışarkən "eradan əvvəl" (e.ə.), yaxud "miladdan əvvəl" ifadəsi işlədilir.

Qədim misirlilər Günəş ili hesablanmasına əsaslanan təqvim yaratmışdılar. Romada Yuli Sezarın göstərişi ilə bu təqvim daha da təkmilləşdirilmişdi. Miladi təqvimdə il 365 gün 6 saatdır. Hər dörd ildən bir il bir gün uzanır. Dünya xalqlarının əksəriyyəti bu təqvimdən istifadə edir.

Müsəlman ölkələrinin bəzilərində isə hicri tarixindən istifadə olunur. Bu təqvimin başlanğıcı Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə "hicrəti", yəni köç etməsi ilə bağlıdır. Bu hadisə miladi təqviminin 622-ci ilində baş vermişdir. Hicri təqvimi Günəş və Ay ilinə əsaslanır. Hicri Ay ili miladi təqvimindən 11 gün qısadır.

S **Miladdan əvvəlki illərlə miladdan sonrakı illərin zaman oxunda düzülüş fərqi nədədir?**

T **Miladi və hicri təqvimlərini müqayisə edin.**



Qədim Misirdə Günəş saatının təsviri

Zaman vahidləri

Tarixi hadisələri ifadə etmək üçün gün, ay, il, əsr kimi müxtəlif zaman ölçülərindən istifadə olunur. Minilliklər, yüzilliklər, rublər zamanı əks etdirir. Tarixdə 1000, 100, 50, 25 illik hesablamalardan istifadə olunur. 100 il 1 əsrə, 50 il yarım əsrə, 25 il isə 1 rübə bərabərdir. On əsr bir minillikdir.

Eradan əvvəlki tarixlər milada yaxınlaşdıqca kiçilir, miladdan sonra bu günümüzə doğru çoxalır. Miladdan əvvəlki dövrdə böyük olan bir tarix (məs., e.ə. VII əsr), sayca kiçik olan tarixdən (məs., e.ə. V əsrdən) daha qədimdir. Miladdan sonrakı dövrdə olan hər bir kiçik rəqəm özündən sonra gələn böyük rəqəmdən daha qədimdir.

T **Müxtəlif illəri bildirən rəqəmlər yazın. Bu illərin hansı minilliklərə və hansı əsrlərə aid olduğunu müəyyən edin.**



2 İBTİDAİ CƏMİYYƏT

Paleolit, Homo Sapiens, qəbilə, mezolit, ox və kaman, neolit, toxa, tuncun ixtirası, tayfalar

Yer planeti, təxminən, 5 milyard il əvvəl meydana gəlmişdir. Yerdə həyatın – canlı aləmin yaranması və formalaşması yüz milyon illərlə davam etmişdir. Bu zaman ərzində iqlim, canlı aləm dəfələrlə dəyişmiş, bir sıra bitki və heyvan növləri yox olmuş, yeniləri yaranmışdır. Yer üzündə mövcud olan canlı aləmin ən alisi insan sayılır. Maraqlı cəhət odur ki, insan Yerdə mövcud olan canlıların ən "cavan"ıdır. Yəni insanların yaranmasına qədər Yer üzərində su, torpaq, bitki və heyvanat aləmi mövcud idi.

S Sizcə, qədim insanlar dinozavrlarla niyə rastlaşmamışdılar?

Alt Paleolit. Yerdə həyatın meydana gəlməsi

İlk insan tipləri, təxminən, 3 milyon il bundan əvvəl meydana gəlmişdir. Ən qədim insan tiplərinin qalıqlarına Afrika materikində rast gəlinir. Ona görə də Afrikanı "insaniyyətin beşiyi" adlandırırlar.

İlk insanlar müasir insanlardan çox fərqlənirdilər. Onlar iki ayaq üstə gəzə bilsələr də, müasir insanlar kimi sərbəst hərəkət edə bilmirdilər. Onlar əlləri ilə sadə işlər görür, alətlər hazırlaya bilirdilər.

Əsas əmək alətləri daşdan və daşın köməyi ilə hazırlandığından tarixçi alimlər insan cəmiyyətinin bu dövrünü Daş dövrü adlandırırlar. Daş dövrünün ilk mərhələsi **Qədim Daş** (Paleolit) dövrü adlanır.

Bacarıqlı İnsan (Homo Habilis)

S Alimlər qədim insanların xarici görünüşünün necə olduğunu nədən bilirlər?

Bacarıqlı insan
(Homo Habilis)

Bu insanlar yeriyən zaman qabağa əyilirdilər. Uzun qolları dizlərindən aşağı düşürdü. Alınları dar, beyni müasir insanın beynindən iki dəfə kiçik idi. Onlar danışa bilmir, qırıq səslər vasitəsilə ancaq hisslərini (qorxu, sevinc və s.) bildirirdilər.

Əmək alətləri düzəldən "bacarıqlı insan"

Şəkillər əsasında qədim insanların həyat tərzini təsvir edin.

Ən qədim insanların ilk əmək alətləri: torpağı qazmaq üçün **itiuclu ağac**, bir tərəfi sındırılmış **sivri daş** və zərbə vurmaq üçün **dəyənək** idi. İnsanların özlərinə əmək alətləri hazırlamaq bacarığı onları heyvanlar aləmindən ayırdı. Məhz buna görə alimlər bu insanlara "bacarıqlı insan" adı verdilər.

İnsanları heyvanlar aləmindən tamamilə ayıran ikinci böyük fərq onların oddan istifadə etmək bacarığı oldu. Qədim Daş dövrünün ilk mərhələsindən başlayaraq insanlar oddan istifadə etməyi öyrəndilər. İlk vaxtlar onlar ildırımın çaxaraq ağacları yandırması, vulkan püskürməsi nəticəsində meydana gələn oddan istifadə edirdilər.

İnsanların oddan istifadə edə bilməsinin əhəmiyyətini dəyərləndirin.



Digər canlılar kimi, insanlar da yaşamaq üçün qidalanmalı idilər. Qidalanmaq üçün onlar torpağı ağacla, daşla qazıb yeməli bitki kökləri tapır, ağaclardan meyvə dərir, quş yumurtalarını toplayırdılar. Belə məşğuliyyət yığıcılıq adlanır. İnsanlar dəyənək, əl çapacaqları ilə müxtəlif heyvanları da ovlayırdılar.

Yığıcılıq və ovçuluq insanların ilk məşğuliyyəti idi.

Odu qoruyub saxlamaq, yırtıcı heyvanlardan qorunmaq və qida əldə etmək üçün insanlar kiçik dəstələr, qruplar halında cəmləşirdilər. Beləliklə, tarixdə **ilk insan cəmiyyəti olan ulu icma** yarandı. Zaman keçdikcə insan dəstələri (icmaları) qida əldə etmək, yaşayış və daha əlverişli yerlər tapmaq üçün digər ərazilərə yayılmağa başladı. Qədim Daş dövrünün ilk mərhələsindən başlayaraq insan dəstələri dünyanın digər materiklərinə köç etdi.

Paleolit dövrü üç hissəyə ayrılır:

- ÜST PALEOLİT
  35 min il bundan əvvəldən – e.ə. 12-ci minilliyə qədər
- ORTA PALEOLİT
  100 min il bundan əvvəldən – 35 min il bundan əvvələ qədər
- ALT PALEOLİT
  bacarıqlı insanın yaranmasından başlayaraq 100 min il bundan əvvələ qədər

İbtidai cəmiyyət dövründə insan köçlərinin istiqamətləri

Erkən köçlər

Sonrakı köçlər

Azərbaycana ilk insan dəstələri nə zaman və hansı dövrdə gəlmişdi?

İbtidai insan köçlərinin gedişatı

Qədim Daş dövrünün orta mərhələsi (Orta Paleolit)

Təxminən, 100 min il əvvəl Yerdə iqlim növbəti dəfə dəyişdi, kəskin soyuqlar başladı. Qış fəslində şiddətli soyuqlar olur, çoxlu qar yağırdı. Yay fəsli qısa və sərin keçdiyindən qar tam ərimir, buza çevrilirdi. Ardınca gələn payız fəsli də soyuq olur, yağışlar qarla əvəz olunurdu. "Sonuncu böyük buzlaşma dövrü" adlanan bu müddətdə Yer kürəsinin şimal əraziləri, Avropanın çox hissəsi qalın buz qatı ilə örtüldü.

Sonuncu buzlaşma dövrünün xəritəsi

Neandertal insan

İqlimin kəskin dəyişməsi bütün canlı aləmə, o cümlədən insanlara da güclü təsir göstərdi. Ancaq belə şəraitdə iqlimə öyrəşməyi bacaran, yaşamaq və qida əldə etmək üçün birbirinə kömək edib daha ağıllı fəaliyyət göstərən icmalar sağ qala bildi. Bu dövrdə neandertal adlandırılan yeni insan tipi mövcud olmuşdur.

Neandertal Almaniyada yer adıdır. İlk dəfə belə insan tipinin skeleti burada tapıldığından həmin yerin adı ilə **neandertal insan** adlandırılmışdır. Bu insan tipinin özünəməxsus bədən quruluşu olmuşdur. Sinələri xeyli qabağa çıxmış, başları arxaya doğru uzanmış, çiyinlərinin hərəkəti məhdud olmuşdur. Onlar boyca müasir insandan

Neandertal icması

kiçik olsalar da, enlikürək və güclü olmuşlar.

Buzlaşma insanları süni yolla od əldə etməyi öyrənməyə məcbur etdi. Bu dövrdə onlar çaxmaqdaşını bir-birinə vurmaqla, quru ağac budaqlarını sürtməklə od əldə etməyi öyrəndilər.

Kəskin iqlim dəyişikliyi, qida əldə etməyin çətinləşməsi insanı daim düşünməyə, yeni üsullar axtarmağa məcbur edirdi. Bu, insanların beyninin inkişaf etməsinə təkan verdi.

Beləliklə, Üst Paleolit dövründə yeni – müasir insan tipi sayılan "ağıllı insan"ın (Homo Sapiens) formalaşması başa çatdı. Ağıllı insanların digərlərindən əsas üstünlüyü onların düşünülmüş, əvvəlcədən planlaşdırılmış şəkildə fəaliyyət göstərməsi idi. Onlar ovçuluqda yeni üsullardan – pusqu ovçuluğu və xəndəkdən istifadə etməyə başladılar.

İnsan beyninin inkişafı nəyin başlanğıcı oldu?

Süni odun əldə edilməsi

Üst Paleolit dövrü

Ağıllı insan

(Homo Sapiens)

Bu insanın beyni "bacarıqlı insan"ın beynindən iki dəfə böyük idi. O, düz qamətli olub, danışıq qabiliyyətinə malik idi.

Qədim insanlar ovda

Bu insanlar təbiəti diqqətlə izləyir, ovladıqları heyvanların təsvirini yaşadıqları mağaralara, qayalar üzərinə həkk edirdilər. Beləliklə, insanların mənəvi həyatının bir hissəsi olan incəsənət yaranmağa başlayırdı.

Qədim rəssam rəngli boyaları necə əldə edirdi?

"Ağıllı insan"ın formalaşması cəmiyyətin həyatında da dəyişiklik yaratdı. Birgə yaşamağa məcbur olan insan birliyi (ulu icma) qan qohumluğu əsasında formalaşan **qəbilə icması** ilə əvəz olundu. Qəbilədə birləşən insanlar şüurlu şəkildə, bir-birinə qohum olduğunu anlayan və bunu dəyərləndirən insanların birliyi idi. Bu dövrdə qadınlar – analar cəmiyyətdə yüksək mövqe tuturdular. İnsanları həyata gətirən anaya ehtiram və hörmət edilirdi. Qəbilənin mühüm məsələlərində kişilərlə bərabər, ağbirçək, yaşlı qadınlar da iştirak edirdilər. Bu dövr tarixdə **anaxaqanlığı** (matriarxat) adlanır.

Qəbilə icmasının yarandığı dövrdə qadınların yüksək mövqe tutmasının səbəbləri nə idi? Fikirlərinizi əsaslandırın.

Orta Daş dövrü (Mezolit)

Qədim Daş dövrünü Orta Daş (Mezolit) dövrü əvəz etdi. Qədim Daş (Paleolit) dövründən sonra da əmək alətləri və silahlar daşdan hazırlanırdı. Orta Daş dövründə iqlim mülayimləşməyə başladı.

Sonuncu buzlaşma dövründə insanların həyatında hansı dəyişikliklərin baş verdiyini yadınıza salın.

Orta Daş dövründə insanların əsas məşğuliyyəti ovçuluq idi. Buna səbəb heyvanları uzaq məsafədən ovlamağa imkan verən ox və kamanın ixtira edilməsi oldu. Bu silah insanların ətlə təmin olunmasına şərait yaratmaqla yanaşı, təhlükəsizliyini də artırdı. Qida ehtiyatının artması səbəbindən insanlar ovladıqları heyvanların balalarını öz yanlarında, xüsusi düzəldilmiş yerlərdə saxlayırdılar. Beləliklə, heyvanların əhliləşdirilməsinə başlanıldı. Ovçuluq maldarlığın yaranmasına təkan verdi.

İnsanlar dənli bitkilərin torpağa düşəndən sonra yenidən cücərib yetişdiyini müşahidə etdilər. Bu bitkilərin yeməli olduğunu bildikləri üçün qadınlar topladıqları dəni torpağa basdırıb, üstünə su tökdülər. Müasir dövrdə də insan həyatının mühüm hissəsi olan əkinçiliyin ibtidai forması Orta Daş dövründə meydana gəldi.

Yeni Daş dövrü (Neolit)

Əkinçilik və maldarlığın insanların əsas məşğuliyyətinə çevrilməsi isə Yeni Daş (Neolit) dövründə baş verdi. İnsanların özünə ərzaq – qida yarada bilməsi ibtidai cəmiyyətin həyatında böyük dəyişiklik yaratdı. Əkinçilikdə toxadan istifadə olunmağa başlandı.

Yetişmiş məhsulu yığmaq üçün oraq adlanan alət düzəldildi.

Neolit dövrünə aid oraq

İspaniyada Altamira mağarasında öküz təsviri

S **Əkinçiliyin və maldarlığın yaranmasının insanlar üçün əhəmiyyəti nə idi?**

Əkinçilik, əsasən, suya yaxın yerlərdə, çayların ətrafında aparılırdı. Toplanan məhsulu saxlamaq üçün gildən qablar hazırlanırdı. Beləliklə, ilk sənət sahələrindən biri olan dulusçuluq meydana gəldi. Toxuculuq, gön-dəri işləmə sahələri də Yeni Daş (Neolit) dövründə ibtidai cəmiyyət həyatının mühüm yenilikləri idi.

T **Maldarlıqdan əldə olunan qida məhsullarını sadalayın.**

Qəbilə icması

Tunc və Dəmir dövrü. İbtidai cəmiyyətin dağılması

İnsanların istifadə etdikləri ilk metal mis olmuşdur. Lakin mis yumşaq metal olduğundan ondan düzəldilən alət və silahlar tez xarab olurdu. Buna görə alət düzəldən zaman misi əridib ona digər metallar əlavə etməyə başladılar. Beləliklə, yeni, daha möhkəm metal olan tunc əldə edildi. Tuncdan silah, müxtəlif əmək alətləri və bəzək əşyaları düzəldirdilər.

Tunc insan cəmiyyətinin həyatında, təxminən, 3 min il istifadə edilən əsas metal oldu. Məhz buna görə bu dövr tarixdə Tunc dövrü adlanır.

Tunc dövründə əkinçilik və maldarlıqda bir sıra yeniliklər baş verdi.

Əkinçilikdə əsas yenilik toxa əkinçiliyinin **xış əkinçiliyi** ilə əvəz edilməsi oldu. Ağacdan hazırlanan xış torpağı daha dərindən şumlamağa, əkilən bitkilərin yaxşı yetişməsinə şərait yaratdı. Xışın tətbiqi məhsuldarlığı artırdı. Xış əkinçiliyi güc, dözüm tələb etdiyindən bu işlə, əsasən, kişilər məşğul olurdu.

Bu dövrdə maldarlıq da inkişaf etdi. Maldarlıq və metal emalında kişilərin çalışması onların cəmiyyət daxilində nüfuzunun artmasına səbəb oldu. Nəticədə anaxaqanlığı **ataxaqanlığı ilə (patriarxat)** əvəz olundu. Əmək alətlərinin təkmilləşdirilməsi nəticəsində məhsuldarlıq da, əhalinin sayı da artdı. Bu dövrdə bir neçə qəbilədən ibarət tayfalar* yarandı.

Tunc dövründə əkinçilik və maldarlıq ayrı-ayrı əmək sahələrinə bölündü. Bu, cəmiyyət daxilində **əməyin birinci böyük bölgüsü** adlanır. Tayfaların bir qismi maldarlıqla, digərləri isə əkinçiliklə məşğul olmağa başladı. Məhsuldarlığın artması əkinçilik və maldarlıqla məşğul olmayan, öz sənəti ilə (dulusçu, toxucu, misgər və s.) seçilən insanların peşəkar sənətkar-usta kimi yetişməsinə imkan verdi. Cəmiyyət daxilində sənətkarlar təbəqəsi meydana gəldi. Sənətkarlığın müstəqil sahəyə çevrilməsi ilə cəmiyyətdə əməyin **ikinci böyük bölgüsü baş verdi**.

Əmək bölgüsündən sonra tayfalar arasında mal mübadiləsi (dəyişdirmə) aparılırdı.

*** Tayfa**

eyni dildə danışan, ümumi adət-ənənəyə malik olan bir neçə qəbilənin birləşməsidir.

Zaman keçdikcə mübadilə ticarətə, bu işlə məşğul olanlar isə daha bir təbəqəyə – tacirlərə çevrildilər.

Məhsuldarlığın artması hər bir ailənin ayrı yaşamasına imkan verirdi. Daha işlək, əməksevər ailələr ayrıca təsərrüfat qurmaq istəyirdilər. Belə olduqda tayfa və qəbilə ağsaqqalları icmanın (qəbilə) ümumi əkin sahəsini, heyvanlarını ailələr arasında bölürdülər. İndi hər ailənin öz torpağı, iş heyvanı və əmək alətləri var idi. Bu torpaqdan əldə edilən məhsul ailənin özünə çatırdı. Beləliklə, **qonşuluq icması** yarandı. Qonşuluq icmasına keçid insanlar arasında bərabərsizlik yaratdı. Ailələrin bir qismi varlanır, digərləri yoxsullaşırdı.

S **Qonşuluq icmasına keçid nəyə görə bərabərsizliyi artırdı? İnsanların bir hissəsinin varlı, digərinin kasıb olmasının səbəbləri nə idi?**



Qəbilə icması



Qonşuluq icması

Düşmənin hücumlarından qorunmaq üçün iri yaşayış məskənləri tədricən qala divarları ilə əhatə olunur, şəhərlərə çevrilirdi.

Bu dövrdə əkin sahələri, maldar tayfalar arasında otlaq yerləri üstündə toqquşmalar başladı. Tayfalar arasında ittifaqlar bağlandı. İri tayfa birlikləri meydana gəldi. Hərb sənəti yarandı, bu işi bacaranlar tayfanın hərbi başçısı oldular. Qalib gələn məğlub olanın ərazisini və əmlakını ələ keçirir, əsirləri qula çevirirdilər. Ələ keçirilən əmlakın çox hissəsi hərbi başçıya, ağsaqqallara və döyüşdə fərqlənənlərə çatırdı.

Onlara məxsus təsərrüfatda qullar və yoxsul insanlar işləyirdi. Bu isə cəmiyyət daxilində bərabərsizliyi və təbəqələşməni artırdı.

Dövlətin yaranması

Hərbi başçılar və ağsaqqallar qanun və qaydaları müəyyən edirdilər. Onlar evləri və geyimləri ilə başqalarından fərqlənirdilər. Tədricən hərbi başçılar hakimiyyəti tamamilə ələ keçirib hökmdara, ağsaqqallar isə əyanlara çevrildilər.

İlkin şəhər məskəni

İbtidai cəmiyyətin dağıldığı ərazilərdə dövlət yaranırdı. Dövləti **hökmdar** idarə edirdi.

Ona tabe olan ərazilər dövlətin ərazisi sayılırdı. Adətən, mühüm yerdə salınmış, möhkəm qala divarları ilə əhatə olunan şəhər-dövlətin mərkəzi – **paytaxtı** olurdu. Dövlətin ərazisini və paytaxtı qoruyan **ordu idi**. Ordu, əsasən, peşəkar hərbçilərdən ibarət olurdu. Müharibə dövründə azad əhali də orduya cəlb olunurdu. Dövlətin əsas sərvəti paytaxtda yerləşən **xəzinədə** saxlanırdı.

Xəzinə əhalidən yığılan **vergilərdən** və müharibələr zamanı ələ keçirilən **qənimətlərdən** formalaşırdı.

Adətən, paytaxt-şəhərin düşmən tərəfindən tutulması dövlətin süqutu ilə nəticələnirdi.

Beləliklə, Tunc dövrünün sonu – Erkən Dəmir dövründə ibtidai icma quruluşu dağıldı.

Dövlətin sxemi



E.ə. IV minillik
Misirdə dövlətin yaranması

E.ə. IV–III minil-
liyin əvvəllərin-
də Şumer
şəhər-dövlətlə-
rinin yaranması

E.ə. 550-ci il
Midiyanın süqutu,
Əhəməni imperiyasının
yaranması

E.ə. I minillik
Hindistanda və Çində vahid
dövlətlərin yaranması

QƏDİM ŞƏRQ SİVİLİZASİYALARI

E.ə. II minillik
Babil və Aşşur dövlətlərinin
yaranması

E.ə. III əsr
Hun dövlətinin
yaranması

3 EHRAMLAR ÖLKƏSİ

Nilin töhfəsi, firon, çati, ehram, mumiya, papirus, sfinks, heroqlif, Amon

Misir dünyanın ən uzun çayı olan Nil çayının ətrafında yerləşib. Belə ki Yer üzərində sonuncu böyük buzlaşma dövrü bitdikdən sonra (təxminən, e.ə. XIII minillikdə) kəskin iqlim dəyişikliyi baş verdi. Afrikanın şimal hissəsinə yağan yağışlar kəsildi, istilik artdı və yüzilliklərlə davam edən quraqlıq başladı. Nəticədə Afrikanın şimalında yerləşən su mənbələrinin – çay və göllərin çoxu qurudu. Meşələr, çəmənliklər yox oldu və Afrikanın şimalında dünyanın ən böyük səhrası olan Saxara yarandı. Həmin ərazilərdə yaşayan insanlar və heyvanat aləminin çoxu qitənin cənubuna çəkildi. İnsanların bir qismi isə Nil çayının ətrafında məskunlaşdı. Əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olan insanlar üçün həmin dövrdə Nil, demək olar ki, həyat mənbəyi idi.

Papirus

Nilin sahillərində papirus adlanan qamış bitirdi.

Papirus qalın gövdəli, hündür olur. Misirlilər ondan sal və qayıqlar hazırlayır, evlərinin damını örtürdülər.

Nil daşqınları

Nil çayı cənubda dağlıq ərazidə yerləşən göllərdən başlayır, düzən ərazidən keçərək Aralıq dənizinə tökülür. Yaz fəslində dağlarda qarlar əriyir və yağışlar artırdı. Bu zaman Nilin suyu çox olduğundan çay öz məcrasından çıxır – daşqınlar başlayırdı. Daşqın bir neçə ay davam edirdi. Daşqın bitdikdən sonra çayın ətrafında müxtəlif bitki və minerallarla zəngin olan lil – qara torpaq qatı qalırdı. Çox münbit və yumşaq olduğundan bu torpaq əkinçilik üçün əlverişli idi. Belə torpağı toxa və ağacdan düzəldilmiş yüngül xışla da şumlamaq olurdu. Minerallarla zəngin münbit torpaq, günəşin istiliyi və su bolluğu məhsuldarlığı artırdı. Torpağa əkilmiş bir buğda dənəsi 40–50 dəfə artıq məhsul verirdi.

Misirlilər qamış qarışdırılmış gildən bəndlər çəkir, çayın ətrafındakı torpağı ayrı-ayrı sahələrə bölüb əkin yerlərini artırırdılar. Nil çayından aralı olan torpaqları suvarmaq üçün arxlar qazır, kanallar çəkirdilər. Suyun çatmadığı hündür yerləri **şaduf** adlanan qurğunun köməyi ilə suvarırdılar.

Misir Afrika materikinin şimal-şərqində yerləşir. Nil çayı bu ölkədən keçərək Aralıq dənizinə tökülür.

Əkinçiliklə yanaşı, bostanlarda tərəvəz, bağlarda müxtəlif meyvələr yetişdirir, heyvandarlıqla məşğul olurdular. Təsərrüfatın yüksəlişi müxtəlif sənət sahələrinin də (toxuculuq, dulusçuluq, ağacişləmə və s.) inkişafına təkan verdi.

Şaduf

Həyat şəraitinin yaxşılaşması nəticəsində əhalinin sayı artdı, qəbilə və tayfa icmaları yarandı. Zaman keçdikcə iri yaşayış məskənləri və mal mübadiləsi edilən ərazilər şəhərlərə çevrildi. Getdikcə əhali arasında təbəqələşmə baş verdi. Görüləcək işi təşkil edə bilən, idarəçilik qabiliyyəti olan insanlar başçı oldu. İcma daxilində və şəhərlərdə qayda-qanunları müəyyən edən ağsaqqallar və tayfa başçıları idarəçilikdə möhkəmlənərək hakimiyyəti ələ aldılar.

Beləliklə, şəhərlərin meydana gəldiyi, idarə sisteminin və hakimiyyətin formalaşdığı ərazilərdə dövlətlər yarandı.

S **Nil daşqınları təsərrüfatın yüksəlişinə necə təsir etdi?**

T **Qədim yunan tarixçisi Herodot Misiri "Nilin töhfəsi" adlandırırdı. Herodotun fikrinə münasibət bildirin. Fikirlərinizi mətnə görə əsaslandırın.**

T **Şəklə əsasən qədim misirlilərin təsərrüfat həyatını təsvir edin.**



Misir hökmdarlarının tacları

Yuxarı Misir hökmdarının tacı

Aşağı Misir hökmdarının tacı

Vahid Misir hökmdarının tacı

Misirin bir dövlət halında birləşməsi

İlk vaxtlar Nil çayının ətrafında 40-a yaxın kiçik dövlət yaranmışdı. Bu dövlətlər arasında suvarma kanalları, otlaq sahələri üstündə toqquşmalar baş verirdi. Güclü dövlətlər zəifləri öz tərkibinə birləşdirdikcə dövlətlərin sayı azalırdı. E.ə. IV minilliyin 2-ci yarısında Nil çayının ətrafında iki güclü dövlət – Yuxarı (Cənub) Misir və Aşağı (Şimal) Misir padşahlığı formalaşdı. Bu dövlətlər Misiri öz hakimiyyətləri altında vahid şəkildə birləşdirmək uğrunda uzun müddət mübarizə apardılar. E.ə. IV minilliyin sonunda Yuxarı Misir qalib gələrək ölkəni bir dövlət halında birləşdirdi. Memfis şəhəri vahid Misir dövlətinin ilk paytaxtı oldu.

Ölkə daxilində müharibələrin bitməsi, vahid dövlətin yaranması Misirin təsərrüfatına və mədəniyyətinin inkişafına təkan verdi.

Misir dövlətinin idarə olunması

Qədim Misir dövlətində hökmdar firon adlanırdı. Dövlətdə bütün hakimiyyət onun əlində cəmlənmişdi. Firon qanunlar verir, qaydalar müəyyənləşdirir, ölkəni idarə etmək üçün canişin və məmurlar təyin edirdi. **Çati** adlanan ali məmur vəzifəsini fironlar, adətən, öz oğullarından birinə tapşırırdılar.

Misir dövlətinin qüdrətli dövrü

Fironların əsas dayağı yaxşı silahlanmış və təlim görmüş ordu idi. Misirin birləşdirilməsindən sonra fironlar dövlətin ərazisini genişləndirmək üçün hərbi yürüşlər təşkil edirdilər. E.ə. II minillikdə Misir özünün ən qüdrətli dövrünə çatdı.

Firon I Tutmosun hakimiyyəti dövründən başlayaraq işğalçı yürüşlər Asiya qitəsinə yönəldi. Döyüşlərdə əldə edilən qələbələr və işğallar nəticəsində Misirə minlərlə əsir – qul gətirilmişdi. Misirdə qulları "canlı ölülər" adlandırırdılar.

I Tutmosun nəvəsi **III Tutmos** Aralıq dənizinin şərq sahillərində, Ön Asiyada* yerləşən **Suriya**, **Fələstin** və **Finikiyanı** işğal edib Misirə birləşdirdi.

*** Ön Asiya**

Avropalılar Asiya qitəsinin qərb hissəsini Ön Asiya adlandırırlar. Çünki avropalılar üçün Asiyanın önü – qabaq hissəsi buradan başlayır.

III Tutmosdan sonra Misirin Ön Asiyada mövqeyi zəifləməyə başladı. E.ə. XIII əsrdə II Ramzes hakimiyyətə gəldi. O, Misirin əvvəlki qüdrətini bərpa etmək üçün yürüşlərə başladı. Afrikada Misir hakimiyyətinə qarşı qalxan üsyan və hücumları yatırdıqdan sonra o, Ön Asiya üzərinə yeridi. Burada güclü dövlət olan Het şahlığı ilə qarşılaşdı. Hər iki dövlət müharibədə əsas zərbə qüvvəsi kimi döyüş arabalarından istifadə edirdi.

Müharibə böyük itkilərə gətirib çıxardı. Bu, sonda sülh müqaviləsinin bağlanması ilə nəticələndi. Müqaviləyə əsasən, Fələstin və Finikiya Misirin hakimiyyəti altında qaldı, Suriya isə iki dövlət arasında bölündü.

Müqavilənin indiki dövrə gəlib çıxmış (daş üzərində) hissələri

Müharibədən sonra II Ramzes ölkə daxilində böyük quruculuq işlərinə başladı. Onun göstərişləri əsasında suvarma sistemləri yenidən quruldu. Yeni paytaxt olan Fiv şəhərində, ölkənin müxtəlif yerlərində saraylar, sərdabə və məbədlər tikildi. II Ramzes Misirin sonuncu qüdrətli hökmdarı oldu.



II Ramzes döyüşdə

Misir dövlətinin tənəzzülü

E.ə. I minillikdə Misir dövləti getdikcə zəifləyirdi. Hakimiyyət uğrunda mübarizə gedir, hakim sülalələr* tez-tez dəyişirdi.

*** Sülalə**

qohumluq və varislik hüququna əsasən taxtda ardıcıl bir-birini əvəz edən, eyni soydan olan hökmdarlar sırası

Bunun nəticəsində ölkənin idarə olunması pisləşir, məmurların özbaşınalığı artırdı. Bu isə xalq arasında fironların nüfuzunun aşağı düşməsinə səbəb olurdu.

Belə bir vaxtda Əhəməni dövləti Misiri işğal etdi. Bu müharibənin həlledici döyüşü e.ə. 525-ci ildə Pelusiyada baş verdi.

Pelusiya qədim dövrlərdən Misiri qoruyan qala hesab edilir, "Misirin möhürü" adlanırdı.



Misir ordusu döyüş zamanı

Pelusiya döyüşündə qalib gələn əhəmənilər Misiri işğal edib öz əyalətlərinə çevirdilər. Beləliklə, Misir dövlətinin müstəqil dövlətçiliyinə son qoyuldu.

E.ə. VI əsrə aid Əhəməni möhürü. Əhəməni hökmdarı II Kambiz Misir fironunu cəzalandırır.

MİSİR MƏDƏNİYYƏTİ

Yazı

Ölkə tarixinin mədəni nailiyyətləri arasında yazı mədəniyyəti mühüm yer tutur. Qədim Misir yazının yarandığı ilk ölkələrdən biri hesab olunur. Misir yazısı e.ə. IV minilliyin sonlarında meydana gəldi. Bu zaman üçün əldə edilən məlumatlar, elmi və tarixi biliklər çox idi. Onları yadda saxlayıb şifahi ötürmək çətinlik yaradırdı.

Yazının yaranmasının digər səbəbi Misirin vahid dövlət halında birləşdirilməsindən sonra fironların əmr və göstərişlərinin, qanunların insanlara dəqiq ötürülməsi zərurəti idi.

İlk vaxtlarda yazı şəkil formasında yaranmışdı. Zaman keçdikcə şəkilli yazılar işarələrlə əvəz edildi. Misirlilər yazıya önəm verir, onu **heroqlif** (müqəddəs işarələr) adlandırırdılar.

Yazılar daş, ağac, dəri və papirus üzərində yazılırdı.

Təhsil və elm

Misirdə ən savadlı insanlar kahinlər, məmurlar və dəftərxana işçiləri (mirzələr) idi. Vergilərin miqdarını, dövlətin gəlir və xərclərini hesablamaqdan ötrü bilik tələb olunurdu. Təhsil almadan bunları bilmək mümkün deyildi. Ölkədə təhsil məbədlərin tərkibindəki xüsusi məktəblərdə aparılır, təcrübəli kahinlər və dəftərxana işçiləri müəllimlik edirdilər. Belə məbəd-məktəblərdə, əsasən, adlı-sanlı və imkanlı insanların övladları oxuyurdu. Onlara, ilk növbədə, heroqlif yazı öyrədilir, hesab və həndəsə elmi tədris edilirdi. Qızlar isə yüngül proqramla hazırlaşır, musiqi, rəqs və evdarlıq öyrənirdilər.

Papirusdan hazırlanan vərəqlər baha olduğundan uşaqlar üzərinə mum çəkilmiş lövhələrin, yaxud hamar daş və qab qırıqlarının üzərində yazırdılar. Yazmaq üçün qamış qələmlərdən və xüsusi mürəkkəbdən istifadə olunurdu. Pis oxuyan, nadinclik edən uşaqlar cəzalandırılırdı.

S **Qədim Misirdə məktəblərin yaranmasını zəruri edən səbəblər hansılar idi?**

T **Müasir məktəblərlə Misir məktəblərinin fərqləri və oxşar cəhətləri ilə bağlı müzakirə aparın.**

Həndəsəni bilmədən piramida və məbədlər tikmək, həcm və sahəni hesablamaq mümkün deyildi. Ona görə də məbəd-məktəblərdə həndəsə əsas fənn hesab edilirdi. Hələ o vaxt misirlilər həndəsi fiqurların – üçbucaq, dairə və trapesiyanın sahələrini hesablaya bilirdilər.

Onlar bizim bu gün istifadə etdiyimiz rəqəmləri bilməsələr də, onluq hesablama sistemindən istifadə etməyi bacarırdılar. Qədim Misirdə hər bir rəqəm üçün ayrıca işarə mövcud idi.

S **Müasir dövrdə informasiyanın ötürülməsi üçün daha hansı vasitələri tanıyırsınız?**

Böyük rəqəmlərlə hesablamağı bacaran misirlilər milyon rəqəmini belə göstərirdilər.

Heroqliflərlə yazmaq üçün skan edin.

Astronomiya

Qədim Misiri "qızıllı ölkə" adlandırsalar da, onun əsas sərvətini əkinçilikdən əldə olunan buğda və digər dənli bitkilər təşkil edirdi. Bol məhsul Nilin daşqınlarından asılı olduğundan dövlət bu işi həmişə nəzarətdə saxlayırdı. Bənd və kanallar hazırlamaq üçün daşqının vaxtını dəqiq bilmək lazım idi. Misirli alimlər bu daşqınların vaxtını ulduzları müşahidə etməklə öyrəndilər. Onlar daşqın zamanı göydə ulduzların eyni mövqedə olmasını müəyyən etdilər. Beləcə, astronomiya elminə aid ilk biliklər yarandı. Kahin-alimlər ulduzlu göyün xəritəsini tərtib etdilər.

Astronomiya ilə məşğul olan alimlər Nildə baş verən bir daşqından digərinə qədər olan zamanı hesablayaraq təqvim yaratdılar. Misir təqvimi 12 aya – 365 günə bölünürdü. Hər ay 30 gündən ibarət idi. İlin sonuna 5 gün əlavə edib, həmin günləri bayram edirdilər.

Misirli alimlər Günəş və Ay tutulmalarının vaxtını dəqiq bilirdilər. Günəş və su saatlarından istifadə edilirdi.

S **Ulduzları müşahidə etməklə səhrada və dənizdə hərəkət etmək olarmı? Fikrinizi əsaslandırın.**

Günəş tanrısı Ra

Din

Qədim misirlilər dini inanclarına və etiqadlarına görə, çoxtanrılı və bütpərəst idilər. Onlar insan və bitkilər üçün əsas işıq, istilik mənbəyi olan Günəşə, gecələr yeri işıqlandıran Aya, Nil çayına, müxtəlif heyvan və quşlara səcdə edirdi. Evlərinə isə bu tanrıların daşdan, ağacdan düzəldilən heykəllərini qoyurdular. Onlar tanrıları quş, yaxud heyvan başlı, insan bədənli təsvir edirdilər. Baş tanrı sayılan Amon fironun havadarı, tanrıların hökmdarı sayılırdı.

Təbabət

Misirlilərin bu sahədə də böyük nailiyyətləri var idi. Həkimlər xəstəliyi təyin etmək üçün nəbzi dinləyir, müalicədə müxtəlif bitkilərdən istifadə edirdilər. Onlar cərrahiyyə əməliyyatları aparır, göz, diş və digər xəstəlikləri müalicə edib sağaldırdılar. Qədim Misirdə tibb elminin inkişafına mumiyalama adəti də güclü təsir göstərmişdi.

Mumiya

Mumiyalanma

Misirlilərin inanclarına görə, insanın bədəni bütöv qaldıqca o yaşayır. Buna görə onlar vəfat etmiş adamın bədənini olduğu kimi saxlamağa çalışırdılar. Belə ki ölülərin bədəninə duzlu maddələr, məhlullar sürtür, onları qatran və duz hopdurulmuş tənziflə sarıyırdılar. Belə dəfn adəti **mumiyalanma** adlanırdı.

S Sizcə, bu şəxsin məmur olması nədən görünür?

T Şəkil əsasında kiçik mətn hazırlayın.



Qədim Misir məmurunun məqbərəsindən tapılmış, onun işini əks etdirən fiqurlar

İncəsənət

Misir incəsənətində əsas yeri heykəltəraşlıq və rəssamlıq tuturdu. Məbəd və məqbərələrə rəngli boyalarla çəkilmiş rəsmlər, ucaldılmış heykəllər Misir sənətkarlarının yüksək səviyyəsindən xəbər verir. Rəsm və heykəllərin əksəriyyəti tanrıları və fironları əks etdirirdi.

Fironların daş və qranitdən heykəllərini hazırlayan heykəltəraşlar onların əzəmətli görünməsinə çalışırdılar.

İri daş heykəllərlə yanaşı, ustalar ağacdan kiçik fiqurlar da düzəldirdilər.

Misirdə divar rəsmləri

S Divar rəsmlərinə əsasən Misirdəki məşğuliyyət və həyat tərzi barədə nə söyləmək olar?

Firon Tutanhamonun məqbərəsindən tapılmış qızılla işləmələri olan hökmdar taxtı

Qızıl və qiymətli daşlarla işləməyi bacaran Misir sənətkarları yüksək ustalıq nümayiş etdirirdilər.

Memarlıq

Misir memarlığında əsas yeri fironların dəfn edildiyi piramida formalı tikililər, məbəd və saraylar tuturdu. Misiri əbəs yerə **ehramlar ölkəsi** adlandırmırlar. Minilliklər keçməsinə baxmayaraq, Misirdə indi də yüzlərlə ehram qalmaqdadır.

İnşa edilən ilk ehramlar (piramida) pilləli idi. Əvvəllər fironları çiy kərpicdən düzəldilmiş piramidalarda dəfn edirdilər. Daşdan tikilən ilk piramida firon Coserin şərəfinə inşa edilmişdi.

Bu tikilinin hündürlüyü, təxminən, 60 m olub. Hündürlüyü 147 metr olan ən hündür piramida isə firon **Xeops (Xufu)** üçün tikilmişdi. Böyük əhəng daşlarından tikilən (hər daşın ağırlığı 2 ton), üzərinə ağ üzlük daşı çəkilən bu piramidanı misirlilər təntənə ilə "Xeopsun üfüqü" adlandırırdılar. Rəvayətə görə, piramidanın ucundakı daş əvvəllər qızıldan olub. Xeopsun ehramı 3 min ildən çox müddət ərzində dünyada ən hündür tikili hesab edilib.

İnternetdən istifadə edərək müəyyən edin: Xeops ehramından sonra hündür olan ilk tikili hansıdır və o neçənci əsrdə inşa edilmişdir?

Piramidaların qarşısında bütöv qayadan yonulmuş **Böyük Sfinks*** heykəli ucalırdı. Misirlilər Böyük Sfinksi "dəhşətlər atası" adlandırır, onun fironların ruhlarını qoruduğuna inanırdılar.

*** Sfinks**

insan başlı, aslan bədənli əfsanəvi varlıqdır.

Böyük Sfinks

Misir memarlığına xas olan əsas xüsusiyyətlərdən biri fironların şərəfinə ucaldılan **obelisk*** adlanan sütunlardır.

Misirlilərin inancına görə, fironların ruhları bu tikili vasitəsilə başqa dünyaya gedir.

*** Obelisk**

yuxarıya doğru getdikcə ucu piramida formalı olan tilli sütundur.

Obelisklər sonrakı əsrlərdə Misirdən çıxarılaraq Avropanın paytaxt şəhərlərində yerləşdirilmişdir.

Daha ətraflı məlumat üçün QR koda müraciət edə bilərsiniz.

Misir ehramlarının tikintisi

Piramidanın real görüntüsü

Şəkildə gördükləriniz əsasında "Ehramlar planlı fəaliyyətin nəticəsidir" mövzusunda mətn hazırlayın.

4 ŞUMERDƏN BAŞLANAN TARİX

İkiçayarası, Şumer, mixi yazı, şəhər-dövlətlər, luqal, Zikkurat

Şumerlər dünya xalqları arasında yazı, elm, təhsil, təsərrüfat və digər sahələrdə "İlk"lərə imza atan xalq sayılır. Tarixdə ilk dəfə dövlət quran, idarəetmə sistemi yaradanlardan biri də məhz onlardır.

Qədim dövrdə Ön Asiyada Dəclə və Fərat çaylarının arasında yerləşən ərazi İkiçayarası (yunanca Mesopotamiya) adlanırdı. İkiçayarası isti iqlimə malik ərazi olmuşdur. Yayda istilik bəzən 50 dərəcəyə qalxırdı. Bu bölgədə yağışlar az olurdu. Ərazidə insan cəmiyyətinin inkişafı üçün möhkəm ağac, daş və metal yataqları da yox idi. Əvəzində bu ərazi günəş istiliyi, su və gil ilə zəngin idi. Dəclə və Fərat çayları yaz aylarında gur daşır və ərazinin çox hissəsi su altında qalırdı. Daşqınlardan sonra məcrasına çəkilən çayların yerində qalın gil – lil qatı qalırdı. Şumerlər ölkəsi məhz belə bir ərazidə yaranmışdı. Maraqlı cəhət odur ki, şumerlər İkiçayarasının köklü sakinləri

Ön Asiyada, Dəclə və Fərat çaylarının arasında yerləşən ərazi İkiçayarası (yunanca Mesopotamiya) adlanırdı.

deyildilər. Onlar bu əraziyə Yeni Daş (Neolit) dövründə gələrək burada məskunlaşmışlar.

Yeni Daş dövrünün mühüm xüsusiyyətləri nə idi?

Şumerlərin bura Altay dağlarının ətəklərindən gəldiyi güman edilir. Son araşdırmalara görə, onların Cənubi Qafqaz – Şimali Azərbaycandan gələn türkdilli tayfalar olması fikri də irəli sürülmüşdür.

Şumer dilindəki bir sıra əsas sözlər qədim türk dilində olanlarla eynilik təşkil edir.

Söz	Şumerlərdə	Qədim türklərdə
Tanrı	Dinqir	Tenqri
ata	ada	ata
ana	ama	ana
yer	kir	yer
igid	eren	ərən

Şumerlərin İkiçayarasına gəlişindən sonra ərazinin mənzərəsi tezliklə dəyişdi. Şumer xalqının əməyi səhralıq və susuz çölləri əkin və otlaq sahələrinə çevirdi. Yaşayış üçün yararlı ərazilər meydana gəldi.

Erkən Şumer cəmiyyəti (qəbilə və tayfaları) yüksək şüur, əməksevərlik və təşkilatçılıq qabiliyyəti ilə fərqlənirdi.

Xalq toplantılarında müxtəlif işlərə rəhbərlik etmək üçün başçı seçilirdi. Başçının göstərişləri vaxtında və dəqiq yerinə yetirilirdi. Hər bir şəxs gördüyü işin icmaya xeyir verdiyini dərk edir, üzərinə düşən vəzifəni layiqincə icra edirdi.

Sizcə, nə üçün şumerlər türkdilli tayfalar hesab edilir?

Şumerlərin yaşayış üçün niyə məhz İkiçayarası ərazisini seçdiyini araşdırın.



S **Təbii-coğrafi şərait şumerlərin inkişafına necə təsir etmişdir?**

T **Verilmiş məlumatlar əsasında şumerlərin məşğuliyyəti ilə bağlı kiçik mətn hazırlayın.**



Dulus çarxı əsasında ilk təkər icad edən Şumer ustaları ilk nəqliyyat – arabanı düzəltməyi bacardılar. Araba müxtəlif heyvanlara qoşulurdu. Arabalar insanların işini yüngülləşdirdi, artıq onlar ağır yükləri uzaq məsafəyə daşıya bilirdilər.

Gilli torpaq bərk olduğundan şumerlər xış düzəltdilər. Öküzləri ona qoşaraq daha geniş sahələri şumlamağa nail oldular.

Xurma palması hündür, qalın gövdəli olmasına baxmayaraq, həm tikinti üçün, həm də oduncaq kimi yararsız idi. Onun əsas keyfiyyəti yüksək kalorili meyvəsinin – xurmanın olması idi. Bacarıqlı Şumer əhalisi bu bitkidən də səmərəli istifadə edə bilirdi. Onlar tarlada işlədikləri zaman istidən qorunmaq üçün palmanın yarpaqlarından baş örtüyü düzəldirdilər. Xurma çəyirdəkləri yağlı olduğundan yaxşı yanırdı. Uzaq məsafəyə odu aparmaq lazım gələndə çəyirdəklərdən köz kimi istifadə edirdilər.

Uruk şəhərinin görüntüsü, e.ə. 5000-ci il

İşin düzgün təşkili, birgə və şüurlu fəaliyyət, əmək alətlərinin təkmilləşdirilməsi məhsuldarlığın artmasına səbəb oldu. Məhsulun artıq qalması onu mübadilə etməyə – dəyişməyə imkan verdi. Qəbilə və tayfaların daxilində sənətkarlar, tacirlər və dini məsələlərlə məşğul olan kahinlər meydana gəldi.

Şumerlər e.ə. IV minilliyin əvvəllərində mis filizini yüksək temperaturda qızdırmaqla təmiz mis əldə edə bildilər. Onlar əridilmiş mis, qızıl və gümüşü qəliblərə tökərək müxtəlif silah və bəzək əşyaları hazırlamağı bacardılar. E.ə. IV minilliyin ortalarında Şumer sənətkarları tunc əldə etməyi öyrəndilər.

Qəlibtökmə üsulu

T **Hər sütuna uyğun olaraq şumerlərin həyat tərzi barədə müzakirə aparın.**

Şumer sənətkarlarının hazırladığı dekorativ əşya

Şumer şəhər-dövlətləri

Təsərrüfatın bütün sahələrinin, sənətkarlıq və ticarətin inkişafı əhalinin sayını sürətlə artırır, iri yaşayış məskənləri yaranırdı. Bu məskənlər qısa müddətdən sonra Eredu*, Ur, Uruk, Kiş, Laqaş, Nippur və digər şəhərlər kimi formalaşdı. Bu şəhərlər e.ə. IV minilliyin sonları – e.ə. III minilliyin əvvəllərindən başlayaraq hakimiyyət orqanı, qanunları, məhkəmə sistemi, ordusu olan şəhər-dövlətlərə çevrildi.

*** Eredu**

Şumerlər Eredunu özlərinin ilk şəhəri hesab edirdilər. Son dövrlərin tədqiqatları alimlərə Eredunu ilk əsl şəhər hesab etməyə əsas verir.

Şəhər-dövlətlər, adətən, bir tanrının şərəfinə ucaldılan **Zikkurat** adlanan məbədin ətrafında yaranırdı.

Məbədlər şəhərdə ən hündür, möhtəşəm tikili olurdu. Zikkurat uzaq məsafədən dağa bənzəyirdi. Məbədin ən yuxarı mərtəbəsində ibadət evi yerləşirdi.

Sizcə, niyə şumerlər ibadət evini ən yuxarı mərtəbədə tikirdilər?

Dövlətlərin mərkəzi qala divarı ilə əhatə olunurdu. Şəhərlərin daxilində, əsasən, sənətkarlıq və ticarət inkişaf edirdi. Qala divarlarından kənardakı ərazilərdə əkin və otlaq sahələri yerləşirdi. Şumer şəhərlərində əla təşkil edilmiş suvarma sistemi mövcud idi.

İlk vaxtlar Şumerdə dövlətin mühüm məsələləri azad əhalinin iştirak etdiyi xalq toplantılarında həll olunurdu. Şəhəri və dövləti idarə edən ağsaqqalları və başçı sayılan – **en** adlanan kahini xalq təyin edirdi. Sonralar şəhərin təsərrüfat həyatına (suvarma, məbəd tikilməsi işləri və s.) rəhbərlik etmək üçün **ensi** adlanan vəzifə yarandı.



Şumerlərin şəhər həyatı (üst görünüş)

Müharibə təhlükəsi yarandıqda əhali hökmdar və hərbi başçı – **luqal** seçirdi.

Əvvəllər suvarma kanalları, çay vadiləri üstündə başlayan toqquşmalar sonradan müharibələrə çevrildi. Müharibələr İkiçayarasında hakimiyyətə sahib olmaq uğrunda aparılırdı. Müharibələr artdıqca luqalların hakimiyyəti möhkəmlənməyə başladı. Onlar en və ensi vəzifələrini öz əllərinə alır, hakimiyyətlərini öz övladlarına ötürürdülər. Xalq idarəçiliyi bir şəxsin hakimiyyəti ilə əvəz olunurdu. Hakimiyyət bir nəslin əlində cəmləşirdi.

Sizcə, hakimiyyətin hansı forması daha yaxşıdır: xalqın birgə idarəçiliyi, yoxsa bir şəxsin hakimiyyəti?

Yüzilliklər boyu davam edən müharibələrdə üstünlük bir şəhər-dövlətdən digərinə keçirdi. Lakin heç bir şəhər-dövlət İkiçayarasını bütünlüklə özünə tabe edə bilmədi.

Müharibələr şəhərlərin, təsərrüfatın dağılmasına, şumerlərin bir xalq kimi azalmasına səbəb oldu. Nəticədə Ərəbistan yarımadasından gələn tayfalar Şumer dövlətlərinin ərazilərini ələ keçirdi. E.ə. III minilliyin sonlarında Şumer şəhər-dövlətləri öz müstəqilliyini itirdi.

Şumer döyüşçüləri

ŞUMER MƏDƏNİYYƏTİ

Şəhərlərin yaranması mədəniyyətin sürətli inkişafına təkan verdi. Şumerlər yazı materialı kimi İkiçayarasında bol olan gildən istifadə edirdilər. Şumerlər gildən lövhələr hazırlayır və üzərində yazı yazırdılar. Məhz bu yazılar 5 min il əvvəl mövcud olmuş Şumer cəmiyyətinin inkişaf yolunu izləməyə imkan verir. Bu vaxta qədər şumerlərə məxsus minlərlə gil lövhələr tapılmışdır. Bu lövhələr şumerlərin elmi, dünyagörüşləri, ticarət müqavilələri və problemləri haqqında məlumat verir.

Mixi yazı üçün vasitələr

Şumer katibləri

Yazı

Şumerlər ilk yazı mədəniyyəti yaradan xalqlardan biri hesab edilir. Onların yazıları e.ə. IV minillikdə Uruk şəhərində meydana gəlmişdir.

Şumerlərin ilk yazıları şəkli yazı idi. Lakin gil üzərində dairə, dalğalı xətlər və s. çəkmək çətin idi. Ona görə şəkillər işarələrlə əvəz olundu. Beləliklə, mixi yazı yarandı.

Şəkli yazı

Mənası		E.ə. 3500 il	E.ə. 2500 il	E.ə. 700 il	E.ə. 500 il
1.	Dağ				
2.	Tanrı				
3.	Günəş				

Təhsil

Dövlət inkişaf etdikcə onun gəlir və xərclərini, vergiləri hesablamaq, müxtəlif vəzifələrə təyin etmək üçün savadlı insanlar tələb olunurdu. Buna görə bütün şəhər-dövlətlərdə məktəblər fəaliyyət göstərirdi. Məktəblərdə təhsil ödənişli idi

və ancaq oğlanlar təhsil alırdı. Məktəblərə ustad adlanan şəxs başçılıq edirdi. Ustad "məktəbin atası", şagirdlər isə "məktəbin oğulları" adlanırdı. Ciddi intizama əsaslanan dərs günü uzun çəkirdi. Məktəbdə şagirdlərə, ilk növbədə, yazmaq, oxumaq, hesablama aparmaq öyrədilirdi.

Uşaqlar yumşaq gil üzərində yazmağı öyrənirdilər. Tapşırıqları yerinə yetirəndən sonra gili əzərək hamarlamaq və yeni lövhəyə çevirmək olurdu. Məktəblərdə divar lövhələrindən də istifadə olunurdu.

Qazıntılar zamanı tapılan lövhələrdən məlum olur ki, müəllimlər riyazi cədvəllər, məsələ-misal topluları tərtib etmiş, şagirdlər isə onları həll etmişlər.

S **Sizcə, İkiçayarasında yazı materialı kimi gil lövhələrdən istifadə edilməsinin səbəbi nə idi?**

Şumerdə ibtidai sinif



T **Şəkil əsasında şumerlərin təhsil prosesi haqqında təsəvvürlərinizi söyləyin.**

Elm

Şumerlər bacarıqlı riyaziyyatçılar idi. Onlar onluq hesablama ilə yanaşı, altmışlıq sistem də yaratmışdılar. İlk dəfə saatı 60 dəqiqəyə, çevrəni 360 dərəcəyə bölən məhz şumerlərdir. Onlar astronomiya və astrologiya ilə maraqlanır, gözlə gördükləri ulduzları müxtəlif bürclərə ayırırdılar.

Riyazi hesablama aparılmış gil lövhə

Şumer astronomları Ay və Günəş ilinə əsaslanan təqvimlər düzəltmiş, ili aylara bölmüşlər. Şumer astronomları Günəş və Ay tutulmalarının vaxtını əvvəlcədən müəyyən edə bilirdilər.



İkiçayarasında gil lövhələrin yazılması və saxlanılması

Memarlıq

Şumer memarlığında əsas yeri məbəd və saray tikililəri tuturdu. Şumer memarları çiy kərpicdən 3, 5, 7 mərtəbəli möhtəşəm zikkuratlar inşa edirdilər. Məbədlər düzbucaqlı formada olsalar da, yan divarları maili olur, tikiliyə estetik gözəllik verirdi. Məbədin yuxarısında yerləşən ibadət evindən astronomik müşahidələr aparılırdı.

Şumer heykəltəraşları daş və mərmərdən hökmdarların heykəllərini düzəldirdilər.

Şərq memarlığında saray və məbədlərin tikintisinə üstünlük verilməsinin səbəblərini araşdırın.



Uruk məbədində tədqiqat aparan alimlər kərpiclərin rənginə görə tikilinin aşağı, 2-ci mərtəbəsinin qara; 3-cü mərtəbəsinin qırmızı; yuxarı mərtəbəsinin göy; damının qızılı rəngdə olmasına diqqət yetirdilər. Bu, şumerlərin dünyanın quruluşu haqqında təsəvvürləri idi. Qara rəng yeraltı dünyanı, qırmızı – torpağı, yeri, göy – səmanı, qızılı isə günəşi simvolizə edirdi.

Arfa musiqi aləti

Qızıl dəbilqə

Şumer heykəlcikləri

Sənətkarlıq

Şumer ustaları qəlibtökmə, lehimləmə* və döymə üsullarından istifadə edə bilirdilər. Bu sənətkarlar yüksək ustalıqla qızıl və gümüşdən müxtəlif əşyalar, möhürlər hazırlayırdılar.

*** Lehimləmə**

metalları birləşdirmək üçün yapışdırıcı kimi qalay və digər maddələrdən istifadə olunur.

Şumer sənətkarlarının hazırladığı bəzək əşyalarını onların həyat tərzi və məşğuliyyəti ilə əlaqələndirin.

Hökmdar xanımının geyimi

Ədəbiyyat

Dünya tarixində yazıya alınmış ilk dastan – "Gilqameş haqqında dastan" Şumerdə yaranmışdır. Dastan çox məşhurlaşmış, hələ qədim dövrdə (e.ə. II minillik) müxtəlif dillərə (hurri, het) tərcümə olunmuşdur. Dünyanı su basması haqqında rəvayət ilk dəfə "Gilqameş haqqında dastan"da öz əksini tapmışdır. Müasir dövrdə əsər dəfələrlə nəşr olunmuş, bir çox xalqların dilinə tərcümə edilmişdir.

Gilqameş

Dastanın mərkəzində insan və onun hissləri, həyəcanı, sevinci, kədəri dayanır. Dastanda dostluq, sədaqət, şəxsi şöhrət axtarışı, igidlik tərənnüm edilir.

Şumerlər atalar sözləri və məsəllər yaradaraq onları yazıya alırdılar. Təxminən, beş min il əvvəl yaranmasına baxmayaraq, bu hikmətlərdə qaldırılan problemlər, arzu və ümidlər indiki dövrlə səsləşir.

Şumer atalar sözlərindən

Gümüşü çox olan xoşbəxt ola bilər. Arpası çox olan xoşbəxt ola bilər. Ancaq heç nəyi olmayan daha rahat yatar.

Başçısız əsgər əkinçisiz tarlaya bənzər.

Pislik etmə ki, daima qorxu içində yaşamayasan.

Tanrın da var, hökmdarın da. Amma qorxun ən çox vergi məmurundandır.

Din

Şumerlər çox dindar olmuşlar. Onlar öz tanrılarını üç qismə: göy – səma, yer və yerin altında olanlara ayırırdılar. Şumerlərin inanclarına görə, baş tanrı An səmadan dünyanı idarə edirdi. Tanrılar da insanlar kimi kişi və qadın olurdu. İnanna əsas ilahə və bərəkət tanrısı sayılırdı.

Aya ibadət edən şumerlər

İkiçayarası çox isti olduğundan şumerlər tarlalarda çox zaman gecələr, ay işığında işləyirdilər. Buna görə onlar Ay tanrısını sevir və ona xüsusi sitayiş edib, qurbanlar verirdilər.



Şumerlər məbəddə

5 İKİÇAYARASININ DİGƏR DÖVLƏTLƏRİ

Babil, Aşşur, Asma bağlar, Hammurapi qanunları, Nineva, Aşşurbanipalın kitabxanası

Babil qədim dünyanın ən böyük şəhərlərindən olmuşdur. O, Fərat çayı sahilində, qədim Şumer şəhərlərindən birinin yerində yaranmışdı. Şəhər Şumer dilində **Kadinqir**, yəni "Tanrının qapısı" adlanırdı. Ərəbistan yarımadasından gələn tayfalar şəhəri tutandan sonra ona öz dillərində eyni mənanı verən **Bab-İli** adını verdilər.

Babil şəhəri mühüm ticarət yollarının keçdiyi ərazidə yerləşirdi.

E.ə. II minilliyin əvvəlindən İkiçayarası şəhər-dövlətləri arasında ticarət əlaqələri gücləndi. Bu, Babil şəhərinin mühüm ticarət mərkəzinə çevrilməsinə səbəb oldu. Su və karvan (quru yollar) ticarəti Asiyanın digər ölkələrinə Babil şəhərindən keçirdi.

T **Babil şəhərinin mühüm ticarət mərkəzinə çevrilməsinin səbəblərini müəyyən edin.**

Babil şəhəri Fərat çayı sahilində, qədim Şumer şəhərlərindən birinin yerində yaranmışdı.

Tacirlər Kiçik Asiya, Aralıq dənizinin sahilləri və İran körfəzi əraziləri ilə ticarət əlaqələri yaratmışdılar. Hələ e.ə. III minillikdə Şumer şəhərləri bu körfəz vasitəsilə Hindistan tacirləri ilə mal mübadiləsi edirdilər.

İkiçayarası dövlətlərdən başqa ölkələrə sənətkarların yüksək ustalıqla hazırladığı məhsullar (rəngli saxsı qablar, qızıl və qiymətli daşlardan hazırlanan bəzək əşyaları), ərzaq və s. aparılırdı.

E.ə. II minilliyin əvvəllərində Babil şəhər-dövləti meydana gəldi. Babil dövlətinin ən qüdrətli dövrü hökmdar Hammurapinin hakimiyyəti vaxtında oldu. Hammurapi bütün İkiçayarası şəhər və dövlətlərini Babil dövlətinin hakimiyyəti altında birləşdirdi. Ölkəni birləşdirdikdən sonra Hammurapi geniş abadlıq işləri apardı. Bacarıqlı rəhbər və təşkilatçı kimi o, təsərrüfatın bütün sahələrinə (əkinçilik, maldarlıq, bağçılıq), həmçinin kanal və yolların çəkilməsinə, ticarətə, sənətkarlığın inkişafına aid işlərə şəxsən rəhbərlik edirdi. Nəticədə Mesopotamiya (İkiçayarası) Asiyanın inkişaf etmiş regionuna, Babil şəhəri isə onun mərkəzinə çevrildi.



Babil ustalarının hazırladığı qızıl boyunbağı

Dövlətin qüdrətli dövründə Babildə milyona yaxın insan yaşayırdı. Şəhər möhtəşəm qala divarları və bürclərlə əhatə olunurdu. Şəhərin 8 darvazası var idi. Bunlardan ən məşhuru ilahə İştarın adı ilə adlanırdı. Şəhərin daxilində hökmdarların sarayı, tanrıların şərəfinə ucaldılmış məbədlər, dünyanın 7 möcüzəsindən biri hesab olunan Asma bağlar və Babil qülləsi yerləşirdi.

Babil hökmdarının İştar qapısından zəfər keçişi



Hammurapinin barelyefi

Babilin Asma bağları

Təsadüfi deyil ki, Hammurapinin hakimiyyəti dövründə İkiçayarası Babilistan adlanmağa başladı.

Hammurapi bütün ölkə üçün vahid qanunlar yaratdı. O, Şumer şəhər-dövlətlərdə olan qanunları təkmilləşdirib külliyyat halında cəmləşdirdi. Qanunlar cəmiyyət həyatının bir çox sahələrini: torpağa sahiblik, ticarət qaydaları, borc və faiz, cinayətlərə görə verilən cəzalar, hətta həkimlərin də fəaliyyətini tənzimləyirdi.

Ancaq qanunlar insanlar arasında fərq qoyur, varlı və yuxarı təbəqədən olan insanların mülkiyyətini və mənafeyini qoruyurdu.

Hammurapinin qanunları bu dövrdə İkiçayarası ərazidə quldarlıq münasibətlərini izləməyə imkan verir.

Babildə Zikkurat

Qanunlardan aydın olur ki, bu dövrdə borcunu qaytara bilməyən insanlar da qula çevrilə bilərdilər. Borca görə köləlik 3 il çəkirdi. Qulun övladları da qul olurdu. Valideynlərindən biri azad insan olduqda övladı azad olurdu.

Sizcə, qanun və qaydalar necə olmalıdır?

Fərqli qanunlar

Eyni hərəkətə görə varlı ilə kasıb insanlar müxtəlif cəza alırdılar:

Əgər bir adam özünə bərabər adamı vurarsa, cərimə verməlidir.

Əgər bir adam özündən artıq adamı (kahin, əyan) vurarsa, qamçı ilə 60 dəfə qamçılanmalıdır. Qanunlar cəmiyyət daxilində olan bərabərsizliyi möhkəmləndirirdi.

Hammurapinin qanunları həkk olunmuş **bazalt daş** Ur şəhərindən tapılmışdır. Mixi yazı ilə yazılmış qanunlar 282 maddədən ibarətdir.

Hammurapinin qanunlarından:

- Mən, Hammurapi, tanrılar tərəfindən təyin edilmiş başçı, ... şahların ən birincisi, ölkəyə haqq və ədalət gətirdim.
- Əgər bir adam məbədin və ya hökmdarın əmlakını oğurlayarsa, o öldürülməlidir.
- Əgər bir adam qaçmış qulu gizlədərsə, o öldürülməlidir.
- Əgər bir adam başqasının öküzünü öldürərsə, əvəzində öküz verməlidir.
- Əgər təbib xəstənin gözündəki pərdəni kəsib götürərsə, ona müəyyən olunmuş miqdarda gümüş verməlidir.
- Əgər təbib xəstənin gözünü müalicə edərkən göz kor olarsa, təbibin əli kəsilməlidir.

Hammurapinin hakimiyyətindən sonra Babil dövləti zəifləyərək qarət olundu. E.ə. II minilliyin sonlarında Babil İkiçayarasının digər güclü dövləti olan Aşşura tabe edildi.

Babilin ikinci dəfə yüksəlişi e.ə. VII əsrdə başladı. Bu dövrdə Babil yenidən İkiçayarasında ən güclü dövlət oldu. Dövlət süqut etdikdən sonra da Babil şəhəri öz əzəmətini və gözəlliyini saxlayırdı. Herodot Babili gördüyü şəhərlər arasında ən gözəl şəhər hesab edirdi.

Babil şəhərinin görüntüsü

Aşşur (Assuriya) dövləti

Dəclə çayı sahilində salınan bu şəhər tanrı Aşşurun şərəfinə adlandırılmışdır. Əvvəllər kiçik ticarət şəhəri olan Aşşur tədricən güclü şəhər-dövlətə çevrildi. Aşşur şəhər-dövlətinin ilk yüksəlişi e.ə. II minilliyin ortalarında baş verdi.

E.ə. VIII əsrdə orduda əsaslı dəyişiklik etdikdən sonra dövlət daha da gücləndi.

Döyüş arabaları süvari – atlı hissələrlə əvəz olundu. Qoşundan öndə gedən kəşfiyyat dəstələri, ilk dəfə mühəndis qoşun hissələri və rabitə bölmələri yaradıldı. Əsas dəyişiklik



S **Aşşur ordusunun qələbələrində nəyi daha əsas hesab edirsiniz? Fikirlərinizi əsaslandırmağa çalışın.**

isə ordunun ancaq peşəkar döyüşçülərdən təşkil olunması idi. Aşşur ordusu həm də dəmirdən hazırlanan silahlarla təchiz olunurdu.

Güclü, peşəkar ordu yaradan Aşşur İkiçayarasını tamamilə özünə tabe edib, Ön Asiyanın digər ərazilərinə hücumlara başladı.

Aşşur hökmdarları Suriyanı, Fələstini, Finikiyanı işğal edib dövlətin sərhədlərini Aralıq dənizi sahillərinə qədər genişləndirdilər. Misir və Urartu üzərində qələbələr Aşşurun Asiyada mövqelərini möhkəmləndirdi. E.ə. VIII–VII əsrin əvvəllərinə kimi Aşşur Ön Asiyanın ən güclü dövləti hesab edilirdi.

E.ə. VII əsrdə dövlətin paytaxtı Nineva adlanan yeni şəhərə köçürüldü.

Nineva şəhərinin görüntüsü

T **Şəkil əsasında Nineva şəhərini təsvir edin və mətn hazırlayın.**

İşğal olunan ərazilərin əhalisi ilə olduqca amansız rəftar edilirdi. Müqavimət göstərən ərazinin əhalisi ən vəhşi üsullarla məhv edilir, şəhərlər yerlə-yeksan olunur, ölkənin sərvəti tamamilə qarət edilirdi. Bu siyasət tabelik altına alınan xalqlarda Aşşura qarşı nifrət hissini artırırdı.

Aşşur hökmdarları Urmiya gölü hövzəsinə də tez-tez basqınlar edirdilər.

Manna dövlətinin güclənməsi Aşşur hökmdarlarının siyasətində dəyişiklik yaratdı. Onlar Urmiya gölü ətrafındakı Manna ilə müttəfiqlik əlaqələri qurdular. Urartu dövlətinə qarşı birgə mübarizə aparmağa üstünlük verdilər.



Nineva şəhərində hökmdar sarayı

Aşşur döyüşçüləri

E.ə. VII əsrin əvvəllərində Qara dəniz ətrafından **türk-iskit** (Aşşur mənbələrində **İş-quz**) tayfalarının yürüşlərinin başlamasından sonra vəziyyət dəyişdi. İskitlər köçəri həyat keçirdiklərindən onlarda atçılıq inkişaf etmişdi. İskit döyüşçüləri at belində düşmənə ox yağdırır, sürətli manevrlərlə rəqiblərini çətin vəziyyətə salırdılar. İlk döyüşlərdə Aşşur ordusu iskitlərin süvari alaylarının qarşısında davam gətirməyib geri çəkildi. Aşşurun məğlubolma xəbəri işğal altında olan xalqları ümidləndirdi. Eyni vaxtda bir neçə ərazidə üsyanlar başladı. Manna dövləti tam müstəqil olmaq üçün iskitlərlə yaxınlaşdı. Nəticədə bəzi ərazilər Aşşurun tabeliyindən azad oldu. Hökmdar Aşşurbanipalın sayəsində Aşşur bir müddət dövlətçiliyini qoruya bilsə də, onun qüdrəti sarsılmışdı.



"...Aşşur şahı, sənin dindarların yatıb, döyüşçülərin yıxılıb. Sənin xalqın dağlara səpələnib, onları bir araya gətirə bilən yoxdur... Sənin haqqında eşidənlər əl çalıb alqışlayır, çünki sənin daim olan zülmünü kim görməyib ki?"

Peyğəmbər Nahumun kitabı

E.ə. VII əsrin sonlarında Midiya və Aşşurun İkiçayarasındakı əbədi rəqibi Babil dövləti birləşərək həlledici hücuma başladı.

Midiya ordusu aşşurlar üçün müqəddəs sayılan Aşşur şəhərini hücumla tutdu, qarət edib dağıtdı. Aşşurların əsrlər boyu Ön Asiya xalqlarından qarət edib öz məbədlərində saxladıqları ölçüyəgəlməz sərvəti talan edildi.

E.ə. 612-ci ildə Midiya və Babil orduları Aşşurun sonuncu paytaxtı – "Aslanlar yuvası" Ninevanı tutaraq şəhəri talan etdilər, dağıdıb yandırdılar. Aşşur hökmdarı özünü sarayının alovları içinə ataraq öldürdü.

Əsrlər boyu başqa xalqlara məhrumiyyətlər yaşatmış, zülmə məruz qoymuş dövlət az sonra süqut etdi. Onun ərazisi qaliblər arasında bölündü.

Ninevanın süqutu

BABİL VƏ AŞŞUR MƏDƏNİYYƏTİ

Babil və Aşşur xalqlarını Şumer mədəniyyətinin davamçıları hesab etmək olar. Bu xalqlar şumerlərdən qalma zəngin mədəniyyəti mənimsəyərək onu özlərinə uyğunlaşdıra bildilər.

Mixi yazı bu xalqların əsas yazısı olaraq qalırdı. Babil astronomları Ay ili təqvimini təkmilləşdirə bildilər.

Aşşurlar və babillilər də öz tanrılarına zikkuratlar ucaldırdılar.

İncəsənət

Aşşur və babillilərin əsas yenilikləri rəssamlıq və heykəltəraşlıqla bağlı olmuşdur.

Minilliklər ərzində torpağın altında qalmış Aşşur şəhərləri arxeoloji qazıntılar nəticəsində işıq üzü gördükdə alimlər heyrətə gəlmişlər. Aşşur saraylarındakı qabarıq divar təsvirləri bədii zövq və təbiiliyi ilə hamını heyran qoymuşdur.



İştar qapısı üzərindəki ornament

Divar rəsmləri hökmdarların ov səhnələrini, saray həyatını, müharibələrdə qələbələrini əks etdirir.

Aşşur-Babil heykəltəraşlığı sahəsində mühüm cəhət İkiçayarası əsatirlərinin əfsanəvi canlılar – qanadlı öküz, qrifon və sfinks heykəllərinin geniş təbliği idi.

Memarlıqda əsas yeri saray və məbədlər tuturdu. Aşşur hökmdarları özlərini şöhrətləndirmək üçün yeni, möhtəşəm saray tikdirir, onu öz zövqlərinə uyğun divar rəsmləri, əsatir canlıları, rənglərlə bəzədirdilər. Saray həyat fəaliyyəti üçün lazım olacaq hər şeylə təmin olunurdu. Ona görə saray ayrıca bir şəhərə oxşayırdı.

Aşşur hökmdar sarayı

T **Aşşur və Babil mədəniyyətlərinin Şumer mədəniyyətinin davamçısı olduğunu hansı faktlar təsdiq edir? Mətndən istifadə etməklə fikrinizi əsaslandırın.**

Oxla vurulduğu üçün pəncələri iflic olan və sürünən aslanın son nəriltisi

İnsan başlı qanadlı şir heykəli

Babil qülləsi haqqında rəvayət

Rəvayətə görə, dünyanı su basdıqdan sonra insanlar hamısı bir dildə danışırdı. Bir gün insanlar tanrıların yanına qalxa bilmək üçün hündür bina tikmək fikrinə düşdülər. Binanın bir hissəsini tikdikdən sonra tanrılar bundan xəbər tutdular. Onlar insanların bu hərəkətini bəyənməyib tikintidə işləyən insanların dillərini dəyişdirərək müxtəlif etdilər. Səhəri gün tikintidə çalışan insanlar bir-birini anlaya bilmədilər. Divar hörənlər, kərpic kəsənlər, mala qarışdıranlar – biri digərinin dilini başa düşmədi.

Buna görə ustalar dalaşıb çıxıb getdilər və qüllə yarımçıq qaldı.

Sizcə, rəvayət vasitəsilə hansı fikir çatdırılır?



Dünyanın qədim kitabxanası

Aşşurun sonuncu qüdrətli hökmdarı Aşşurbanipal öz dövrünün ən savadlı adamlarından biri olmuşdur. O, əvvəlki hökmdarlardan fərqli olaraq elmə, mədəniyyətə bağlı idi. O, İkiçayarasında yaranan ədəbi abidələri: şeir, nağıl, əfsanə və rəvayətləri toplamağa çalışırdı. Buna görə İkiçayarasının hər yerinə yüzlərlə mirzə göndərmiş, bütün mövcud olan ədəbiyyat nümunələrinin üzünün köçürülərək saraya gətirilməsini əmr etmişdi. Aşşurbanipal özü də bu yazıların üzünün köçürülməsində iştirak edirdi. Onun səyləri nəticəsində 30 min gil kitabədən ibarət kitabxana yarandı. Nineva düşmənlər tərəfindən dağıdılıb yandırılsa da, Aşşurbanipalın kitabları salamat qalmışdır. Aşşurbanipalın sayəsində biz bu gün qədim Şumer əfsanə və hekayələri, babillilərin və aşşurların əsatirləri haqqında məlumatı ala bilirik.

Aşşurbanipalın İkiçayarasında yaranan ədəbi abidələri toplamaqda məqsədi nə idi?

6 ODA SİTAYİŞ EDƏNLƏR

Arilər, Midiya, Kiaksar, II Kir, Persepol, Qavqamela



Hind və irandilli xalqlar ari tayfalarının varisləri sayılır. Köçərimaldar həyat tərzi sürən ari tayfaları Şərqi Avropa çöllərində yaşayırdılar. E.ə. II minillikdə Avropada kəskin iqlim dəyişikliyi baş verdi. Arilər əlverişli ərazilər tapmaq məqsədilə köç etdilər. Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçərək bir hissəsi İranda, digər hissəsi isə Hindistanda məskunlaşdı. Arilərin gəlişinə qədər indiki İranda müxtəlif dillərdə danışan tayfalar yaşayırdı. Zaman keçdikcə yerli əhali arilərin dillərini qəbul etmiş, nəticədə irandilli tayfalar yaranmışdır. İrandilli tayfaların adı ilk dəfə Aşşur yazılarında çəkilir.

Midiya dövləti

Midiya bir dövlət kimi İranın mərkəzində meydana gəlmişdi. Uzun müddət bu ərazilər Assur hökmdarlarının asılılığında olmuşdur. İskitlərin Ön Asiyaya gəlməsi ilə Midiya Assuriyaya qarşı mübarizəyə başladı. Bu mübarizəyə Kaştariti başçılıq edirdi. O, e.ə. 672-ci ildə Assuriya asılılığına son qoydu, Midiyanı müstəqil dövlətə çevirdi. Lakin çox keçməmiş iskit tayfaları Assur dövləti ilə Midiya arasında başlanan yeni toqquşmalarda assurlara kömək etdilər. Nəticədə məğlub olan Midiya bir müddət iskitlərin hakimiyyəti altına düşdü.



Midiya hökmdarı

S **Sizcə, nə üçün hind və irandilli xalqlar ari tayfalarının varisləri sayılır?**

T **İskitlərin Midiya dövlətinin tarixində oynadığı rolu müəyyənləşdirin.**

E.ə. 625-ci ildə Kiaksar Midiyada İskit ağalığına son qoydu. Xırda vilayət hakimlərini mərkəzi hakimiyyətə tabe etdi. Daxili qüvvələri birləşdirdikdən sonra Kiaksar Midiyanın qəddar düşməni Assuriyaya qarşı müharibəyə hazırlaşdı. O, Midiya ordusunu yenidən təşkil etdi. Ordunu silah növünə uyğun nizəçi və oxçu dəstələrinə böldü. Suvarilər dəstəsini piyadalardan ayırdı. Babil dövləti ilə ittifaqa girdi. Müttəfiqlərin təzyiqi nəticəsində Assuriya bir dövlət kimi məhv oldu. Onun torpaqları Midiya ilə Babil arasında bölüşdürüldü. E.ə. 590-cı ildə Manna, Urartu və İskit-İşquz dövlətlərinin ərazisi də Midiyaya birləşdirildi.

Beləliklə, Kiaksar Midiyanı Ön Asiyanın qüdrətli dövlətinə çevirdi.

Daha sonra Kiaksar Kiçik Asiyadakı Lidiya dövləti ilə müharibəyə başladı və dövlətin sərhədlərini qərbdə Qızıl İrmaq çayına çatdırdı.

Kiaksarı bir hökmdar kimi necə xarakterizə edərdiniz?

Herodot Midiya-Lidiya müharibəsinin qurtarmasının səbəbi haqqında:

"Hər iki tərəf müharibəni eyni uğurla aparırdı. Müharibənin altıncı ili onlar yenidən toqquşan zaman döyüş qızışdı, qəflətən gündüz gecəyə döndü. ...Lidiyalılar və midiyalılar gün əvəzinə, gecə görəndə döyüşü dayandırdılar və aralarında sülh bağlamağa tələsdilər".

Sizcə, burada söhbət hansı təbiət hadisəsindən gedir?

Dövlətin süqutu

Kiaksardan sonra hakimiyyətə onun oğlu Astiaq gəldi. Astiaqın hakimiyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkkəbləşməyə başladı. Daxili siyasətdə Astiaq zadəganların hüququnu məhdudlaşdırırdı. Nəticədə hökmdarla əyanlar arasında ziddiyyətlər artdı. Bu dövrdə Midiya sarayında farsmeyilli qüvvələr gizli fəaliyyət göstərirdi. Bu qüvvələr Fars hakimi II Kiri hakimiyyətə gətirməyə çalışırdılar. Üç il davam edən müharibə nəticəsində II Kir Midiyanın paytaxtı Ekbatan (Həmədan) şəhərini tutdu. Bununla Midiya dövləti e.ə. 550-ci ildə süquta uğradı və onun ərazisi yaranmaqda olan Əhəməni (fars) dövlətinin tərkibinə qatıldı.

Midiyanın süqutunu şərtləndirən amillər hansılar idi?

II Kir

Əhəməni dövləti

Farslar Midiya mədəniyyətinin bir çox cəhətlərini, eləcə də dövlət quruluşu və idarəetmə sistemini mənimsədilər. Bir neçə il ərzində II Kir Midiya dövlətinin tərkibinə daxil olan ölkələri özünə tabe etdi. Tezliklə fars ordusu Kiçik Asiyada güclü dövlət sayılan Lidiyanı, e.ə. 539-cu ildə Babil şahlığını, Kiçik Asiyada yerləşən yunan şəhərlərini işğal etdi. Onun dövründə Əhəməni dövləti qüdrətli dövlətə çevrildi. Ön Asiyanın müxtəlif ictimai, iqtisadi inkişaf səviyyəsində olan ölkələri və xalqları bir dövlət tərkibində birləşdirildi. Əhəməni dövlətinin sərhədləri şərqdə Hindistana, qərbdə isə Aralıq və Egey dənizlərinin sahilinə çatırdı. E.ə. 530-cu ildə II Kir massaget tayfaları üzərinə yürüş etdi. Bu yürüş II Kir üçün faciəvi sonluqla nəticələndi.

II Kir həlak olduqdan sonra oğlu II Kambiz Əhəməni taxt-tacına sahib oldu. II Kambiz ölkədə baş vermiş çıxışları yatırdıqdan sonra Misir yürüşünə çıxdı. Misirlilərin güclü müqavimətinə baxmayaraq, əhəmənilər Misiri işğal etdilər. Əhəməni şahı I Daranın hakimiyyətinin ilk illərində bütün ölkə ərazisini üsyanlar bürüdü. I Dara böyük çətinliklə üsyanları yatırtdı.

Tezliklə işğallara başlayan əhəmənilər Hindistanın şimal-qərb hissəsini, Frakiyanı, Makedoniyanı özlərinə tabe etdilər.

T **II Kirin ələ keçirdiyi əraziləri kontur xəritədə işarələyin.**

I Daranın daxili siyasəti

Əhəməni dövlətinə daxil olan ölkələri vahid mərkəzin hakimiyyəti altında saxlamaq üçün I Dara islahatlar həyata keçirdi. Köhnə inzibati bölgülər və xəractoplama qaydaları ləğv edildi. İlk növbədə, I Dara əyalətləri idarəetmə sistemini

I Dara

Əhəməni ordusu döyüş zamanı

yenidən təşkil etdi. O, dövləti satraplıq (canişinlik) adlanan inzibati-vergi dairələrinə böldü. Dövlət 20 satraplığa bölünmüşdü. Belə inzibati dairələrin başında **satrap** dururdu. Satraplar şahın daimi nəzarəti altında idilər. Bu nəzarəti gizli xəfiyyələr həyata keçirirdi. Onlara "şahın qulaq və gözləri" deyirdilər. Fars dilinin tətbiqi genişlənirdi. İmperiyanın müxtəlif əyalətləri ilə əlaqəni asanlaşdırmaq üçün I Dara yol tikintisinə diqqəti artırmışdı. Yolun hər 20 km-də şah dayanacaqları tikilmişdi. Burada yaşayan süvarilər şahın əmr və göstərişlərini estafet sistemi ilə təcili olaraq ölkənin hər yerinə yayırdılar. I Dara bütün imperiyada tətbiq olunan vahid pul sistemi yaratdı. Belə sikkələr I Daranın adı ilə "darik" adlandırıldı. Sikkələr üzərində şahın təsviri verilmişdi.

S **Sizcə, dövləti daxilən möhkəmləndirmək üçün I Daranın hansı tədbirini daha yüksək qiymətləndirmək olar?**

"Darik" (qızıl pul)

T **Şəkillərə əsasən Əhəməni ordusunun necə silahlandığını təsvir edin.**

Əhəməni döyüş arabaları

T **Döyüş arabalarını müqayisə edin.**

Dövlətin süqutu

I Daranın dövründə İran (Əhəməni)-yunan müharibəsi başladı. Uzun sürən müharibə Əhəməni dövləti üçün uğursuz bitdi.

I Daradan sonra hakimiyyətə gələn Əhəməni şahları onun qədər bacarıqlı olmadılar. E.ə. IV əsrin sonlarında Əhəməni imperiyası tənəzzülə uğradı. Makedoniya hökmdarı İsgəndərin hücumu imperiyanın süqutunu sürətləndirdi. Makedoniyalı İsgəndərlə sonuncu Əhəməni şahı III Daranın orduları arasında e.ə. 331-ci ildə Qavqamela çölündə həlledici döyüş baş verdi. Döyüşdən bir gün əvvəl İsgəndərin sərkərdəsi düşmən qoşununun saysız-hesabsız olduğunu görür. O, düşmənə gecə ikən qəflətən hücum etməyi təklif edir. İsgəndər isə: "Qələbəni oğurluqla qazanmaq istəmirəm", – deyə cavab verir.

Əhəməni ordusunun məğlubiyyəti ilə bitən döyüşdən sonra ölkənin paytaxtı Persepol ələ keçirildi. Beləliklə, e.ə. 330-cu ildə Əhəməni dövləti süqut etdi.

Əhəmənilər yunanlarla döyüşdə

Falanqa

Makedoniya və Yunanıstanda piyada döyüşçülərin düzülüş qaydasıdır.



Döyüşün gedişatı

Qavqamela döyüşünün sxemi

Əhəməni qoşunları

- döyüş arabaları
- ölümsüzlər (xüsusi qoşunlar)
- Yunan muzdluları
- süvarilər
- piyadalar

Makedoniya qoşunları

- süvarilər
- piyadalar
- yüngül piyadalar
- oxatanlar

MİDİYA VƏ ƏHƏMƏNİ MƏDƏNİYYƏTİ

Din

Midiya hökmdarı Astiaqın dövründən etibarən zərdüştlük Ön Asiyada əsas dinlərdən birinə çevrildi. E.ə. VII əsrdə meydana gəlmiş bu dinin müqəddəs kitabı "Avesta"dır. Zərdüşt təlimi xeyirxahlığı, səxavəti, doğruluğu təbliğ edir, insanları zülm və qanunsuzluqdan çəkinməyə çağırır. Zərdüştilikdə baş ilahi qüvvə Hörmüzddür. Hörmüzd odu təmsil edir. Zərdüşt dininə inananlar odu müqqədəs sayır və onun nuruna sitayiş edirdilər.

Zərdüşt kahinləri

"Avesta"dan bir parça:

Zərdüştün "Harada yaxşıdır?" sualına Hörmüzdün cavabı:

"Həqiqətən, orada ki, ey Spitama Zaratuştra (Zərdüşt), nə zaman ki dindar ər əlində odun, ağac budaqları, süd, həvəng (qab), dinə inam barədə müqəddəs söz deyə-deyə ... (İlahiyə) müraciət edərək hərəkət edir. ...Orada yaxşıdır ki, mömin ər ev tikmişdir, onu odla, südlə, arvad-uşaqla, ev heyvanları sürüsü ilə təmin etmişdir.

...Orada yaxşıdır ki, nə zaman ki xeyli əkirlər, taxıl, ot, barlı bitkilər becərirlər, susuz yerə su çəkirlər, bataqlığı qurudurlar, ... çoxlu buynuzlu xırda və iri heyvan saxlayırlar".

S **Mövcud mənbə əsasında Midiya və ya Əhəməni dövlətlərinin təsərrüfat həyatı haqqında hansı məlumatı əldə etmək mümkündür?**

İncəsənət

Əhəmənilər dövrünün memarlığı Qədim İran mədəniyyətinin nailiyyətlərindən biridir. Pasarqad, Persepol, Suz şəhərlərindəki saray kompleksləri, Bisütun qayaüstü relyefləri və müasir Nəqşi-Rüstəmdəki (Persepoldan bir qədər aralı) Əhəməni hökmdarlarının türbə tipli abidələri Əhəməni memarlığının əzəmətli abidələridir. Pasarqad şəhəri geniş bir düzənlikdə, dəniz səviyyəsindən xeyli yüksəklikdə yerləşirdi. Fars maddi mədəniyyətinin ən qədim abidəsi olan şəhərin binaları hündür bir meydançada ucaldılmışdır. Binalar tək daş relyeflərlə deyil, həm də bizə gəlib çatan rəngli plitələrlə, rəsm əsərləri, taxta oymalar və fil sümükləri ilə bəzədilirdi. Hökmdar sarayları parklar və bağlar arasında yerləşirdi. Nəcib gözəlliyi ilə diqqət çəkən Pasarqadın, bəlkə də, ən diqqətçəkən abidəsi bu günə qədər gəlib bizə çatmış II Kirin dəfn olunduğu məqbərədir.

Öküz fiqurlu sütun başlığı

İran döyüşçülərinin saray divarları üzərində təsviri

Şir təsvirli qızıl qədəh

Sənətkarlıq

Bədii sənətkarlıq farslar arasında çox populyar idi. Abidələr üzərində ev və vəhşi heyvanların (qoç, öküz, aslan, qaban və s.) realist təsvirləri çəkilirdi. Əhəmənilər dövlətində yüksək keyfiyyətə malik şüşədən və saxsıdan ibarət kasalar, vazalar, müxtəlif yemək qabları hazırlanırdı. Belə qablar hətta Yunanıstanda belə yüksək qiymətləndirilirdi.

İran mədəniyyəti ilə Babil və Aşşur mədəniyyətləri arasında hansı oxşarlıqlar var? Bu oxşarlığın səbəbi nədir?

Persepol

Yazı

Böyük bir dövləti idarə edən əhəmənilər inkişaf etmiş bir yazı sisteminə ehtiyac duyurdular. Qədim Şərqin mədəni nailiyyətlərinə sahiblənən farslar Mesopotamiyada yaradılmış mixi yazını mənimsədilər. Farsların istifadə etdikləri işarələrin görünüşü babillilərin mixi yazı işarələrinə bənzəyirdi. Lakin səsləri təyin etmək prinsipi tamamilə fərqli idi. Hər bir söz və ya hər heca xüsusi bir işarə ilə təyin olunurdu. Bu işarələrlə hökmdar fərmanları, qanunları yazıya alınırdı.

Bunlardan ən məşhuru Bisütun qaya kitabəsidir.

Bisütun qaya kitabəsi haqqında məlumat toplayın.

Astronomiya

Əhəmənilər Ay təqvimi də yaratmışdılar. Onlar ili 354 günə və 12 aya bölmüşdülər. Qədim fars təqviminə görə, il Günəş ilindən 11 gün qısa idi. Hər üç ildən bir Ay və Günəş təqvimi arasındakı fərq 33 günə çatırdı. Bu fərqi aradan qaldırmaq üçün isə on üçüncü ay əlavə edilirdi. Ay adları kənd təsərrüfatı işlərinə uyğun seçilirdi.

Sizcə, ay adlarının kənd təsərrüfatı işlərinə uyğun seçilməsinin səbəbi nə ola bilər?

Bisütun qaya kitabəsi

7 ƏRSAKLAR ÖLKƏSİ

Parn tayfası, Arsak, II Mitridat, Karra döyüşü, "Turan taktikası"

Makedoniyalı İsgəndərin ölümündən sonra onun qurduğu imperiya sərkərdələri arasında bölüşdürüldü. Onlar Makedoniyalı İsgəndəri tanrılaşdırır və özlərini ona oxşatmağa çalışırdılar. Onun kimi geyinir, böyük sərkərdəni təqlid edirdilər.

S **Sizcə, Makedoniyalı İsgəndərin silahdaşları özlərini nə məqsədlə ona bənzədirdilər?**

Belə sərkərdələrdən biri də Selevk idi. O, əvvəlcə Suriyanı, sonra isə Babili ələ keçirdi. Beləliklə, öz adı ilə adlanan dövlətin əsasını qoymuş oldu. Selevk kəsdirdiyi metal pulun üstünə Makedoniyalı İsgəndərin əksini döydürmüş, bununla da onun davamçısı olduğunu göstərməyə çalışmışdı. Tezliklə Selevkilər hakimiyyətlərini şərqə doğru genişləndirdilər. **Parfiya** dövlətinin əsasını qoymuş Parn tayfaları da əvvəllər Selevkilərin şərq əyalətində – Xəzər dənizi ilə Amudərya çayı arasında yaşayırdılar. Əsas məşğuliyyəti yaylaq-qışlaq maldarlığı olsa da, sonralar əkinçiliklə də məşğul olmuş, oturaq həyata keçmişlər.

A **Maldarlıqdan oturaq həyata keçməyin Parn tayfaları üçün hansı üstünlüyünün olduğunu araşdırın.**

Dövlətin yaranması

Makedoniyalı İsgəndər imperiyasının yerində yaranan dövlətlərlə müharibələr Selev-

Selevkilər dövlətinin xəritəsi

Parfiya dövlətinin əsasını qoymuş Parn tayfaları Xəzər dənizi ilə Amudərya çayı arasında yaşayırdılar.

kilər dövlətini zəiflədirdi. Bundan istifadə edən Parn tayfasının başçısı Arsak* (Arşak) e.ə. 247-ci ildə Parfiya dövlətinin əsasını qoydu. Bəzi qədim mənbələrdə o, "işquz* və saka mənşəli tayfalardan çıxmış biri" kimi yad edilir.

*** Arsak**

Ərsak – sak əri, kişisi

*** İşquz**

İç oğuz, iskit

Nisada hökmdar sarayının daxili görünüşü

İlk vaxtlar dövlətin paytaxtı Nisa şəhəri idi. Lakin qərbə doğru uğurlu yürüşlərdən sonra Parfiya hökmdarlarının əsas iqamətgahı "Qurd şəhəri" – Ktesifon oldu.

Hökmdar **II Mitridatın** dövründə Parfiya dövləti daha da gücləndi. Artıq ölkənin sərhədləri Hindistandan Dəclə çayına qədər uzanırdı. Tezliklə Şərqi Anadolu torpaqları da ələ keçirildi.

II Mitridat

A **II Mitridatın yaşadığı illəri və Parfiyadan qərbdə mövcud olan dövlətləri araşdırın.**



Parfiya süvarisi döyüşdə

S **Parfiya dövlətinin əhatə etdiyi ərazilərdə hazırda hansı dövlətlər vardır?**



Romalı döyüşçü Karrada

Parfiya dövlətinin öz sərhədlərini şərqə doğru genişləndirməsi Roma respublikası ilə müharibələri qaçılmaz edirdi. E.ə. 53-cü ildə Şimali Mesopotamiyada Karra adlı yerdə döyüş baş verdi. Bu döyüşdə məşhur "Turan taktikası"ndan istifadə edən Parfiya ordusu romalıları ağır məğlubiyyətə uğratdı. Roma sərkərdəsi Krass öldürüldü.

Parfiya-Roma rəqabəti sonrakı əsrlərdə də davam etdi. Lakin Yaxın və Orta Şərq uğrunda mübarizədə tərəflərdən heç biri həlledici üstünlük qazana bilmədi.

Karra döyüşünə həsr edilmiş medal



T **"Turan taktikası" haqqında məlumat toplayın, onun necə tətbiq edildiyini təsvir edin.**

Böyük İpək yolunun üzərində yerləşməsi Parfiya dövlətinin dünya ticarətində vasitəçi rol oynamasına şərait yaratmışdı. Mühüm ticarət yolları buradan keçərək Romaya gedirdi. Parfiyalılar bu yolları qoruyur, ticarəti öz nəzarətlərində saxlayırdılar.

Böyük İpək yolu haqqında məlumat toplayın, iqtisadi əhəmiyyətini təsvir edin.

Parfiya hökmdarları Atropatena və Albaniya ilə sıx siyasi, iqtisadi və mədəni əlaqələr saxlayırdı. Onlar Atropatenanın hakim sülaləsi ilə qohumluq əlaqələri də yaratmışdılar. Hətta bu dövləti bir müddət Atropatilər nəslinin nümayəndələri idarə etmişdilər.

Roma dövləti ilə mübarizə və daxili çəkişmələr Parfiyanı zəiflətdi. Sasan nəslindən olan Ərdəşir bundan istifadə edərək 226-cı ildə bu dövlətin varlığına son qoydu.

Parfiya və qədim Azərbaycan dövlətləri arasında əlaqələrin mövcudluğunu daha hansı faktlarla təsdiq edə bilərsiniz?

İdarəetmə

Parfiya türk dövlət xüsusiyyətlərinə oxşar idarəetmə sisteminə sahib idi. Dövlətə Parn tayfasından çıxan hökmdarlar başçılıq edirdi. Onlar "Arsak" titulu daşıyırdılar.

II Mitridat isə "Şahlar şahı, şahənşah" titulunu qəbul etmişdi. Hakimiyyət hökmdardan onun qardaşına ötürülürdü. Dövlət idarəçiliyi yeddi böyük nəslin əlində cəmlənmişdi. Bu nəsillərdən biri olan Mehranilər Midiyanın şimal hissələrini idarə etmişlər.

Ordu

Parfiya ordu sistemi tamamilə türk ordu ənənələri əsasında qurulmuşdu. Dövlətin əsas gücünü ox və nizələrlə silahlanmış atlı dəstələr təşkil edirdi. Yüngül silahlanmış süvarilər at üstündə çox sərrast ox atır, döyüşün əvvəlində düşmənə ağır tələfat verirdilər. Sonra isə ağır zirehli atlı dəstələr döyüşə girirdilər. Onları cinahlardan süvari oxçular qoruyurdu. Atlı qoşunlar onluq, yüzlük və minlik dəstələrə bölünürdü.

Döyüşçünün nizəsi üzərindəki təsvirlər sizə nəyi xatırladır?

Yüngül və ağır silahlarla silahlanmış süvarilər



PARFİYA MƏDƏNİYYƏTİ

Parfiya dövləti qədim işquz – iskit, əhəməni və qismən yunan ənənələri üzərində qurulmuşdu. Geniş əraziləri əhatə edən ölkədə müxtəlif mədəniyyətlərə malik xalqlar yaşayırdı.

Makedoniyalı İsgəndərin zamanından burada yunanlar məskunlaşmışdılar. Təsadüfi deyil ki, Parfiya pulları üzərində yunan yazılarına rast gəlinir. Bununla Parfiya hökmdarları hakimiyyətlərinin Makedoniyalı İsgəndərdən gəldiyini göstərməyə çalışırdılar.

Parfiya pulları

Həmçinin ölkədə yazıya, inanclara İran təsirləri daha güclü idi. Bəzi Parfiya hökmdarları öz şəcərələrini Əhəməni taxtına da bağlamışlar. Bu addım da hökmdar hakimiyyətini möhkəmləndirmək niyyətindən irəli gəlirdi.

Zinət əşyaları

Parfiya döyüşçüsü

Din

Parfiyada müxtəlif dinlər yayılmışdı. Əhalinin bir hissəsi tanrıçılığa sitayiş edirdi. Parfiya hökmdarları hunlar kimi "qut" (Tanrı səadəti) inancına sahib idilər. Bu inanca görə, Tanrı onlara hakimiyyəti Günəş və Ay vasitəsilə verirdi. Buna görə ölkədə Günəş, Ay, eləcə də su və od müqəddəs hesab edilirdi. Parfiya əhalisi arasında zərdüştilik dini də yayılmışdı.

S **Parfiyada müxtəlif dinlərin yayılması nə ilə bağlı idi?**

T **Daha hansı xalqların Günəşə və Aya sitayiş etdiyini xatırlayın.**

İbadət edən parfiyalı

8 Tanrının döyüşçüləri

Böyük Türküstan, Namazqa, kurqanlar, "Qızıl geyimli adam", iskitlər, saklar, hunlar, Mete xaqan

Türklər şərqdə Kadırğan (Xinqan) dağlarından, qərbdə Ural dağlarından Xəzər dənizinə, şimalda Sibirdən, cənubda Çin, Tibet və İrana qədər uzanan geniş ərazilərə hakim idilər. Sonrakı dövrlərdə bu torpaqlar Böyük Türküstan adlandırılmışdır.

Lakin bəzən quraqlıq, bəzən isə qanlı müharibələr səbəbindən türklər bu coğrafiyadan qərbə doğru hərəkət etmiş, e.ə. I minillikdə Dunay çayına qədər ərazilərdə də məskunlaşmışdılar.

Avrasiya materikinin mərkəzi boyunca iki min ildən çox əldə qılınc at çapan türklər "göy üzünü çadır, günəşi bayraq", qurduqları xaqanlıqlarını isə "göyün kölgəsi" hesab etmişlər.

Böyük Türküstan xəritəsi

Qədim türklər

Qədim türklərin əsas məşğuliyyəti köçəri maldarlıq olmuşdur. Özlərini təbiətin bir

Türklər şərqdə Kadırğan (Xinqan) dağlarından qərbdə Ural dağlarından Xəzər dənizinə, şimalda Sibirdən, cənubda Çin, Tibet və İrana qədər uzanan geniş ərazilərə hakim idilər.

parçası sayan bu xalq köçəri həyat tərzinə uyğun zəngin maddi-mədəniyyət nümunələri yaratmışdır.

İnsanlar qədim Türküstanda hələ Daş dövründən məskunlaşmağa başlamışdılar. Tarixin sonrakı mərhələlərində də insanlar bu ərazilərdə istehsal təsərrüfatı ilə məşğul olmuşlar.

Türkmənistanda yerləşən Namazqatəpə yaşayış məskəni isə e.ə. V–II minillikləri əhatə edir. Buradan aşkar edilən tapıntılar əhalinin kənd təsərrüfatı və sənətkarlıqla məşğul olduğunu təsdiqləyir.

S **E.ə. V–II minilliklər ibtidai icma quruluşunun hansı dövrlərini əhatə etmişdir?**

S **Sizcə, insanların qədim dövrlərdən Türküstanda məskunlaşmasına hansı amillər təsir göstərmişdir?**

T **Qədim Türküstan ərazisində hazırda hansı dövlətlərin yerləşdiyini müəyyən edin.**



Qədim yaşayış məskəni

Pazırıq kurqanında tapılmış cam

Sibirdən Qara dənizin şimalınadək uzanan ərazilərdə yüzlərlə kurqan tipli tarixi abidələrə indi də rast gəlinməkdədir. Arxeoloqlar bu kurqanların bir neçəsində araşdırmalar aparmışlar. Rastlaşdıqları zəngin mədəniyyət isə onları heyrətləndirmişdi.

Məsələn, Altay dağlarının cənub ətəklərində Pazırıq vadisində yerləşən kurqanların birindən e.ə. V əsrə aid xalça tapılmışdır. Bu xalça hazırda dünyanın ən qədim xalçası hesab edilir.

Pazırıqdan həmçinin üzərində döymə olan mumiyalanmış cəsədlər, sənətkarlıq məmulatları, ipək və keçə parçalar, ölülərlə birlikdə dəfn edilmiş 10-dan artıq at sümüyü də tapılmışdır. Kədər əlaməti olaraq atların quyruqları və yalları kəsilirmiş.

Pazırıq xalçası

S Xalça istehsalında nələrdən istifadə olunur?

Qədim sənətkarların heyvan təsvirlərinə üstünlük verməsi nə ilə bağlıdır?

Pazırıq kurqanından tapılan əşyalara əsasən orada yaşayan insanların məşğuliyyət sahələrini müəyyən edin və qruplaşdırın.

Qazaxıstan ərazisində aşkar edilən Esik (İssık) kurqanı da e.ə. V əsrə aiddir. Bu kurqandakı otaqdan qızıl geyimli adam (şahzadə) və 23 hərfdən ibarət Orxon yazısı da tapılmışdır. Misir fironu Tutanxamonun sərdabəsindən sonra Esik kurqanı qızıl parçalarının ən çox tapıldığı məzardır. Üzərində Orxon yazısı olan gümüş qab isə alimlərin diqqətini daha çox cəlb etmişdir. Bu tapıntı Göytürklərə məxsus əlifbadan türklərin daha qədim çağlardan istifadə etdiyini sübut edir.



Sizcə, yazıdan istifadə edilməsinin nə kimi əhəmiyyəti var?

Qızıl geyimli adam

Pazırıqdan tapılan sənətkarlıq nümunələri

Bu mədəniyyətləri yaradanlar Əhəməni hökmdarı I Daranın "Bisütun kitabəsi"ndə adları "saka" kimi keçən iskitlər idi.

İskitlər

E.ə. I minilliyin əvvəllərində Mərkəzi Asiyada quraqlığın başlaması ilə iskitlərin Qara dənizin şimal hissəsinə böyük köçü başladı. Burada türk mənşəli kimmerlərlə toqquşan iskitlər onları təqib edə-edə Dərbənd keçidindən Azərbaycana daxil oldular. E.ə. VII əsrin əvvəllərində iskitlər kimmerləri Manna ərazisinə sıxışdırdılar. Axın-axın Azərbaycana köç edən iskitlər burada dövlət qurub Urartu və Assuriyanı təhdid etməyə başladılar. Ön Asiyanın ən qüdrətli iki dövləti iskitlər qarşısında aciz duruma düşmüşdü. İskit axınları Ön Asiyada qüvvələr nisbətini dəyişdi. Assuriyanın mövqeləri zəiflədi. Manna-Aşşur ittifaqı da pozuldu. Aşşurbanipal diplomatik yolla İskit hökmdarları ilə münasibətləri qaydaya saldı. O, Midiya üzərində iskitlərin ağalığını tanımaqla vəziyyəti öz xeyrinə dəyişə bildi. İskitlər Midiya üzərində 28 il ağalıq etdilər, əvəzində isə Assuriya Mannadakı itirilmiş mövqelərini bərpa etdi.

S **Aşşur və Urartu qarşısında iskitlərin hansı üstünlükləri var idi?**

İskitlər Şərqi Anadoluda da möhkəmlənmiş, buradan o dövrdə Misirə tabe olan Suriyaya da hücum etmişdilər. Misir hökmdarı iskitlərin qarşısına çoxlu hədiyyələr və ərməğanlarla çıxmış, onların bu yolla irəliləməsinin qarşısını ala bilmişdi. İskitlərin bir qismi geri dönsə də, bəziləri orada –

Fələstində qalmağa qərar vermişdi.

Assuriya mixi yazılı kitabələrində bu döyüşkən xalq "Aşquzay" (İşquz – İç Oğuz), Herodotun "Tarix" əsərində isə skif (iskit) adlandırılmışdır.

E.ə. VI əsrin əvvəllərində Midiya ilə mübarizədə məğlub olan Asiya İskit padşahlığı süqut etdi. Buna baxmayaraq, iskitlər Ön Asiya xalqlarının hərb sənətinə, məişətinə ciddi şəkildə təsir göstərə bildilər. İskitlərin hərb və idarəetmə ənənələri özlərindən sonra yaranan dövlətlər tərəfindən davam etdirilmişdir.

Avropa İskit dövləti

Qara dənizin şimalında hələ e.ə. VII əsrdən mövcud olan İskit dövləti isə öz varlığını eranın III əsrinə qədər qoruyub saxlamışdı.

E.ə. VI əsrin sonlarında Əhəməni hökmdarı I Dara iskitlər üzərinə yürüş etdi. Sayca üstün Əhəməni ordusuna qarşı iskitlər "yandırılmış torpaq" taktikasına əl atdılar: düşmən qüvvələrinin keçəcəyi yerlərdə içməli su mənbələri torpaqla dolduruldu, ot-ələf isə yandırıldı. Məqsəd düşməni Böyük Çölün içərilərinə doğru çəkib zəiflətmək və həlledici zərbə ilə onu məhv etmək idi. İskitlərin əsl niyyətini başa düşən I Dara bu tələni vaxtında anlayıb geri çəkildi. Beləliklə, ordusunu tamamilə məhv olmaqdan xilas etdi.

S **Sizcə, iskitlər "yandırılmış torpaq" taktikasını hansı zərurətdən tətbiq etmişdilər?**

Hadisələrin sonrakı gedişatı İskit hökmdarının haqlı olduğunu göstərdi. I Dara sürətlə geri çəkilərək ordusunu labüd fəlakətdən güclə xilas edə bildi.

I Dara İskit hökmdarına elçi vasitəsilə xəbər göndərir:
"Ey qəribə adam, edə biləcəyin iki şey var. Əgər özünü mənə qarşı dura biləcək qədər güclü sanırsansa, qaçmağı burax və mənimlə döyüş. Yox, əgər özünü daha zəif hesab edirsənsə, yenə qaçmaqdan vaz keç və ağana xərac olaraq torpaq ver və su gətir, hüzuruma çıx".

İskit hökmdarı İdanfir isə I Daranın elçisinə belə cavab verir:
"Ey fars, məni kimsə nə qorxuda, nə də önündən qaçmağa məcbur edə bilər. Səndən də qaçmıram. İndiyədək gördüyüm iş sülh dövrlərində hər gün gördüyüm adi işdir. Nə üçün sənlə döyüşə girməyə tələsmədiyimin səbəbini də açıqlayım: bizim nə şəhərlərimiz, nə də bağlarımız yoxdur ki, əlimizdən çıxmasın və ya yandırılıb dağıdılmasın deyə qorxub dərhal savaşa girək! Amma siz, doğrudan da, savaşmaq istəyirsinizsə, bizim atalarımızın məzarları var. Onları tapın, onları dağıtmağa cəhd edin. O zaman görərsiniz ki, məzarlarımız üçün necə döyüşürük. Torpaq və su əvəzinə, mən sənə layiq olduğun hədiyyələri göndərəcəyəm. Özünü mənim hökmdarım adlandırdığına görə isə mən hələ sənlə haqq-hesab çəkəcəyəm".

Sonra İdanfir Daraya hədiyyə olaraq **quş, siçan, qurbağa** və **beş ox** göndərir. I Daranın əyanlarından biri bu hədiyyələrin mənasını belə şərh edir:

"Əgər siz farslar quştək göyə uçmasanız, siçan kimi torpaqda gizlənməsəniz, yaxud qurbağa kimi gölməçələrə doluşmasanız, onda geri qayıtmayacaqsınız və bu oxların zərbələri ilə məhv olacaqsınız".

Herodot, "Tarix" əsərindən, IV kitab

T **Mənbəyə əsasən İskit hökmdarını xarakterizə edin.**

İskitlər Makedoniya dövləti ilə də mübarizə aparmışlar. E.ə. 339-cu ildə Makedoniya çarı II Filipp İskit hökmdarı Ateylə döyüşdə qalib gəlmişdi.

S **Sizcə, güclü düşmənlə mübarizə aparan hökmdarlarda qalib gəlmək üçün hansı xüsusiyyətlər olmalıdır?**

Lakin bundan səkkiz il sonra iskitlər makedoniyalıları darmadağın etmiş, qərbdə yerləşən torpaqlarını geri ala bilmişdilər.

Don çayından Dunay çayına qədərki əraziləri əhatə edən Avropa İskit padşahlığı e.ə. II əsrdə özünün ən qüdrətli dövrünü yaşamışdır. Qonşuluqda yerləşən bəzi yunan şəhər-dövlətləri iskitlərə tabe edilmişdi. Şərqi Avropa çöllərindən keçən mühüm ticarət yolları nəzarətə götürülmüşdü. Lakin sarmatlarla aparılan aramsız müharibələr İskit dövlətini zəiflətdi. İskitlərə son zərbəni isə III əsrdə qot tayfaları vurdu. Avropa İskit dövləti süqut etdi. İskitlər sonralar Qara dənizin şimal hissələrini ələ keçirən digər türk tayfası olan hunlara qoşuldular və adlarını itirdilər.

S **Sizcə, dövlətləri zəiflədən səbəblər hansılardır?**

İskit hökmdarı ailəsi ilə

İskit döyüşçüləri

Yüngül silahlanmış iskit süvarisi

İskitlər at üstündə ox atmaqda çox mahir idilər. Buna görə də çox vaxt uzaq məsafədən döyüşə üstünlük verirdilər. Oxları 500–800 metr arası məsafəyə uçur, metaldan hazırlanan üçkünc ox ucluqları isə istənilən zirehi dəlib keçirdi. Qılınc, mizraq, balta və kəməndlə də silahlanan iskitlər müxtəlif döyüş taktikalarından: "Turan taktikası" ("Qurd oyunu"), "Yandırılmış torpaq taktikası" və s. istifadə etmişlər. İskit kurqanlarından müxtəlif silahlar, ox ucluqları və at skeletləri tapılmışdır.

S **Sizcə, çöl şəraitində baş verən döyüşlərin şəhər və qalalarda aparılan döyüşlərdən hansı fərqləri var?**

Ordu

İskit ordusunun əsasını ox və yayla silahlanmış yüngül süvarilər təşkil edirdi. Yəhərin kəşf edilməsi və at üzərində oxatma bacarığı iskitlərə düşmənlər üzərində böyük üstünlük qazandırmışdı.

Bu xalqın hər bir üzvü döyüşçü idi. Şəhər və qalaların olmaması iskitləri daim hər cür hücumlara hazır olmağa vadar edirdi. Ordu sistemi də çöl həyatına uyğun qurulmuşdu. Döyüşlərdə kişilərlə yanaşı, qadınlar da iştirak edirdilər.

İskitlərə məxsus üçtilli ox ucluğu

Təsərrüfat həyatı

Çindən Dunay çayınadək geniş ərazilərə köç edən iskitlər maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olmuşlar. Maldarlar, əsasən, qoyun, maral və at bəsləyirdilər. Əkinçiliklə məşğul olan iskitlər isə taxıl və dənli bitkilər becərirdilər. Taxıl məhsulları yunanlara satılırdı.

İskit kurqanlarından tapılan zərgərlik məmulatları sənətkarlığın yüksək inkişafından xəbər verir.

Dəstəyində döyüş təsviri olan qızıl daraq

Tac

İskitlər dörd və ya altı təkərli arabalar üzərində qurulan iki və ya üç otaqlı evlərdə yaşayırdılar. Bu yeriyən evlərin üstü keçə və su keçirməyən digər materiallarla örtülürdü. Arabalar atlara və ya öküzlərə qoşulurdu.



İskit arabası



At iskitlərin köçəri təsərrüfat həyatında mühüm rol oynayırdı. İskitlər at əti yeyir, at südü içir, qurudulmuş süddən isə "qurut" adlı qida məhsulu hazırlayırdılar.

S **Atın üzərində hansı əşyalar vardır?**

T **Təkərin əhəmiyyətini əsaslandırın.**

Mədəniyyət

İskitlər özlərindən sonra zəngin mədəni irs qoymuşlar. İskit məişətində istifadə olunan əşyalar xüsusi zövqlə hazırlanırdı. Əşyaların istehsalında heyvan üslubu məşhur idi. Aşkar edilmiş kurqanlarda zoomorf formalı müxtəlif fiqurlar əldə edilmişdir.

Heyvan üslublu boyunbağı

Ölülərin yanında əşyaların və atların basdırılması hansı inancla bağlı idi?

Əşyaların istehsalında heyvan üslubundan istifadə nə ilə bağlı idi?

Din

İskitlər tanrılara inanırdılar. Herodotun yazdığına görə, iskitlər baş tanrılarını Baba (Papaeus) adlandırırdılar. Axirət dünyasına inam böyük idi. Ölüləri ildə iki fəsildə dəfn edirdilər: yazda və payızda. Vəfat etmiş hökmdarlar və tayfa başçıları mumiyalanırdı. Onların üzərində hündür kurqanlar ucaldır, ölü ilə birlikdə əşyalarını, silahlarını və atlarını da basdırırdılar.

Ölülər üzərində kurqanlar ucaldılmasının səbəbi nə idi?



İskit kurqanının daxili görüntüsü

Saklar

Mərkəzi Asiyada iskitlər daha çox *sak* adı ilə tanınmışlar. Əhəməni hökmdarlarının yazılı kitabələrində onlar haqqında maraqlı məlumatlara rast gəlinir. E.ə. VI əsrin sonlarında I Dara Mərkəzi Asiyaya yürüş edərkən burada iskit-sakların ciddi müqaviməti ilə üzləşdi. Sayca üstün olan Əhəməni ordusu iskit-sakları üstələsə də, tam qələbə qazana bilmədi. Sak ordusu geri çəkilərək I Daranın qoşunlarını səhralığa doğru apardı.

Sadə sak çobanı **Sirak** hiylə işlədərək özünü saklardan qaçmış kimi göstərmiş, I Daranın etibarını qazanmışdı. Bələdçi adı ilə düşmən ordusunu səhranın dərinliyinə aparmışdı. Bu hiylənin üstü açılsa da, artıq gec idi. Sirak əsas məqsədinə nail olmuşdu. Özünü qurban versə də, öz doğma yurdunu xilas edə bilmişdi.

E.ə. IV əsrin sonlarına doğru Mərkəzi Asiya Makedoniyalı İsgəndərin yürüşünə məruz qaldı. Sak sərkərdəsi Spitamen işğalçılarla döyüşə girmiş və qəhrəmancasına həlak olmuşdu. İsgəndər Mərkəzi Asiyanın bir hissəsini özünə tabe edə bildi. Lakin onun ölümündən sonra qurduğu imperiya parçalandı. Mərkəzi Asiyada ellinist vahə dövlətləri meydana gəldi. E.ə. III əsrdə bu ərazilər Parfiya dövlətinin tərkibinə daxil edildi.


Sirak və I Dara

Sizcə, Sirakı öz həyatını qurban verməyə hansı amillər vadar etmişdi?

Spitamen

Asiya Hun dövləti

Hunlar haqqında ilk məlumatlar e.ə. II minilliyə aiddir. Çin mənbələrindən məlum olur ki, hunların ilk siyasi birlikləri məhz bu dövrdə meydana gəlmişdir. Orxon və Selenqa çayları arasında yaşayan hunlar, əsasən, köçəri maldarlıqla məşğul olmuşlar. E.ə. III əsrin ikinci yarısında Teoman adlı sərkərdə hun tayfalarını vahid dövlətin tərkibində birləşdirdi. Ötükən Hun dövlətinin paytaxtı oldu.

Hun dövlətinin meydana gəlməsi ilə, təxminən, eyni vaxtda Çində də vahid dövlət yarandı. Tezliklə bu iki dövlət arasında uzun sürən çəkişmələr başladı. Döyüşkən Hun süvarilərinin hücumları qarşısında aciz qalan Çin imperatoru Sin Şi Xuandi çıxış yolunu sədd tikilməsində gördü.

Asiya Hun dövləti özünün ən qüdrətli dövrünü Mete tanhunun* (e.ə. 209–174) dövründə yaşamışdır.

***Tanhu**

birləşmiş hun tayfalarının başçısı

Mete mərkəzi hakimiyyəti möhkəmləndirdi, ordu islahatı keçirdi. Hun süvari ordusu onluq, yüzlük, minlik və on minlik dəstələr şəklində təşkil edildi. Mərkəzi Asiyada yaşayan bir sıra tayfalar hunlara tabe edildi.



Mete

"...Bu vaxt Motun (Mete) özünü məğlub kimi göstərərək qaçdı və Xan ordusunu özünə tərəf çəkdi. Xan ordusu Motunun arxasınca hərəkət edərək hücuma keçdi. Motun ən yaxşı əsgərlərini pusquda gizlətmiş, zəifləri qabağa çəkmişdi. Bunu görən Xan ordusu tamamilə piyada olan 320 min əsgərlə hsi-unqları (hunları) təqib etməyə başladı. ...Motun sayı 300 min olan seçmə atlı ordusunu imperator Kao-tinin üzərinə salaraq onu Pai-tenq dağında mühasirəyə aldı".

Əkbər N.Nəcəf, "Hun minilliyi" əsərindən

S **Mənbədə təsvir edilən döyüş üsulu sizə hansı taktikanı xatırladır?**

S **Hun ordusunun bölgü quruluşunun hansı üstünlükləri var idi? Fikirlərinizi əsaslandırın.**

T **Xəritəyə əsasən Qədim Hun imperiyasının malik olduğu ərazilərdə indiki dövrdə hansı dövlətlərin yerləşdiyini müəyyən edin.**

Çin üzərinə də yürüşləri davam etdirən Mete tanhu Çini asılı vəziyyətə saldı.

Məğlub olan Xan hökmdarı hər il xərac ödəməyə və Çinin şimal ərazilərini Hun dövlətinə verməyə məcbur oldu.

Hunlar Çin səddi önündə

Mete Mərkəzi Asiyada yaşayan tayfaları öz hakimiyyəti altında birləşdirdi. Hun dövləti imperiyaya çevrildi. Onun sərhədləri şərqdə Koreyadan qərbdə Xəzər dənizinə, şimalda Sibirdən cənubda Kaşğara qədər uzanırdı. Böyük İpək yolu da hunların nəzarətinə keçmişdi. Hun hökmdarının iqamətgahı isə Ötükən idi.

E.ə. I əsrin əvvəllərində Hun dövləti daxili çəkişmələr nəticəsində zəifləməyə başladı. Bu çəkişmələrin güclənməsində Xan sülaləsi hökmdarları da maraqlı idi. Müharibələrdə məğlub olan Çin hökmdarları nikah diplomatiyasından istifadə edərək Hun imperiyasını zəiflətməyə müvəffəq oldular.

E.ə. 58-ci ildə anası çinli olan hun şahzadəsi dövləti Çinə tabe etmək niyyətinə düşdü. Lakin anası türk olan digər qardaş – Çiçi tanhu buna etiraz etdi. Nəticədə Hun imperiyası iki yerə parçalandı. Şərqi Hun dövləti Çinə tabe oldu. Başında Çiçi tanhunun durduğu Qərbi Hun dövləti isə bir müddət müstəqilliyini saxlaya bildi. Çiçi tanhu öz sərhədlərini qərbə doğru genişləndirdi: Tanrı dağlarının şimalı, İssık gölünün ətraf əraziləri tabe edildi. Lakin parçalanma hunları çox zəiflətmişdi. İpək yoluna nəzarəti yenidən ələ keçirməyə çalışan Xan hökmdarları bu fürsəti əldən vermədi. E.ə. 36-cı ildə Çin orduları Qərbi Hun dövləti üzərinə yeridildi. Hunlar qəhrəmanlıqla döyüşsələr də, məğlub oldular. Qərbi Hun dövləti süqut etdi. Bu məğlubiyyətdən sonra hunlar qərbə – Ural dağlarının ətəklərinə və İdil (Volqa) çayı sahillərinə köç etdilər. Onların varisləri isə bir neçə əsrdən sonra daha qüdrətli bir dövlətin – Avropa Hun dövlətinin qurucuları olacaqdı.

Çinə tabe olan şərq hunları isə Göytürk dövlətinin qurulmasında mühüm rol oynamışdı.

Hunların digər qolu isə Mərkəzi Asiyada Ağ Hun dövlətinin qurucuları oldu.

Dövlət

Qədim türklərdə dövlət "El" adlanırdı. Bu söz dövləti olan xalqı ifadə edirdi. Digər türk mənşəli dövlətlərdə olduğu kimi, hunlar da hökmdar hakimiyyətinin Tanrıdan gəldiyinə inanırdılar. Hun tanhuları "Göy Tanrının Yer üzündəki nümayəndələri" hesab olunurdu. Hökmdar hakimiyyəti irsən keçirdi.

Ordu

İskitlərdə olduğu kimi, Hun ordusunun da əsasını süvarilər təşkil edirdi. Bu, hunların həyat tərzi – köçmə maldarlıqla bağlı idi. Avrasiyanın geniş çöllərində uzun məsafələri yalnız at üzərində sürətlə qət etmək mümkün idi. Buna görə də hun ailələrində övladlar hələ uşaq yaşlarından at minməyi, ox atmağı öyrənir, bu vərdişləri müxtəlif yarışlarda təkmilləşdirirdilər. Mete tanhunun yaratdığı süvari döyüş ənənələri sonrakı əsrlərdə də davam etdirilmişdir.

T **Ordu-xalq, xalq-ordu deyimini araşdırın.**

Hun döyüşçüsü

Kurqanda tapılmış Hun xalçası

Təsərrüfat həyatı

Qədim hunların əsas məşğuliyyəti köçəri maldarlıq idi. Onlar qoyun sürüləri, mal-qara və at ilxıları bəsləyirdilər.

Bununla yanaşı, hunlar dəmirçilik və zərgərliklə də məşğul olmuş, özlərinə məxsus zəngin mədəniyyət abidələri yaratmışlar.

Dəmir qab

Mədəniyyət

Mərkəzi Asiyada hunlara aid qəbirlərdən çoxsaylı maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Hunlar ölülərin yanında müxtəlif əşyalar da basdırırdılar. Bu, axirət dünyasına inamla bağlı idi.

Qızıl medalyon

Qəbirlərdən zərgərlik məmulatları, heyvan fiqurları, üzərində müxtəlif heyvanların təsviri olan qılınclar və s. əşyalar tapılmışdır. Bu tapıntılar hunların özlərinə məxsus mədəniyyətə sahib olduğunu sübut edir.

Qızıl maral

Din

Hunlar arasında da digər türk boylarında olduğu kimi, tanrıçılıq geniş yayılmışdı. Onlar Göy tanrıya sitayiş edir, yaradılışın ondan gəldiyinə inanırdılar. Tanrının yaratma və hadisələrə müdaxiləsi qut (**qut** – xoşbəxtlik, səadət, ilham mənasını verir) yolu ilə gerçəkləşirdi.

Hun inancında şamançılıq da mühüm yer tuturdu. Şamanların Göy tanrı ilə insanlar arasında vasitəçi olduğuna inam var idi. Günəş, Ay tanrıları da hunların inancında xüsusi yerə sahib idi.

9 Böyük İpək yolunun başlandığı ölkə

Xuanxe, Sin Şi Xuandi, Xan sülaləsi, Böyük Çin səddi, Konfutsi, kompas, çay

Çin Asiya qitəsinin şərqində yerləşir. Ölkənin qərbində hündür dağ silsilələri uzanır, şərq əraziləri isə Sakit okeana çıxışı olan dənizlərlə əhatələnir. Təbii maneələr olan dağ və dənizlər qədim dövrlərdə Çin əhalisi üçün müdafiə rolunu oynamışdır.

Çinin bəlası

Dağlardan yol alan Yantszı və Xuanxe çayları Şərqi Çin düzənliyindən keçib dənizlərə tökülür. Bu çayların keçdiyi vadilərdə torpaqlar məhsuldar olduğu üçün insanlar qədim dövrlərdə burada məskunlaşmış, əkinçiliklə məşğul olmuşlar. Lakin yağışlar zamanı Xuanxe çayı daşır, ərazilər, əkin sahələri və bağlar suyun altında qalırdı. Buna görə əhali Xuanxe çayını "azan çay", "min bir fəlakət çayı", "Çinin bəlası" adlandırmışdır. Zaman keçdikcə çinlilər daşqınlardan qorunmaq üçün bəndlər tikməyi, çaydan suvarma üçün arxlar çəkməyi öyrənmişlər.

Qədim Çində kənd məskəni

Çin Asiya qitəsinin şərqində yerləşir. Ölkənin qərbində hündür dağ silsilələri uzanır, şərq əraziləri isə Sakit okeana çıxışı olan dənizlərlə əhatələnir.

T Təbii-coğrafi şəraitin çinlilərin inkişafına və fəaliyyətinə necə təsir göstərdiyini izah edin.

Beləliklə, Xuanxe çayı ram edilmişdir. Çay vadilərində insanlar bol su tələb edən çəltik becərmiş, maldarlıq və sənətkarlıqla da məşğul olmuşlar.

Çin sənətkarlarının toxuduğu ipək parçalar, ağ gildən düzəltdikləri zərif çini qablar isə sonralar bütün dünyada məşhurlaşmışdır.

Təsərrüfatın inkişafı və e.ə. VI əsrdə dəmir emalına başlanılması Çində ibtidai icma quruluşunun dağılmasına, yeni quldar dövlətlərin meydana gəlməsinə səbəb oldu.

S **Çində quldar dövlətlərin meydana gəlməsini şərtləndirən başlıca amil nə idi?**

Xuanxe çayı: ipək üzərində qədim təsvir

Çini birləşdirən hökmdar

Artıq e.ə. IV–III əsrlərdə Çində bir neçə quldar dövlət var idi. Bu dövlətlər bir-biri ilə aramsız müharibələr aparırdılar. Ona görə də bu dövr Çin tarixinə "Vuruşan padşahlıqlar dövrü" kimi daxil olmuşdur.

Bu padşahlıqlardan biri olan Sin digər dövlətlərlə mübarizə-də qalib gəldi. E.ə. 221-ci ildə Sin padşahı bütün ölkəni vahid dövlətdə birləşdirdi və özünü Sin Şi Xuandi (Çinin birinci hökmdarı) adlandırdı. O, Çin ərazisini 36 vilayətə böldü və hər birinə məmur təyin etdi.

Çindən şimalda döyüşkən hun tayfaları yaşayırdı. Güclü dövlət quran hunlar Çin ərazilərinə ardıcıl hücumlar təşkil edirdilər. Çin orduları çevik və sürətli hun süvariləri qarşısında aciz qalmışdı.

Çin şəhəri



Şəkil əsasında şəhər əhalisinin yaşayışını təsvir edin.

Hökmdar Sin Şi Xuandi vəziyyətdən çıxış yolunu sədd tikilməsində gördü. E.ə. 214-cü ildə Böyük Çin səddinin tikintisinə başlanıldı. Tikintisi sonrakı dövrlərdə davam etdirilən bu nəhəng divarın qalıqları dövrümüzə qədər gəlib çatmışdır.

Sin Şi Xuandi

Böyük Çin səddinin tikintisi

Çini böyüdən sülalə

E.ə. 206-cı ildə Çin dövlətində sülalə dəyişikliyi baş verdi. Hakimiyyətə Xan sülaləsi gəldi. Hun döyüş taktikalarını öyrənən çinlilər artıq onlarla mübarizədə uğur qazanmağa başladı. Böyük Hun dövləti parçalandı və onun bir hissəsi Çin əsarəti altına düşdü. Xan hökmdarlarının işğalları nəticəsində Çin dövlətinin sərhədləri getdikcə genişlənir, dövlətin ərazisi böyüyürdü.

Böyük Çin səddi

Böyük Çin səddində döyüş

A Xan sülaləsi hökmdarlarının işğallarının nə üçün qərbə doğru istiqamətləndiyini araşdırın.

Böyük İpək yolu

Makedoniyalı İsgəndərin işğalları Qərb və Şərq ölkələri arasında iqtisadi bağların da yaranmasını sürətləndirdi. Asiyadan Avropaya uzanan ticarət yolları o dövrdə mövcud olan dövlətləri qan damarları kimi bir-birinə birləşdirirdi. Xan sülaləsi hökmdarlarının işğalları e.ə. II əsrdə Çinin də dünya ticarət yollarına çıxışını təmin etdi. Beləliklə, Çindən Aralıq dənizi sahillərinə, oradan isə

T **Böyük İpək yolunun keçdiyi ərazilərdə hazırda hansı dövlətlərin yerləşdiyini müəyyən edin.**

Avropaya uzanan və Böyük İpək yolu adlandırılan karvan yolu fəaliyyətə başladı. Çinli sənətkarların hazırladığı müxtəlif məhsullar bu yolla dünya ölkələrinə satılırdı. Xüsusilə ipək parçalar dünya ölkələrində yüksək qiymətləndirilirdi. Çinlilər ipək istehsalının sirrini gizli saxlayır və ipək ixracından böyük mənfəət əldə edirdilər.

Böyük İpək yolunun əsas istiqamətlərindən biri də Azərbaycandan keçirdi.

Bu yol dövlətləri, xalqları birləşdirir, mədəniyyətlərarası əlaqələrdə mühüm rol oynayırdı.

S **İpək yolunun Azərbaycandan keçməsi hansı iqtisadi-mədəni əhəmiyyət daşıyırdı?**

T **Böyük İpək yolu haqqında məlumat toplayın, onun iqtisadi-siyasi və mədəni əhəmiyyətini təsvir edin.**

T Şəklə əsasən üsyançıların geyimlərini və silahlanmalarını təsvir edin.

Sarısarıqlıların üsyanı

Xan sülaləsini "yıxan" üsyanlar

İstilaçı müharibələr zamanı əsir götürülənlər qul edilirdi. Onların saçları qırxılır, alınlarına və ya üzlərinə damğa vurulurdu. Ağır vergiləri və icarə borclarını ödəyə bilməyən kəndlilər də ailəsi ilə birlikdə qula çevrilirdi. Xan sülaləsinin zəifləməsi ilə Çini xalq üsyanları bürüdü. Belə üsyanlardan biri eranın I əsrinin başlanğıcında baş verdi. Üsyançılar hökmdar döyüşçülərindən fərqlənmək üçün qaşlarını qırmızı rəngə boyayırdılar. Buna görə bu üsyanı **"Qırmızıqaşlılar"** üsyanı adlandırmışlar.

Daha böyük üsyan isə 184-cü ildə baş vermişdi. Üsyançılar başlarına sarı sarıq bağlayırdılar. Buna görə onları **"Sarısarıqlılar"** adlandırırdılar.

Çjan qardaşlarının başçılıq etdiyi bu üsyan 20 ildən artıq davam etdi. Üsyan çətinliklə yatırıldı. Lakin Xan sülaləsi zəiflədi və III əsrin əvvəllərində süqut etdi. Çin yenidən xırda dövlətlərə parçalandı.

S **Sizcə, Çində baş verən üsyanların məğlubolma səbəbləri nə idi?**

Qırmızıqaşlı üsyançı

ÇİN MƏDƏNİYYƏTİ

Yazı

Qədim çinlilər özlərinə məxsus olan heroqlif yazı növünü icad etmişdilər. Vahid dövlətin yaranması ilə yazı daha da təkmilləşdirildi. Çin yazısında minlərlə işarə var idi. Bunları öyrənmək üçün illər lazım gəlirdi. Yazı vasitəsi kimi ilk vaxtlar bambuk lövhələrdən istifadə edilmişdir.

İmperator fərmanları isə ipək parçalar üzərinə yazılırdı. Kağız ixtira edildikdən sonra yazılar kağız üzərində yazılmağa başlandı.

S **Sizcə, kağız üzərində yazıya niyə üstünlük verildi?**

Heroqliflər

Adı		Piktoqramların* təkamülü			
1.	Dağ				山
2.	Günəş				日
3.	İnsan				人

*** Piktoqram**

latınca "pictus" – "şəkil", yunanca "qramma" – "yazıram" sözlərindən götürülmüşdür. Mənası hər hansı bir fikri anlayışın şəkil vasitəsilə təqdim edilməsidir.

Elm

Hələ qədim dövrlərdə fəsillərin dəyişməsi, təbiət hadisələri, səma cisimlərinin müşahidəsi Çində dəqiq təqvim düzəldilməsi ilə nəticələndi. Bu, əkinçiliklə məşğul olan əhali üçün olduqca vacib idi.

Tacir və səyyahların səfərləri nəticəsində Çini əhatə edən ölkələr, ərazilər haqqında məlumatlar toplanırdı.

Qədim Çinin sənətkarlıq nümunəsi

Çin təqvimi

Bu məlumatlar əsasında "Dağlar və dənizlər haqqında kitab" yazıldı. Görünür, elə kompası da uzaq səfərlərə çıxan çinli dənizçilər və səyyahlar ixtira etmişlər.

Qədim Çində təbabət də inkişaf etmişdi. Çinli təbiblər təbii bitkilərlə müalicələrə üstünlük verirdilər. Bu bitkilərdən biri də çay idi. Çaydan ilk vaxtlar bədəndəki qüvvəni mühafizə edən dərman kimi istifadə edilirdi.

Xan sülaləsi dövründə Çin tarixindən bəhs edən əsərlər də meydana gəlmişdi.



Qədim Çin tibb kitabı

Memarlıq

Qədim Çində evlər, adətən, ağacdan tikilirdi. Yalnız hökmdar sarayları və varlı əyanların evləri daşdan olurdu. Çin memarlarının özlərinə məxsus üslubu vardı. Evlərin içərisi də Çin məişətinə uyğun hazırlanırdı.

S **Çin memarlığı hansı xüsusiyyətləri ilə digər Şərq ölkələrindən fərqlənir?**

Çində sadə əhaliyə məxsus ev

Çin əyanının evi

Konfutsi təlimi

Qədim Çində elmi biliklərin genişlənməsi müdriklik sənəti olan fəlsəfənin də inkişafına səbəb olmuşdur. Bu baxımdan Konfutsi təlimi xüsusilə maraqlıdır. Bu təlimə görə, kiçiklər böyüklərə, uşaqlar valideynlərə, xalq isə hökmdara tabe olmalıdır. Çinli müdrikin fikrincə, əgər hökmdar hökmdardırsa, ata atadırsa, oğul oğuldursa, onda insanlar arasında əmin-amanlıq hakim olar.

Konfutsi təbiətdəki nizamı cəmiyyətə də şamil etmişdir.

Konfutsinin kəlamları

- Ağıllı insan uğursuzluğunun səbəbini özündə, nadan isə başqalarında axtarar.
- Nə axtardığını bilməyən nə tapdığını anlamaz.
- Kiçik uğurların arxasınca qaçsanız, böyük uğurları əldən qaçıra bilərsiniz.
- Yavaş addımlamağınız önəmli deyil, əsas odur ki, dayanmırsınız.
- Heç kim uğur nərdivanını əlləri cibində çıxmayıb.
- Düşünmədən öyrənmək faydasız, öyrənmədən düşünmək təhlükəlidir.

T Konfutsinin fikirlərini ayrı-ayrılıqda müzakirə edin, özünüz üçün nəticə çıxarın.

S Sizcə, uğur qazanmaq üçün insanda hansı xüsusiyyətlər olmalıdır?

10 ŞAHMATIN VƏTƏNİ

Arilər, Harappa, Mohenco-Daro, racə, kasta, "Veda"

Asiyanın cənubunda çox böyük ölkə – Hindistan yerləşir. Bu ölkə Hindistan yarımadasını və Asiya materikinin bu yarımadaya qovuşan hissəsini əhatə edir. Dünyanın ən hündür və həmişə qarla örtülü Himalay sıra dağları Hindistanı başqa ölkələrdən ayırır. Himalay dağları ölkəni soyuq şimal küləklərindən qoruduğuna görə Hindistanda hava hətta qışda da isti olur. Yarımadanın qərb hissəsindən Hind çayı, şərqindən Qanq çayı axır. Himalay dağlarından axmağa başlayan bu iki çay dağlarda qar əriyən zaman böyük daşqın əmələ gətirir.

Hindistanın ən qədim şəhərləri

Arxeoloqlar Hind çayı vadisində e.ə. III minillikdə salınmış şəhərlərin xarabalıqlarını aşkara çıxarmışlar. Bunların ən böyüyü Mohenco-Daro və



Bu ölkə Hindistan yarımadasında yerləşir. Yarımadanın qərb hissəsindən Hind çayı, şərqindən Qanq çayı axır.

Harappa şəhərləridir. Harappada içərisi çox gözəl bəzənmiş iki və üçmərtəbə evlər, taxıl saxlanılan böyük anbar, habelə yoxsul komaları və sənətkarların emalatxanaları olmuşdur. Şəhər əhalisi tunc və qızıl emal edirdi. Harappalıların öz yazıları da olmuşdur. Ancaq onların yazısının sirri hələ açılmamışdır. Mohenco-Daroda əhalini içməli su ilə təchiz edən su kəməri, kanalizasiya sistemi olmuşdur. E.ə. II minillikdə əhali şəhərləri tərk edib getmişdir. Tarix elmi bunun səbəbini hələ bilmir.



Mohenco-Daro şəhərinin qalıqları

Mohenco-Darolu kişi büstü



E.ə. II minillikdə köçəri ari tayfaları şimal-qərb tərəfdən Hindistana hərəkət etdilər. Ari tayfalarına **racələr** başçılıq edirdilər.

Arilər yerli əhali ilə qarışaraq oturaq həyata keçmiş, əkinçiliklə məşğul olmuş və qonşuluq icması halında yaşamışlar.

E.ə. XI əsrdə hind-arilər dəmir emal etməyi öyrəndilər. Dəmir alətlərlə Qanqın ətrafındakı cəngəlliklər təmizləyən hindlilər əkin sahələri üçün şərait yaratdılar. Burada əkinçiliklə yanaşı, maldarlıq və sənətkarlıq da sürətlə inkişaf etməyə başladı.

S **Ari tayfalarının oturaq həyata keçməsinin səbəbi nə oldu?**

S **Hindistanda ilk dövlətlərin Hind çayı vadisində yaranmasının səbəbini nə ilə izah etmək olar?**

Harappa şəhərindən tapılmış qabarıq təsvirlər

Dövlətin yaranması

Hind xalqının əməyinin bəhrəsini racələr və başqa adlı-sanlı adamlar mənimsəyirdilər. Onlar yığılan məhsulun və heyvan balalarının bir hissəsini qonşu icmaların əlindən alırdılar. Adlı-sanlı adamlar əsirləri qul edir, qulları "düşmən" adlandırırdılar. Racələr əvvəlcə başçı seçilir, tədricən padşaha çevrilir, hakimiyyəti miras kimi öz uşaqlarına verirdilər.

Beləliklə, e.ə. I minillikdə Hindistanda padşah hakimiyyəti, qoşunu, keşikçiləri, məmurları olan dövlətlər əmələ gəldi.

Vahid dövlətin olmaması ölkənin müdafiəsini çətinləşdirirdi. E.ə. VI əsrdə Hindistanın şimal-qərbi Əhəməni dövlətinin tabeçiliyinə keçdi. Əhəməni dövlətinə son qoyan Makedoniyalı İsgəndər e.ə. 327-ci ildə Hindistana yürüş etdi.

O, Hind çayına qədər Hindistan torpaqlarını ələ keçirdi.

İsgəndərin ölümündən sonra Makedoniya imperiyasının dağıldığı dövrdə Hindistanda da yunan-Makedoniya işğalına qarşı mübarizə başladı. Bu mübarizədə Mauriya sülaləsindən olan hökmdarlar fərqlənirdi. Tezliklə Hind çayı hövzəsindəki ərazilərin bir hissəsi azad edildi. Mauriya sülaləsinin ən qüdrətli hökmdarı Aşoka e.ə. III əsrin ikinci yarısında Hindistanı vahid dövlətdə birləşdirdi.

Aşoka

A **Makedoniyalı İsgəndərin Hindistanı tuta bilməməsinin səbəbini araşdırın.**

Təbəqələr

Hindlilər arasında bərabərsizliyin meydana gəlməsi onların dinində əks olunmuşdur. Hindistanda dünyanın və insanların yaradıcısı tanrı Brahma hesab edilirdi. Buna görə də hind kahinlərinə Brahman deyirdilər. Brahmanlar öyrədirdilər ki, guya tanrının özü insanları kastalara (dəyişməyən irsi hüququ və vəzifələri olan insan qrupları) bölübmüş. Dörd əsas kasta vardı: brahmanlar, döyüşçülər, icmaçı kəndlilər və şudralar – nökərlər. Bir insan ömrünün axırına qədər doğulduğu kastada qalırdı.

Brahmanların qanunlarından

Brahman bədənin ən yaxşı hissəsindən əmələ gəldiyi üçün bütün dünyanın ağasıdır. Brahmanın xoşuna gələni əsirgəməyib vermək lazımdır. Brahmansız döyüşçü, döyüşçüsüz brahman müvəffəqiyyət qazana bilməz. Allah padşahı və döyüşçüləri bütün dünyanı qorumaq üçün yaratmışdır.



HİNDİSTAN MƏDƏNİYYƏTİ

Memarlıq

E.ə. III əsrdə tikilən yüksək sütunlar Hindistan padşahlığının qüdrətini göstərən abidələrdir. Hər sütun bütöv daş parçasından yonulmuşdur. Bu daş parçalarından birinin üstündə 4 aslan heykəli vardır. Bu aslanlar keşikçi kimi hər tərəfə baxaraq sanki dövlətin sərhədlərini qoruyur.

E.ə. I əsrdə daşdan yonulan darvaza çox gözəl incəsənət abidəsidir. Heykəltəraşlar bu darvazanı naxışlarla bəzəmiş, Hindistanın zəngin bitki və heyvanlarını, əfsanə qəhrəmanlarını və əhalisinin gündəlik həyatını təsvir etmişlər. Qədim hind memarlıq abidələrinə qülləli tikintilər, mağara məbədləri daxildir.

Şahmatın vətəni

Hindistan şahmat oyununun vətənidir. Sümükdən düzəldilən şahmat fiqurları qədimdəki hind qoşununu təsvir edir. Hindistanda şahmat oyununu "dörd növ qoşun" adlandırırdılar.

S **Sizcə, şahmat oyununu döyüşün aparılması ilə müqayisə etmək olarmı? Fikrinizi əsaslandırın.**

Yazı və elm

Hindlilər qurudulmuş palma yarpaqlarında yazı yazırdılar. Onlar riyaziyyat elminə sıfır rəqəmini gətirdilər. Bununla onlar indi, demək olar ki, bütün dünyanın istifadə etdiyi sadə və çox rahat onrəqəmli hesabı ixtira etdilər. Onlar riyaziyyat sahəsində kvadrat və kub kökləri çıxara bilirdilər. Qədim hindlilər Yer kürəsini şar şəklində təsəvvür edirdilər.

Palma yarpağında yazı

Din

Hindistanda dövlətin formalaşdığı dövrdə hinduizm dini yarandı. Hinduizmin ən qədim müqəddəs qanunlar toplusu "Veda" ("biliklər", "müdriklik") adlanır. "Veda" yazılarında varlılar və kasıblar haqqında danışılır.

Hindistan buddizmin vətənidir. E.ə. VI əsrdə yaranan bu dinin banisi Qautamadır. Həqiqəti dərketmə yollarını axtaran Qautamanı sonralar ardıcılları Budda, yəni "bilici", "həqiqətlə işıqlanmış" adlandırdılar. İnsanları eyni hüquqlu sayan buddizm kastalara qarşı çıxırdı. Bu təlimə görə, hər bir dindar yüksək məqsədə ancaq şəxsi səyi nəticəsində çata bilərdi.

Budda

Buddaya görə, insanı xoşbəxtliyə aparan düz yol ləzzətlə əzab-əziyyət arasındakı orta yoldur. Bunu səkkiz yolla əldə etmək mümkündür. Bu səkkiz yol həyatın səkkiz böyük qanununu öyrədir.

Səkkiz qanun

- Düzgün baxış. Düzgünlük və həqiqət insanın əsl bələdçisi olmalıdır.
- Düzgün düşüncə. İnsan həmişə sakit və xoş xasiyyətli olmalıdır, heç bir canlıya zərər yetirməməlidir.
- Düzgün söz. İnsan heç vaxt yalan danışmamalı, nitqində kobud sözlərdən istifadə etməməlidir.
- Düzgün rəftar. İnsan heç vaxt oğurluq etməməli, əlini kiminsə qanına bulamamalı və sonradan peşmançılığa səbəb olacaq işlər görməməlidir.
- Düzgün yaşayış. İnsan heç bir pis əməl arxasınca getməməlidir; sələm pul verməməli və onun gəlirindən istifadə etməməlidir; riyakar və ikiüzlü olmamalı, oğurluq maldan istifadə etməməlidir.
- Düzgün çalışmaq. İnsan həmişə yaxşılıq etməli və bütün pis əməllərdən uzaqlaşmalıdır.
- Düzgün diqqət. İnsan həmişə sakit olmalı, şadlıq və qüssənin onun düşüncələrini dağıtmasına imkan verməməlidir.
- Düzgün fikirləşmək. Yuxarıdakı yeddi qanunun əsasını və özülünü təşkil edir.

S **Sizcə, Buddanın sadaladığı səkkiz yoldan hansı daha önəmlidir?**

A **Sizcə, Budda düzgünlük dedikdə nələri nəzərdə tuturdu?**

E.ə. III–II minillik
Krit-Mikena mədəniyyətinin
yaranması

E.ə. 776-cı il
İlk Olimpiya
oyunlarının
keçirilməsi

E.ə. IV əsr
Makedoniyalı
İsgəndərin
yürüşləri

E.ə. I əsr
Roma imperiyasının
yaranması

QƏDİM QƏRB SİVİLİZASİYALARI

E.ə. 753-cü il
Roma şəhərinin
yaranması

476-cı il
Qərbi Roma
imperiyasının
süqutu

11 AVROPA MƏDƏNİYYƏTİNİN BEŞİYİ

Afina, Solon, Sparta, Marafon döyüşü, Perikl, Olimpiya oyunları, Makedoniyalı İsgəndər

Yunanıstan Avropada, Balkan yarımadasının cənubunda yerləşir. Dağlıq ölkə olan Yunanıstan cənubdan Aralıq, qərbdən İon, şərqdən isə Egey dənizləri ilə əhatə olunur. Ölkə ərazisi təbii cəhətdən üç hissəyə: Şimali, Orta və Cənubi Yunanıstana bölünür. Şimali və Orta Yunanıstanı bir-birindən ayıran dağlarda dar Fermopil keçidi var.

Peloponnes yarımadasında yerləşən Cənubi Yunanıstanı Orta Yunanıstandan dəniz körfəzləri ayırır.

Dağlar Yunanıstanı xırda vilayətlərə bölür. Bir vilayətdən digərinə ya dənizlə, ya da ki dağ cığırları ilə getmək olar.

Qədim dövrlərdən burada yaşayan əhali əkinçilik, maldarlıq və balıqçılıqla məşğul olurdu.

Yunanıstanın dənizlərlə əhatə olunması əhalidə hansı bacarıq və vərdişlərin formalaşmasına səbəb olmuşdur?

S Sizcə, Yunanıstanın təbii-coğrafi şəraitinin ölkə ərazisində vahid dövlətin yaranmasına nə kimi təsiri ola bilər?

T Xəritə əsasında Yunanıstanın coğrafi mövqeyi barədə danışın.

Krit-Mikena mədəniyyəti

Egey dənizində çoxlu adalar vardır. Onlardan ən böyüyü Krit adasıdır. Avropada ilk dövlət e.ə. III–II minilliklərdə Kritdə yaranmışdı.

Kritlilər əkinçilik, maldarlıq və balıqçılıqla məşğul olurdular. Gəmiçilik inkişaf etdiyi üçün burada böyük limanlar var idi. Krit Misir, Finikiya və Babillə ticarət əlaqəsi saxlayırdı.

Sənətkarlar tuncdan silah, qızıldan bəzək əşyaları hazırlayırdılar.

*** Freska**

divarda xam mala üzərində çəkilmiş şəkil

Möhtəşəm saraylar ucaldan kritlilər onların divarlarını fres-kalarla* bəzəyirdilər.



Kritlilərin gəmisi

Sizcə, nə üçün Avropada ilk dövlət Kritdə meydana gəlmişdi?

Krit mədəniyyəti Peloponnes-dəki Mikena şəhərinə böyük təsir göstərmişdir. Kritlilərin öz yazısı olmuşdur.

E.ə. II minilliyin ortalarında Kritə yaxın adaların birində vulkan püskürməsi nəticəsində Krit mədəniyyəti məhv oldu.



Kritdə Knoss sarayı



Sarayın daxili görünüşü

Mikena şəhəri



Qızıl maska

Mikena şəhərində yaşayan axey-yunan tayfaları Krit mədəniyyətindən çox şey mənimsəmişdilər. Onların hündür təpə üzərində ucaltdığı akropolda ("yuxarı şəhər") şah sarayı və adlı-sanlı adamların evləri var idi. Sarayın yaxınlığındakı qayalarda sərdabələr çapılırdı. Dəfn olunanların üzlərinə qızıl maskalar taxılırdı. Akropolun ətrafında tacirlərin evləri, sənətkarların və əkinçilərin komaları yerləşirdi.



Aslan darvazaları

Yunanlar nəhəng sal daşlardan qurulmuş tikililəri, məsələn, Mikena akropolunun divarını "Təpəgöz qurğuları" adlandırırdılar. Onlar fikirləşirdilər ki, yalnız təpəgöz kimi nəhənglər bunları tikə bilərlər.

E.ə. II minilliyin sonlarında Yunanıstanın şimalından gələn dori-yunan tayfaları Mikena mədəniyyətini məhv etdilər.

T **Krit-Mikena memarlığı barədə məlumat toplayın.**



Mikena hökmdarının məqbərəsi

Afina şəhəri

Afina şəhər-dövləti

E.ə. VIII əsrdən etibarən Yunanıstanda bir çox şəhər-dövlətlər meydana gəldi. Bunlardan ən qüdrətlisi Orta Yunanıstandakı Attika vilayətində salınmış Afina idi. Şəhərin ortasında, hündür təpə üzərində tikilmiş akropolda yaşayan adlı-sanlı adamlar Attikanın bütün əhalisini özlərinə tabe etmişdilər.

Onlar öz idarə üsullarını "aristokratiya", yəni "Yaxşıların hakimiyyəti" adlandırırdılar. "Aristokrat" sözü buradan əmələ gəlib "adlı-sanlı adam" və ya "nəsli məlum olan zadəgan" deməkdir. Attikanın qalan azad əhalisi **demos** adlanırdı. Əhali əkinçilik və maldarlıqla məşğul olurdu. Təpələrin yamaclarında üzüm, vadilərdə isə zeytun ağacları becərilirdi. Sənətkarlar gildən amforalar – iki qulplu, dar boğazlı qablar düzəldirdilər. Bu qablarda şərab və zeytun yağı saxlanılırdı.

Akropolun yaxınlığında bazar meydanı – aqora yerləşirdi. Təsərrüfatın və sənətkarlığın inkişafı ticarətin yaranmasına və genişlənməsinə təkan verdi. Afinada hazırlanan məhsullar limanlarda gəmilərlə başqa ölkələrə aparılırdı. E.ə. VII əsrdə Afinada gümüş pul kəsilirdi.

S **Sizcə, ticarətdə mal mübadiləsi, yoxsa puldan istifadə daha yaxşıdır?**

Əvvəllər öz təsərrüfatlarında çalışan adlı-sanlı adamlar torpaq sahələri genişləndikcə onu becərmək üçün günəmuzdçular* tuturdular. Təsərrüfatın inkişafı və qulların sayının artması kəndlilərin də vəziyyətini dəyişirdi. Məhsul az olan vaxtlarda yoxsul kəndlilər adlı-sanlı adamlardan faizlə borc alırdılar. Borc verən kəndlinin torpaq sahəsinə borc daşı qoyurdu. Bu daşın üzərində kəndlinin nə qədər borc aldığı və qaytarmalı olduğu vaxt yazılırdı. Borcunu vaxtında qaytara bilməyən kəndlinin torpağı əlindən alınır və o, ailəsi ilə birlikdə qula çevrilirdi.


Borc daşının qurulma prosesi

*** Günəmuzdçu**

gördükləri gündəlik işə görə haqq alan adam

Təsərrüfatda qul əməyinin tətbiq olunması kəndlilərin vəziyyətinə necə təsir edirdi?


Afina akropolu

Demos ilə aristokratlar arasında mübarizə

E.ə. VII əsrdə Afinada bütün məsələləri adlı-sanlı adamlardan ibarət Ağsaqqallar şurası həll edirdi. Şuranın qəbul etdiyi qanunlar əsasında məhkəmə qurulurdu. Qanunlar adlı-sanlı adamların həyatını və əmlakını qoruyurdu. Kiçik səhvə görə ölüm hökmü verilirdi. Ona görə də demos deyirdi ki, bu qanunlar "mürəkkəblə deyil, qanla yazılmışdır". Həmin qanunlar onu tərtib edənin adı ilə "Drakon qanunları" adlanırdı.

"Drakon qanunları" kimlərin mənafeyinə xidmət edirdi?

Demosun zadəganların hakimiyyətindən narazı qalması onların arasındakı mübarizəni kəskinləşdirirdi.

Yoxsulların əsas tələbi bunlar idi:

- Afinanın idarə olunmasında iştirak etmək
- Kəndlilərə torpaq payının verilməsi
- Borcların ləğv edilməsi

Demosla aristokratiya arasında mübarizənin səbəbləri nə idi?

Afina xalq yığıncağı

Xalq üsyanından qorxan zadəganlar demosa güzəştə getməyə məcbur oldular.

E.ə. 594-cü ildə hökmdar seçilən Solon demosla aristokratları barışdırmaq üçün islahatlar keçirdi.

Bu islahatlara əsasən kəndlilərin borcları ləğv olundu. Borca görə qul edilən afinalılar azad olundu. Afinalıların gələcəkdə də borca görə qul edilməsi qadağan edildi. Attikanın yerli sakini olan bütün kişilər Afina dövlətinin vətəndaşı hüququnu aldılar. Bütün vətəndaşlar* Afina xalq yığıncağında iştirak edirdi.

E.ə. VI əsrin sonlarında xalq yığıncağı ordu və donanmaya başçılıq edən strateqlər seçməyə başladı.

Vətəndaş olmaq afinalılara hansı hüquqları verdi?

Solon islahatlarını müzakirə edin. Sizcə, bu islahatlara daha nələri əlavə etmək olar?

*** Vətəndaş**

qanunla müəyyən olunmuş hüquqlardan istifadə edən və dövlət qarşısında vəzifələr daşıyan adam

Xalq yığıncağına insan axını

Spartalılar döyüşdə

Sparta dövləti

E.ə. II minilliyin sonunda dorilər Cənubi Yunanıstanın Lakonika vilayətini işğal edərək Sparta şəhərinin əsasını qoydular. Özlərini isə spartalılar adlandırmağa başladılar. Afina ilə eyni vaxtda Spartada quldar dövləti meydana gəldi. İşğalçılıq müharibələri nəticəsində spartalılar bütün Cənubi Yunanıstanı özlərinə tabe etdilər. İtaət altına alınmış əhalini qula çevirdilər. Qulları **hilotlar** adlandırırdılar. Peloponnesin azad əhalisi spartalılara vergi verirdi.

Lakonik danışıq

Spartalılar qısa və aydın danışmağa üstünlük verirdilər. Belə danışıq lakonik danışıq adlanır, yəni Lakonikadakı kimi. Məsələn, spartalı qadın oğlunu müharibəyə yola salarkən deyirdi: "Qalxanla, ya da qalxanın üstündə". Qalxanı itirmək rüsvayçılıq sayılırdı. Döyüşdə mərdliklə həlak olmuş döyüşçünün cənazəsini qalxanın üstündə gətirirdilər.

Spartalı kişilərin hamısı döyüşçü idi. Onlar yaxşı silahlanırdılar. Sparta ordusunun düzülüşü falanqa adlanırdı. Qanun onlara hərbi işdən başqa ayrı bir işlə məşğul olmağı qadağan edirdi.



Sparta falanqası

Spartalı döyüşçü

Spartalı oğlanların tərbiyəsi

Oğlanların yeddi yaşı tamam olduqda onları valideynlərindən alıb məktəbə verirdilər. Burada onlar bədəni və iradəni möhkəmlədən sərt şəraitdə yaşayırdılar. İdman məşqlərində güləş və yumruq döyüşü mühüm yer tuturdu. Ağrıya dözməyi öyrətmək üçün oğlanları qamçı ilə döyürdülər. Onlar böyüklərin bütün əmrlərini sözsüz yerinə yetirməli, yalnız böyüklər icazə verdikdə danışmalı idilər.

Sizcə, spartalıların hərbi uğurlarının əsas səbəbləri nə idi?

Sparta dövlətini necə adlandırardınız?

Afinada liman

Yunan koloniyaları

Demos ilə zadəganlar arasındakı şiddətli mübarizə, eləcə də Yunanıstanda əkinəyararlı torpaqların azlığı bir çoxlarını ölkədən çıxıb getməyə məcbur etdi. Yunanıstanın bir sıra şəhərləri Aralıq və Qara dənizi sahillərində özlərinə daimi məskən yerləri, koloniyalar yaratmağa başladı. E.ə. VIII–VI əsrlərdə Qafqazdan İspaniyayadək olan dəniz sahillərində çoxlu yunan koloniyaları meydana gəldi. Torpaqsız kəndlilər, varlanmaq istəyən sənətkar və tacirlər koloniyalarda məskunlaşırdılar. Hər bir koloniya ayrıca şəhər-dövlət idi.

Qədim yunanlar harada məskunlaşmasından asılı olmayaraq, özlərini vahid xalq hesab edirdilər. Onlar özlərini ellinlər, vətənlərini isə Ellada adlandırırdılar. Ellinləri ümumi dil, adət-ənənələr, din və vahid yazı birləşdirirdi.

Koloniyaların salınmasına hansı amillər səbəb olmuşdur?

Yunan koloniyalarının salınmasının əhəmiyyəti nədir?

Yunan-Əhəməni müharibəsi

E.ə. V əsrin əvvəllərində Avropada Yunanıstanın, Asiyada isə Əhəməni dövlətinin qüdrəti xeyli artdı. Əhəməni hökmdarı I Dara Kiçik Asiyadakı yunan şəhər-dövlətlərini və Egey dənizindəki adaları özünə tabe etdi.

Yunanıstana hücum edən I Daranın qoşunları Afina yaxınlığındakı **Marafon** düzənliyinə çıxdılar. E.ə. 490-cı ildə burada baş vermiş döyüşdə yunanlar sayca üstün Əhəməni ordusunu məğlub etdi.

Marafon döyüşü



Yunan döyüşçülərindən biri Marafon düzənliyindən Afinaya qədər olan 42 km məsafəni qaçaraq qələbə xəbərini çatdırmışdı. Lakin xəbəri verdikdən sonra ürəyi partlayıb ölmüşdü.

Marafon qaçışı ilk dəfə Yunanıstanda həmin döyüşçünün şərəfinə yaranmışdır.

E.ə. 480-ci ildə Əhəməni ordusu Şimali Yunanıstana soxuldu. Sparta hökmdarı Leonidin başçılığı ilə yunanlar Fermopil keçidini tutub, Orta Yunanıstana gedən yolu kəsdilər. Xəyanət nəticəsində mühasirəyə düşdüklərini görən Leonid spartalılardan başqa, bütün dəstələrin geri çəkilməsini əmr etdi. O, 300 spartalı ilə birlikdə qəhrəmanlıqla vuruşaraq bərabər olmayan döyüşdə həlak oldu. Əhəmənilər Orta Yunanıstanı tutdular.

Əhəməni elçilərindən biri öz ordularının çoxluğu ilə yunanları qorxutmaq üçün demişdi: "Bizim oxlarımız günəşin qabağını tutacaqdır". Leonid cavab vermişdi: "Nə olar, kölgədə vuruşarıq".

Əhəməni hökmdarı Salamin döyüşünü izləyir.

E.ə. 480-ci ildə baş vermiş Salamin dəniz vuruşması yunanların qələbəsi ilə başa çatdı. Bir il sonra yunanların birləşmiş qüvvələri düşməni darmadağın edərək öz ölkələrindən qovdular. Lakin dəniz döyüşləri 30 il davam etdi. Buna görə yunan şəhər-dövlətləri öz aralarında ittifaq bağladılar. Birləşmiş donanmaya Afina strateqləri başçılıq edirdi. Afina dəniz ittifaqı Əhəməni donanmasını məğlubiyyətə uğratdı. Müharibə vətənlərini müdafiə edən yunanların qələbəsi ilə başa çatdı. Bağlanmış sülhə görə

Əhəməni dövləti Egey dənizi adalarında və Kiçik Asiyada olan yunan şəhərlərinin müstəqilliyini tanıdı. Onun hərbi donanmasına Egey dənizində üzmək qadağan olundu.

Yunanların qələbə qazanmasının iki əsas səbəbini müəyyən edin.

Yunan-Əhəməni müharibəsi barədə mətn qurun.

Salamin dəniz döyüşü

Afina quldarlıq demokratiyası

Əhəməni dövləti üzərində qələbədən sonra Yunanıstan Aralıq dənizi hövzəsində ən güclü ölkə oldu. Bundan sonra afinalılara "dəniz sahibləri" deyirdilər. Qələbə nəticəsində xeyli qənimət əldə olundu. Bazarlarda minlərlə adam qul kimi satılırdı. Qul əməyindən ən çox filiz mədənlərində, daş karxanalarında istifadə olunurdu. Qulları "insanayaqlı" adlandırırdılar.

Sizcə, qulları nə üçün belə adlandırırdılar?

E.ə. V əsrin ortalarında Afina Yunanıstanın ən qüdrətli dövləti idi. Burada hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində yoxsul vətəndaşların hüquqları xeyli artmışdı. Onlar indi bütün vəzifələri tuta bilərdilər. Vəzifəyə görə əmək haqqı verilirdi. Afinada quldarlıq demokratiyasının ən yüksək inkişaf dövrü Periklin strateqliyi illərinə təsadüf edir. Dövlətin ali orqanı xalq yığıncağı idi.Yığıncaqda qanunlar qəbul edilir, müharibə və sülh məsələləri həll edilirdi. Strateq

Perikl



Qul bazarı

və xəzinədar da yığıncaqda seçilirdi. Xalq yığıncağında 20 yaşına çatmış vətəndaşlar iştirak edə bilərdilər. Afinada dövlətin bu cür idarə olunması demokratiya, yəni "demosun (xalqın) hakimiyyəti" adlanırdı.

Afinada demokratik idarəetmənin əsas əlamətlərini sadalayın.

Perikl və Solonu müqayisə edin.

YUNANISTAN MƏDƏNİYYƏTİ

Teatr

Qədim yunanlar tanrı Dionisin şərəfinə keçirilən bayramlarda oxuya-oxuya əfsanələr söyləyir və açıq havada səhnələr göstərirdilər. Tamaşaçılar təpənin yamacında oturur, ətəyindəki meydançada isə aktyorlar çıxış edirdi.

E.ə. V əsrin sonlarında bütün yunan şəhərlərində belə teatrlar* tikilmişdi. Teatrda əfsanələrlə yanaşı, qədim yunan müəlliflərinin yazdıqları əsərlər də tamaşaya qoyulurdu.

Din

Qədim yunanlar çoxtanrılı dinə ibadət edirdilər. Onlar tanrıların Olimp dağının zirvəsində yaşadığına inanırdılar. Yunanların baş tanrısı Zevs idi.



Afina teatrı

Zevs tanrıların əhatəsində



Homer



Herodot

Herodot e.ə. V əsrdə tarix elminin əsasını qoymuş, yunan-Əhəməni müharibəsinin tarixini yazmışdı. Onun "Tarix" kitabı Yunanıstan, Ön Asiya, Misir və Azərbaycanın qədim tarixini öyrənmək üçün qiymətli mənbədir. Herodotu "tarixin atası" adlandırırlar.

Sizcə, nə üçün Herodotu "tarixin atası" adlandırmışlar?

Təhsil

Yunanlar təhsilə böyük önəm verirdilər. Ən yaxşı məktəblər Afinada idi. Azad insanların övladları bu məktəblərə gedirdilər. Onlar itiuclu stil adlanan metal çubuqla mum lövhələr üzərində hərflər cızırdılar. Stilin küt tərəfi ilə yazılanı pozurdular. Yunanların öz əlifbası var idi. Onun əsasında sonralar latın və kiril əlifbaları yaranmışdı. Məktəbdə şagirdlər Homerin "İliada" və "Odisseya" poemalarını əzbərləyirdilər.

Elm

Qədim Yunanıstanda yaşamış Demokrit, Hippokrat, Herodot və Aristotel kimi alimlər elmin inkişafına böyük töhfələr vermişdilər. Demokrit dünyanın ən xırda zərrəciklərdən – atomlardan ibarət olduğunu söyləmişdir. Hippokratın təliminə görə, həkim xəstəliyə qalib gəlməkdə orqanizmə kömək etməli idi. Aristotel bütün elmi bilikləri ayrı-ayrı sahələrə bölərək onlara botanika (bitki), fizika (təbiət) və s. adlar vermişdi.



Hippokrat

Aristotel

İsgəndər Aristotel haqqında

Aristotel İsgəndərin müəllimi olmuşdur. İsgəndər Aristotelə heyran idi. Öz sözləri ilə desək, müəllimini atasından az istəmirdi. O deyirdi ki: "Filippə həyatı üçün, Aristotelə isə ləyaqətlə yaşadığına görə borcludur".

Afinanın heykəli



Parfenon məbədinin daxili görünüşü

Memarlıq

Yunanıstan memarlığı və incəsənəti sürətlə inkişaf edirdi. Hər bir şəhərdə ictimai binalar, məbədlər, məktəblər, teatrlar tikilir və heykəllər ucaldılırdı. Afina akropolunda yunan memarlığının möcüzəsi hesab edilən binalar inşa edilmişdi. Bunlardan ən möhtəşəmi ilahə Afinanın şərəfinə tikilən Parfenon məbədi idi. Parfenonda heykəltəraş Fidi qızıl və fil sümüyündən ilahə Afinanın 12 metr hündürlüyündə heykəlini düzəltmişdi. Yunanıstan memarlığında sütunlardan da geniş istifadə olunurdu.

Olimpiya oyunları

Qədim Yunanıstanda dörd ildən bir keçirilən idman yarışlarını Olimpiya oyunları adlandırırdılar. Oyunlar yunanların müqəddəs hesab etdiyi Peloponnesdəki Olimpiya şəhərində keçirilirdi. Şəhərin mərkəzində möhtəşəm məbəd yerləşirdi. Məbədin içərisində Zevsin Fidi tərəfindən yaradılmış heykəli ucalırdı.

Olimpiya oyunlarında idmançılar idmanın qaçmaq, tullanmaq, güləşmək, disk və nizə atmaq, eləcə də yumruq döyüş növləri üzrə yarışırdılar. Ən təhlükəli yarış hər birinə dörd at qoşulmuş arabaların yarışması idi.

Bu oyunlar zamanı müharibələr dayandırılırdı. Yarış qaliblərini zeytun ağacının budaqlarından hörülmüş çələnglə mükafatlandırırdılar. Vətənlərində isə onlara heykəl qoyulurdu.



Amfora üzərində atletlərin Olimpiya oyunlarında təsviri

Yunanlar il hesabını ilk Olimpiya oyunlarının keçirildiyi tarixdən – e.ə. 776-cı ildən hesablayırdılar.

S **Qədim Yunanıstanda Olimpiya oyunlarına yüksək diqqət göstərildiyini hansı məlumatlar təsdiq edir?**

İndi də hər dörd ildən bir Olimpiya oyunları keçirilir. Oyunlar zamanı nəhəng bir məşəl şölələnir. Bu məşəli Olimpiya şəhərində yandırıb yarışların keçirildiyi ölkəyə gətirirlər.

Olimpiya məşəli

T **Müasir Olimpiya oyunları barədə məlumat toplayın.**

Yunan şəhər-dövlətlərinin tənəzzülü

Yunan şəhər-dövlətləri ticarətdə üstünlük qazanmaq və qonşu əraziləri tabe etmək üçün bir-biri ilə rəqabət aparırdılar. Yunanıstanda ağalıq etmək uğrunda mübarizədə Afina və Sparta xüsusilə seçilirdi. Onların arasında e.ə. 431-ci ildə başlanan müharibə fasilələrlə e.ə. 404-cü ilədək davam etdi. Sparta qalib gəldi. Afina dəniz ittifaqı ləğv edildi. Müharibələr Yunanıstanın təsərrüfat həyatına böyük zərbə vurdu və şəhər-dövlətlər zəiflədi.

Yaranmış vəziyyətdən qonşu Makedoniya dövləti məharətlə istifadə etdi.

Makedoniya Yunanıstanın şimalında yerləşirdi. Paytaxtı Pella şəhəri idi. II Filippin hakimiyyəti dövründə Makedoniya xeyli güclənmişdi. O, zəifləmiş yunan şəhər-dövlətlərini bir-birinin ardınca ələ keçirirdi. II Filipplə yunan orduları arasında həlledici döyüş e.ə. 338-ci ildə Xeroneya şəhəri yaxınlığında oldu. Döyüş Makedoniya ordusunun qələbəsi ilə başa çatdı. Yunan şəhər-dövlətlərinin azadlığına son qoyuldu.

Hərbi xidmətə başlayanda Afina gənclərinin andı

"Mən bu müqəddəs silahı rüsvay etməyəcəyəm və vuruş zamanı harada dayanmağımdan asılı olmayaraq, öz yoldaşımı tək qoymayacağam. Mən öz ocağım uğrunda vuruşacaq və vətənimi özümdən sonra daha qüdrətli və güclü qoyacağam. Mən hamı kimi həm indiki, həm də gələcəkdə qoyulacaq qanunlara tabe olacağam".

S **Nə üçün yunanlar öz azadlıqlarını qoruya bilmədilər?**

T **Yunanıstanda vahid dövlətin olmamasının mənfi cəhətlərini sadalayın.**



Afina-Sparta müharibəsi

Makedoniyalı İsgəndər döyüşdə

Makedoniyalı İsgəndərin imperiyası

II Filippin ölümündən sonra hakimiyyətə oğlu İsgəndər (e.ə. 336–323) gəldi. İsgəndərin başçılıq etdiyi Makedoniya ordusu Şərqə doğru hərəkət etdi. Bir neçə döyüşdə Əhəməni ordusuna qalib gələn İsgəndər Aralıq dənizi sahilləri ilə Misirə doğru hərəkət etdi. Misir İsgəndərə döyüşsüz tabe oldu. Kahinlər onu "firon" və "tanrı" adlandırdılar. İsgəndər Misirdən qayıdıb Mesopotamiyaya doğru hərəkət etdi. Burada onu Əhəməni hökmdarı III Daranın böyük qoşunu qarşıladı. Həlledici döyüş Qavqamel adlı yerdə e.ə. 331-ci ildə baş verdi. İsgəndər qalib gəldi. Döyüş meydanından qaçan III Dara e.ə. 330-cu ildə öldürüldü və nəhəng Əhəməni imperiyası süqut etdi. Bundan sonra İsgəndər Mərkəzi Asiyadan keçərək Hindistana yürüş etdi və burada ciddi müqavimətlə üzləşdi. Əsgərlərinin yorulduğunu nəzərə alan böyük sərkərdə geri qayıtmağa məcbur oldu.

Makedoniyalı döyüşçülər bir səhradan keçərkən susuzluqdan çox əziyyət çəkirlərmiş. İsgəndər üçün bir az su tapsalar da, o, suyu içməyib: **"Bu su təkcə mənim üçün çox, döyüşçülərin hamısı üçün isə azdır"**, – deyərək suyu qumun üzərinə tökmüşdür.

Makedoniyalıların işğalları nəticəsində Balkan yarımadasından Hind çayına qədər uzanan, paytaxtı Babil şəhəri olan böyük bir imperiya yarandı. E.ə. 323-cü ildə İsgəndər vəfat etdi. Onun ölümündən sonra yaratdığı imperiya Misir, Suriya və Makedoniya padşahlıqlarına parçalandı.

T **Makedoniyalı İsgəndərlə III Daranı müqayisə edin.**

T **Makedoniyalı İsgəndər barədə təqdimat hazırlayın.**

Ellin mədəniyyətinin Şərq ölkələrində yayılması

Makedoniyalı İsgəndər öz hakimiyyətini möhkəmləndirmək məqsədilə işğal etdiyi ölkələrdə yeni-yeni şəhərlər salır, orada yunan və Makedoniya döyüşçülərindən ibarət dəstələr yerləşdirirdi.

Yunanıstandan köçüb gələnlərin hesabına bu şəhərlərin əhalisi artırdı. Belə şəhərlərin çoxu İsgəndəriyyə adlandırılırdı.

İsgəndərin imperiyasının parçalanması nəticəsində yaranan dövlətləri sərkərdələri idarə edirdi. Onlar vilayətləri idarə etmək üçün yunan və makedoniyalılardan məmurlar təyin edirdilər. Yerli əhalidən olan quldarlar yunanlara oxşamağa çalışır, onların dilini öyrənir, adətlərini qəbul edirdilər. Beləliklə, Şərq ölkələrində Ellin mədəniyyəti yayılırdı.

S **Sizcə, Ellin mədəniyyətinin Şərqdə yayılmasının əhəmiyyəti nə idi?**

İsgəndər tərəfindən Nilin deltasında salınmış İsgəndəriyyə şəhəri Misir padşahlığının paytaxtına çevrildi. O, Aralıq dənizi ətrafında ən böyük şəhər idi. Şəhərin qarşısındakı adada hündürlüyü 140 m olan mayak tikilmişdi. Bu mayak limana gələn gəmilərə yol göstərirdi. İsgəndəriyyənin bazarlarında Avropa, Asiya və Afrikadan gətirilmiş mallar satılırdı.

İsgəndəriyyənin kitabxanasında Yunanıstandan və Şərq ölkələrindən gətirilmiş çoxlu elmi əsərlər toplanmışdı. Burada 700 minə qədər əlyazma var idi. Evklid və Arximed kimi böyük alimlər İsgəndəriyyədə fəaliyyət göstərirdilər.

Aralıq dənizinin şərq sahillərindəki yunan-Makedoniya dövlətləri zahirən qüdrətli görünsələr də, möhkəm deyildilər. Tez-tez baş verən müharibələr və üsyanlar nəticəsində onlar zəifləyərək qərbdən gələn yeni işğalçılara – romalılara qarşı dura bilmədilər.

T **Makedoniya imperiyasının ərazisinə daxil olan ölkələri xəritədə göstərin.**

İsgəndəriyyədə mayak

12 İLK RESPUBLİKA YARADANLAR

İtaliya, senat, respublika, legion, Spartak, Yuli Sezar, Kolizey, xristianlıq

Balkan yarımadasından qərbdə Apennin yarımadası yerləşir. Yunanlar buranı İtaliya, yəni "buzovlar ölkəsi" adlandırırdılar. Alp dağları İtaliyanı şimaldan əhatə edir. Yarımadanın cənub qurtaracağında böyük Siciliya adası var. İtaliya əhalisi qədimdən əkinçilik, maldarlıq, üzümçülük və balıqçılıqla məşğul olurdu. Burada müxtəlif tayfalar yaşayırdı. İnkişaf səviyyəsinə görə etrusklar daha çox seçilirdi.

Apennin yarımadasının mərkəzi hissəsində latın tayfası yaşayırdı. Burada Tibr çayının sahilində e.ə. 753-cü ildə Roma şəhərinin əsası qoyuldu.

Roma tarixi bu dövrlərə bölünür:

- padşahlıq
- respublika
- imperiya

İtaliyanın coğrafi mövqeyini xəritə əsasında izah edin.

Roma imperiyası II əsrdə Atlantik okeanında İkiçayarasına qədər, Nil çayından Britaniyaya qədər olan əraziləri əhatə edirdi.

Əfsanəyə görə, latın tayfasından olan Romul və Rem adlı iki qardaş şəhər salmaq qərarına gəlirlər. Onlar şəhərin harada salınması və gələcəkdə oranı kimin idarə etməsi üstündə dalaşırlar. Romul Remi öldürür. Sonra o, şəhər salır və orada padşahlıq edir. Bu şəhəri Romulun adı ilə Roma adlandırırlar.

S **Roma şəhərinin salınmasından neçə il keçir?**

Roma forumu

Padşahlıq dövrü. Patrisilər və plebeylər

Romada padşahlıq dövrü şəhərin yaranmasından **e.ə. 509-cu ilədək** davam etmişdir.

Plebeylər şəhər bazarında

Plebeylərin yaşadığı çoxmənzilli binalar

Patrisi ailəsinin yaşadığı ev

Romanın ən qədim əhalisinin nəslindən olanlar özlərini **patrisilər** adlandırırdılar.

Onlar fəxr edirdilər ki, şəhərin əsasını ata-babaları qoymuşdur. Torpaq sahələri və otlaqlar patrisilərə məxsus idi. Patrisilərin "ağsaqqallar şurası" **Senat** adlanırdı. Senat üzvü olan senatorlar öz sıralarından bir nəfəri ömürlük padşah seçirdilər. Romaya başqa yerlərdən köçüb gələnlərə və onların sonrakı nəsillərinə **plebeylər** deyilirdi. Onlar orduda xidmət edirdilər. Plebeylərə torpaq payı verilmirdi. Varlıların torpağını icarəyə götürən plebeylər məhsulun yarısını onlara verirdilər.

Patrisi ailəsi

Nə üçün torpaq sahələri patrisilərə məxsus idi?

Roma senatı

Respublikanın qurulması və idarə olunması

E.ə. 509-cu ildə romalılar padşah hakimiyyətini devirdilər. Bundan sonra Romanı idarə etmək üçün xalq yığıncağı hər il patrisilərin içərisindən iki konsul seçirdi. Konsullar müharibə vaxtı qoşun başçısı olurdular.

Senat çox geniş səlahiyyətlərə malik idi. Əmin-amanlıq dövründə konsullar bütün məsələləri onunla məsləhətləşməli idilər. Senat xəzinə işlərinə baxır, müharibə və sülh məsələlərini həll edirdi. Onun hazırladığı qərarlar səs vermək üçün xalq yığıncağına göndərilirdi. Artıq Roma dövlətini müəyyən müddətə seçilmiş adamlar idarə edirdi. Romalılar belə idarəetməni **respublika**, yəni "xalqın işi" ("xalqın hakimiyyəti") adlandırırdılar. Plebeylər respublika qurulduqdan

Plebey-patrisi münaqişələri

T Senatın Respublika dövründə də geniş hüquqlara malik olmasının səbəblərini müəyyən edin.

sonra da hüquqsuz qaldılar. Onların qoşunda xidmətdən boyun qaçırması patrisiləri güzəştə getməyə məcbur etdi.

E.ə. V əsrin əvvəllərində plebeylər hər il özləri üçün müdafiəçi – **Xalq tribunları** seçmək hüququ əldə etdilər. Tribun konsulların və senatın plebeylərə aid hər bir qərarını ləğv edə bilərdi. Bunun üçün onun **veto** ("qadağan edirəm") deməsi kifayət idi. **Tribunun** öldürülməsi ən ağır cinayət hesab edilirdi.

Patrisilərə qarşı 200 ildən artıq davam edən mübarizə plebeylərin qələbəsi ilə başa çatdı. E.ə. III əsrin ortalarında plebeylər Romanın tam hüquqlu vətəndaşı oldular.



Senatda bir gün

Hər bir Roma vətəndaşı istənilən vəzifəyə seçilə bilərdi. Lakin vəzifəyə görə əməkhaqqı verilmirdi. Buna görə də yoxsullar vəzifə tutmaq istəmirdilər. Vəzifələrə daha çox adlı-sanlı adamlar, quldarlar seçilirdi. Roma respublikası zadəgan respublikası idi.

S **Respublika idarəetməsinin demokratik xüsusiyyəti nədə idi?**

Parçala və hökmranlıq et

Roma ordusu hərbi xidmətə çağırılan kəndlilərdən təşkil olunmuşdu. 4500 nəfər döyüşçü **legion** adlanırdı. Legionun əsas gücü ağır silahlı piyadalardan ibarət idi. Orduda sərt intizam hökm sürürdü.

İtaliyada ondan çox tayfa yaşayırdı. Öz gücünə arxalanan romalılar onların yaşadığı əraziləri işğal etməyə başladı. Senat tabe etdiyi tayfaları bir-biri ilə savaşdıraraq onların Roma əleyhinə birləşməsinə imkan vermirdi. Senatın qaydası belə idi: **"Parçala və hökmranlıq et"**.

İtaliyanın işğalını başa çatdıran Roma Siciliya adasını tutmaq istəyirdi. Lakin burada o, Afrikanın şimalında yerləşən qüdrətli Karfagen dövləti ilə toqquşmalı oldu.

Roma ordusu döyüşdə

Roma İtaliyanın cənubundakı yunan şəhərləri ilə müharibə edəndə Balkan yarımadasındakı kiçik bir dövlətin şahı Pirr yunanların köməyinə gəldi. Pirrin 22 min piyadası, 3 min süvarisi və 20 fili var idi. Döyüş vaxtı fillər romalıların cərgələrinə soxulurdu. Onların üzərində oturan döyüşçülər düşmənin üzərinə ox və cida (sivri dəmir ucluqlu, dəlici silah) yağdırırdılar. Pirrin qoşunu bir neçə belə qələbə qazandı. Lakin o qədər tələfata uğramışdı ki, Pirr ucadan demişdi: "Bir də belə qələbə qazansaq, mən qoşunsuz qalaram!" Buradan "Pirr qələbəsi" ifadəsi meydana gəlmişdir ki, bu da məğlubiyyətə bərabər olan qələbə deməkdir.

Əsasən, plebeylərdən ibarət Roma ordusunun e.ə. III əsrin ortalarında başlayan uğurlarının səbəbini müəyyən edin.

Romalı döyüşçülərin "tısbağa düzülüşü"

Roma ilə Karfagen arasında e.ə. III əsrin ortalarında başlanan müharibə fasilələrlə e.ə. 146-cı ilədək davam etdi. Romalılar karfagenliləri punlar adlandırdığına görə bu müharibə tarixə **Pun müharibəsi** adı ilə daxil oldu. Müharibənin gedişində Siciliya, Sardiniya və Korsika adaları romalılar tərəfindən işğal olundu. Karfagen şəhəri dağıdıldı və Romanın əyalətinə çevrildi. Bununla da Aralıq dənizinin qərb sahilləri Romanın hakimiyyəti altına düşdü.

Şərqə tərəf irəliləyən romalılar Suriya padşahlığını məğlub edib, onun Kiçik Asiyadakı torpaqlarını ələ keçirdi. Bu qələbə Balkan yarımadasını da işğal etmək üçün romalılara yol açdı.

Makedoniya falanqası ilə döyüşdə Roma legionları qalib gəldi. Romalılar Makedoniyanı tutdular. E.ə. 146-cı ildə Yunanıstan da itaət altına alındı. Roma Aralıq dənizi hövzəsində ən qüdrətli dövlət oldu.

İşğal olunmuş əraziləri canişinlər idarə edirdi. Qalib gəlmiş sərkərdəni senat triumfla* təltif edirdi.

*** Triumf**

qalib gələn sərkərdənin öz qoşununun başında təntənəli şəkildə Roma şəhərinə daxil olması

Romanın işğal etdiyi əraziləri xəritədə göstərin.

Danışan əmək alətləri

İşğalçılıq müharibələri nəticəsində Romaya çoxlu qul gətirilirdi. Ağır vergiləri ödəyə bilməyən əyalətlərin sakinləri qul kimi satılırdı. Aralıq dənizi ölkələrinin hər yerində qul bazarları var idi. İtaliyanın kənd təsərrüfatında qul əməyindən daha çox istifadə edilirdi. Romada əmək alətlərini "dilsiz", kəlləri "böyürən", qulları isə "danışan alətlər" adlandırırdılar. Çevik və güclü qullara xüsusi həbsxana-məktəblərdə silah işlətməyi öyrədir və onları bir-biri ilə vuruşmağa məcbur edirdilər. Belə qullara **qladiator** (latınca "qılınc" sözündəndir) deyirdilər.

Qul bazarı

Qladiatorlar döyüşdə

Qladiator döyüşləri üçün sirkə oxşar amfiteatrlar (böyük tamaşa yeri) tikirdilər. Onun mərkəzindəki qum tökülmüş meydançada – arenada qladiatorlar döyüşürdü. Məğlub qladiatorun taleyi tamaşaçılardan asılı idi. Onlar baş barmaqlarını qaldıranda döyüşçü sağ qalır, aşağı endirəndə isə qalib tərəfindən öldürülürdü.

Qədim dünyanın heç bir ölkəsində Romada olduğu qədər qul yox idi. Romada quldarlıq quruluşu yüksək inkişaf etmişdi.

Qladiator vəhşi heyvana qarşı

Fərqli silahlarla döyüşən qladiatorlar

Qrakx qardaşlarının islahatları

Qul əməyinin geniş tətbiq olunması nəticəsində kəndlilər daha da yoxsullaşırdı. Qulların qüvvəsi ilə torpağın becərilməsi və məhsul əldə edilməsi çox ucuz başa gəlirdi. Buna görə də kəndlilər öz məhsullarını sata bilmir və torpaqlarını ucuz qiymətə quldarlara verirdilər. Kəndlilər torpağı itirəndən sonra hərbi xidmətə çağırılanların sayı azalırdı. Bu Roma qoşununun zəifləməsinə səbəb olurdu.

Tiberi Qrakxın xalqa müraciəti

Qrakx qardaşları

Tiberi xalqa müraciət edərək deyirdi: "Vəhşi heyvanların da yatmaq üçün yuvası və yatağı vardır. İtaliya uğrunda vuruşan və canlarından keçən adamlar evsiz-eşiksiz sərsərilər kimi dolaşırlar. Əsgərlər başqalarının cah-cəlalı, sərvəti uğrunda vuruşub həlak olurlar. Onlara kainatın ağası deyirlər, halbuki onların özlərinin bir parça torpağı yoxdur".

S **Tiberinin müraciəti niyə kəskin hərəkətlərlə müşayiət olunur?**

E.ə. 133-cü ildə xalq tribunu seçilən Tiberi Qrakx yeni torpaq qanunu təklif etdi. Qanuna görə, hər bir varlı romalı 250 hektardan artıq torpaqdan istifadə edə bilməzdi. Torpağın artığı alınıb yoxsullara paylanmalı idi. Kəndlilərə bu torpaq sahələrini satmaq qadağan olunurdu.

Senatın etirazına baxmayaraq, xalq yığıncağı bu qanunu qəbul etdi. Yoxsullara torpaq paylanılmasına başlandı.

Tiberiyə böhtan ataraq padşah olmaq istədiyini deyən düşmənləri onu tərəfdarları ilə birlikdə öldürdülər. Ondan sonra xalq tribunu seçilən qardaşı Qay Qrakx torpaqların paylanmasını davam etdirdi.

O, yoxsul kəndlilərə dövlət anbarlarından ucuz qiymətə taxıl verilməsinə nail oldu. Qayın yoxsullara münasibəti senatın xoşuna gəlmədi. Romaya qoşun yeridildi. Küçə döyüşlərində Qay və tərəfdarları öldürüldü. Bundan sonra torpaqların paylanılması dayandırıldı. Çox keçmədən kəndlilərin aldığı torpaqların satılmasına icazə verən yeni qanun qəbul olundu. Varlılar torpaqları yenidən satın almağa başladılar.

Qrakx qardaşlarının islahatları İtaliyada kəndlilərin var-yoxdan çıxmasını bir müddət dayandırsa da, onun qarşısını tamamilə ala bilmədi.

S **Kəndlilərə torpaq verilməsi nə üçün zəruri idi?**

Spartak tərəfdarlarının əhatəsində

Spartakın dəstəsi Vezuvi dağında məskən saldı. Üç min roma döyüşçüsü oranı mühasirəyə alıb, qayadan düşən yeganə cığırı tutdu. Qullar üzüm tənəklərindən nərdivan hörüb gecə ikən sıldırım qayadan aşağı endilər. Romalılar burada keşikçi qoymamışdılar. Üsyançılar qəflətən romalıların üzərinə atılıb onları darmadağın etdilər.

Spartak üsyanı

Kapuya şəhərində böyük qladiator məktəbi var idi. **E.ə. 74-cü** ildə burada qullar üsyan qaldırdı. Üsyana ağıl və cəsarəti ilə seçilən **Spartak** rəhbərlik edirdi.

İtaliyanın hər yerindən Spartakın yanına qullar axışıb gəlirdi. Onun ordusunda on minlərlə qul var idi. Spartak onları Roma ordusu qaydasında təşkil edib sərt nizam-intizam yaratdı.

İki konsulun başçılığı ilə üsyançılara qarşı qoşun göndərildi. Spartak onların birləşməsinə imkan vermədən hər ikisini ayrı-ayrılıqda məğlub etdi. Belə olduqda senat üsyançılara qarşı yeni böyük ordu göndərdi. Ordunun komandanı varlı Krass oldu. Spartak Siciliya adasına keçmək istəyirdi. Lakin dəniz quldurları bunun üçün haqq alsalar da, Spartakı aldatdılar. O, adaya keçə bilmədi. Krassın qoşunu onun geriyə yolunu kəsib üsyançıları tələyə saldı. Spartak üsyançılara dedi: "Acından ölməkdənsə, qılınc zərbəsindən ölmək daha yaxşıdır". Üsyançılar Krassın ordusuna hücum etdi. **E.ə. 71-ci ildə** baş vermiş sonuncu döyüşdə Spartak həlak oldu. Qulların mərdliklə vuruşmasına baxmayaraq, Krassın və Pompeyin legionları tərəfindən darmadağın edildilər. Kapuyadan Romaya gedən yol boyunca altı min qul çarmıxa çəkildi.



Mark Krass

Qulların məğlub olmasının səbəblərini araşdırın.

A Şəkildəki tarixi şəxslərlə bağlı araşdırma aparın, onların oxşar və fərqli cəhətlərini deyin.

Püşk atılmışdır

Spartak üsyanının yatırılmasından sonra Krass və Pompey Romada hakimiyyət uğrunda mübarizə aparırdı. Bu mübarizəyə Yuli Sezar da qoşulmuşdu. O özünün konsul seçilməsinə nail oldu. Konsulluq müddəti başa çatdıqdan sonra Sezar Qalliyaya canişin təyin edildi. Qalliyanı işğal etdikdən sonra Sezar Romada ali hakimiyyəti ələ keçirmək üçün fəaliyyətə başladı. E.ə. 49-cu ildə Sezarın qoşunları Roma üzərinə hərəkət etdi. Qalliya sərhədini keçmək Respublikaya qarşı qiyam demək idi. Öz niyyətini xeyli götür-qoy edən Sezar, nəhayət, "Püşk atılmışdır", – deyərək irəlilədi.

Senat qoşunlara komandanlığı Pompeyə tapşırdı. Lakin o, müdafiəni təşkil edə bilmədi. Sezar Romanı və İtaliyanı tutdu. Pompeyin topladığı böyük ordu da Sezar tərəfindən darmadağın edildi. Sezar tərəfdarları ilə Pompey tərəfdarları arasında gedən vuruşmalar Romanın öz vətəndaşları arasında gedən müharibələr idi. Bunları Romada vətəndaş müharibələri adlandırırdılar.

Bütün Roma respublikasında öz hakimiyyətini qurmaq üçün Sezar Avropada, Asiyada və Afrikada müharibələr apardı. Qalib gəldikdən sonra o, Romaya qayıtdı. Senat Sezarı ömürlük **diktator** (tam hakimiyyətə malik olan) elan etdi. Ona hökmdar kimi ehtiram göstərilirdi.

S **Qay Yuli Sezara göstərilən ehtiramın səbəbi nə idi?**

Onun heykəlləri tanrıların heykəlləri ilə yanaşı qoyulur, metal pulların üzərində şəkli həkk olunurdu.

Sezarın təkbaşına hakimiyyətindən narazı olan senatorlar e.ə. 44-cü ildə ona qarşı qəsd təşkil etdilər. Respublika tərəfdarlarının hazırladıqları qəsdin başında Sezarın dost hesab etdiyi Brut dururdu. Senatın iclası zamanı qəsdçilər Sezara 23 xəncər zərbəsi vuraraq onu öldürdülər.

Sezarın Romada daimi təkbaşına hakimiyyət qurmaq cəhdi boşa çıxdı. Lakin bu, respublikanın çox da möhkəm olmadığını göstərdi. Roma artıq monarxiya (irsən keçən təkhakimiyyətlilik) yoluna qədəm qoymaqda idi.

Sezara sui-qəsd

Sezarın diktatorluğunun konsulların hakimiyyətindən fərqi nədə idi?

İmperiyanın yaranması

Qəsdçilər Romada özlərinə tərəfdar tapa bilməyib qaçdılar. Sezarın köməkçisi Antoni və varisi Oktavian respublikaçılara qarşı çıxaraq onları məğlub etdilər. Qaliblər Roma dövlətinin idarəsini öz aralarında bölüşdürdülər. Misir hökmdarı Kleopatra ilə evlənən Antoni şərq əyalətlərini idarə edir və İsgəndəriyyədə yaşayırdı. Oktavian dövlətin qərb əyalətlərini idarə edirdi. Onların arasındakı rəqabət bir müddət sonra müharibəyə səbəb oldu. E.ə. 31-ci ildə Aksi burnu yaxınlığında baş verən dəniz döyüşündə Oktavian qalib gəldi. Onun ordusu e.ə. 30-cu ildə İsgəndəriyyəni tutdu. Misir Romanın əyalətinə çevrildi. Bununla da Romada vətəndaş müharibələri başa çatdı. Oktavian Romanın tək hakimi oldu. Senat ona Avqust (müqəddəs) fəxri adını verdi. E.ə. 27-ci ildən Roma dövləti imperiya adlanmağa başlandı.

Kleopatra



Mark Antoni

Konsul və tribunlar Oktavianın əmrlərini sözsüz yerinə yetirirdilər. Yalnız onun təyin etdiyi adamlar senator ola bilərdi. Oktavian Avqustun qoyduğu idarəetmə qaydası ölümündən sonra da saxlanıldı.

Roma-Parfiya döyüşü

Üzərində Trayanın rəsmi olan qızıl sikkələr

Romanı imperatorlar, ya da hakimiyyəti varisliklə, yaxud qoşunun köməyi ilə ələ keçirmiş şəxslər idarə edirdilər. Romada respublika vəzifələri saxlanmış olsa da, əslində, monarxiya qurulmuşdu. İmperiyanın qurulması Romanın hökmranlığını daha da möhkəmləndirdi.

İmperatorların apardığı işğalçı müharibələr nəticəsində Romanın ərazisi daha da genişlənirdi. Dunay çayı sahillərindəki qələbələri ilə şöhrət qazanmış imperator Trayan 115–117-ci illərdə Asiyaya yürüş etdi. O, Mesopotamiyanı, Kiçik Asiyada Kilikiyanı, Ərəbistan yarımadasında bir çox əraziləri işğal etdi. Paytaxt şəhəri Ktesifonu tutsa da, Parfiyanın fəthini başa çatdıra bilmədi. Baş vermiş üsyanlar onu geri qayıtmağa məcbur etdi. Trayanın yürüşləri Romanın son işğalçı müharibələri idi.

T **Roma imperiyasını Qədim Şərqdəki monarxiyalar ilə müqayisə edin.**

Trayanın heykəli

GERMANLAR
QALLİYA
Dunay
İSPANİYA
Tibr
KORSİKA
SARDİNİYA
ROMA
SİCİLİYA
Karfagen
ARALIQ
SPQR
ROMA

Qədim Roma xəritəsi
(I–II əsrlər)
Paytaxt
Şəhər
Asılı ərazilər
DAKİYA
Dunay
MAKEDONİYA
QARA DƏNİZ
XƏZƏR DƏNİZİ
ALBANİYA
KİÇİK ASİYA
ATROPATENA
MESOPOTAMİYA
SURİYA
Dəclə çayı
Fərat çayı
DƏNİZİ
FƏLƏSTİN
İsgəndəriyyə
MİSİR
Nil
Nil

Quldarlıq təsərrüfatının tənəzzülü

Romalılar elmi biliklərin inkişafı nəticəsində su dəyirmanları tikməyi öyrənmiş, gavahınlı kotan və öküzlə hərəkətə gətirilən biçin alətləri ixtira etmişdilər. Lakin bu qiymətli əmək alətlərini qullara etibar etmirdilər. Öz sahibinə nifrət bəsləyən qulları işləməyə məcbur etmək və qaçmalarına yol verməmək üçün çoxlu nəzarətçi saxlamaq lazım gəlirdi. II–III əsrlərdə quldarlıq texnikanın inkişafını ləngidir, kənd təsərrüfatını tənəzzülə doğru aparırdı.

Qulların öz əməklərinə marağını artırmaq üçün bəzi quldarlar onlara kiçik torpaq sahələri və əmək alətləri verirdilər.



Su dəyirmanı



Romada yol çəkilişi

Həmin qullar daxma tikə və ailə qura bilərdi. Belələrini "daxmalı qullar" adlandırırdılar. "Daxmalı qul" əldə etdiyi məhsulun bir hissəsini sahibinə verməli idi. Qalan məhsul isə qulun özünə məxsus olurdu. II əsrdə qulun öldürülməsi qadağan edilmişdi. İri malikanə sahibləri öz torpaqlarını kiçik sahələrə bölərək azad kəndlilərə icarəyə verirdilər. Belə icarədarlara kolonlar (əkinçi) deyirdi. **Kolon** torpaq sahibinə icarə haqqı verdikdən sonra qalan məhsulu özünə götürürdü. Kolonlar qullara nisbətən daha yaxşı işləyirdi.

T **Kolonlarla daxmalı qulları müqayisə edin.**

Konstantinopol şəhəri

İmperiyanın parçalanması

İmperator Konstantin Romanı sevmirdi və nadir hallarda orada olurdu. O, paytaxtı Şərqə köçürməyi qərara aldı. 330-cu ildə paytaxt qədim yunan şəhəri Vizantiyə (Bizans) köçürüldü. Yeni paytaxt Konstantinopol adlandırıldı.

Nəhəng imperiyanı idarə etmək getdikcə çətinləşirdi. Mərkəzi hakimiyyət və əyalətlər arasındakı əlaqələr zəifləmişdi. Barbarların ("əcnəbi", "anlaşılmaz dildə danışan") onun sərhədlərinə hücumları güclənirdi.

Romalılar və yunanlar dillərini başa düşməyən adamları "barbarlar" adlandırırdılar. Onlara elə gəlirdi ki, bu adamlar "bar-bar" deyirlər. Hazırda "barbar" sözü "kobud və qəddar adam" deməkdir.

395-ci ildə imperiya iki hissəyə parçalandı. Paytaxtı Konstantinopol olan Şərqi Roma (Bizans) və paytaxtı Roma şəhəri olan Qərbi Roma imperiyaları yarandı. Qərbi Romanın hakimiyyəti altında İtaliya, Avropa və Afrikanın qərb vilayətləri qaldı. Şərqi Roma imperiyasına isə Balkan yarımadası, Misir və Romanın Asiyadakı torpaqları daxil oldu.

İmperiyanın parçalanmasına hansı amillər səbəb oldu?

Qərbi Roma imperiyasının süqutu

İmperiyanın bölüşdürülməsi hər iki dövlətin qüvvələrini zəiflətdi. Barbarların hücumları nəticəsində Qərbi Roma imperiyasının vəziyyəti daha da ağırlaşdı. Şərqdən Avropaya köç edən hunların hücumları qarşısında davam gətirməyən qot və vandal tayfaları imperiyanın ərazilərinə soxuldular. German tayfaları tədricən Qalliyanı, İtaliyanı, İspaniyanı tutdular və Şimali Afrikaya girdilər. V əsrin ortalarında isə hunlar Romaya hücum etdilər. Sülh danışıqları aparmaq üçün hun hökmdarı Attilanın düşərgəsinə Roma papasının (din xadimi) başçılığı ilə nümayəndələr göndərildi. Onlar Attiladan Romanı öz himayəsinə götürməyi xahiş etdilər. Attila bu təklifi qəbul edib, ordusu ilə geri çəkildi.

455-ci ildə vandallar Afrikadan İtaliyaya keçib Romanı asanlıqla tutub qarət etdilər.

Qərbi Roma imperatorları İtaliyada ağalıq edən german tayfa başçılarının əlində oyuncağa

Sonuncu Qərbi Roma imperatorunun əsir alınması

Vandallar

Vandalların Romanı dağıtması

Qot döyüşçüləri

çevrilmişdilər. Nəhayət, 476-cı ildə bu tayfalardan birinin başçısı sonuncu imperatoru taxtdan saldı. Qərbi Roma imperiyası süqut etdi.

İmperiyanın süqutu ilə Qərbi Avropada quldarlıq quruluşu dağıldı.

T **Romaya hücüm etmiş hunlarla vandalları müqayisə edin.**

Hun döyüşçüsü

Buna görə də Qərbi Roma imperiyasının süqut etdiyi il qədim dünya tarixinin sonu hesab olunur.

T **Avropada quldarlıq quruluşunun dağılmasını şərtləndirən amilləri müəyyən edin.**

Vandallar Romanı iki həftə qarət etdilər. Heykəllər sındırılır, kitablar məhv edilir, evlər yandırılırdı. On minlərlə romalı öldürüldü və qul edildi. Vandalların törətdiyi dağıntılar o qədər dəhşətli idi ki, o vaxtdan "vandal" sözü vəhşi, mədəniyyət abidələrini, şəhərləri və kəndləri dağıdan qəddar adamlara deyilir.

S **Qərbi Roma imperiyasının süqutuna səbəb olan amillər hansılar idi?**



ROMA MƏDƏNİYYƏTİ

Roma Aralıq dənizi sahillərində ən iri şəhər olmaqla yanaşı, qədim dünyanın mədəniyyət mərkəzlərindən biri olmuşdur.

Memarlıq

İmperatorlar paytaxtı şöhrətləndirmək üçün şəhərin forum (mərkəzi meydan) adlanan hissəsində və onun ətrafında abidələr ucaldır, möhtəşəm məbədlər, ictimai binalar tikirdilər. Əzəmətli binalardan biri olan Kolizey amfiteatrında qladiator döyüşləri keçirilir və teatr tamaşaları göstərilirdi. Panteon ("bütün tanrıların məbədi") şəhərin ən gözəl abidələrindən biri idi. İmperator Trayanın şərəfinə Romada təqribən 40 metr hündürlüyündə sütun ucaldılmışdı. Sütunun üzərindəki relyefdə (qabarıq təsvir) imperatorun hərbi uğurları təsvir olunmuş, zirvəsində isə heykəli qoyulmuşdu. Romada zəfər tağları xüsusilə geniş yayılmışdı. Romanı "Əbədi qızıl şəhər" və ya sadəcə "Şəhər" adlandırırdılar. Şəhərdə isti və soyuq hovuzları olan termlər (isti) – hamamlar tikilirdi. Burada istirahət zalları və kitabxanalar da olurdu. Romalılar yunan və Şərq memarlıq üsullarından geniş istifadə edirdilər. Roma memarları betonu ixtira etdilər.

Roma şəhərinin görünüşü



Onlar qövsşəkilli örtüklər – tağlar (arkalar), qübbələr və günbəzlər tikməyi öyrəndilər.

Romada on minlərlə tamaşaçı tutan nəhəng sirk – cıdır meydanı tikilmişdi. Burada at yarışları keçirilirdi.

T **Qədim Roma memarlığı ilə bağlı təqdimat hazırlayın.**

Cıdır meydanı



Kolizey

Roma heykəltəraşları öz yunan müəllimlərini ötüb keçmişdilər. Roma heykəlləri insanın həm xarici görünüşünü dəqiq təsvir edir, həm də onun xarakterini açıb göstərirdi.

Sezarın heykəli

Ədəbiyyat

E.ə. I əsrdən – eramızın I əsrinin başlanğıcınadək olan müddəti Roma poeziyasının "qızıl dövrü" adlandırırlar. Məşhur şair Vergili Avqustun sifarişi ilə "Eneida" poemasını yazmışdı.

Romada elmin müxtəlif sahələri inkişaf etmişdi. Plininin "Təbiət tarixi" kitabında Aralıq dənizi sahillərində yerləşən bütün ölkələrin elmi bilikləri toplanmışdı.

Vergili

Yuli Sezarın tapşırığı ilə İsgəndəriyyə astronomları təqvim tərtib etmişdilər. Romada tətbiq edilmiş təqvimdən müəyyən dəyişikliklərlə indi də istifadə olunur. Ayların latın adları da saxlanılmışdır. Sentyabr "yeddinci"; dekabr "onuncu" (Romada il mart ayından başlayırdı) deməkdir. İyul Yuli Sezarın şərəfinə, sonrakı ay isə Avqustun şərəfinə adlandırılmışdır. Romalılar il hesabını e.ə. 753-cü ildən hesablayırdılar.

Plini

Yazı

Romalıların yaratdığı latın əlifbasından indi də çoxlu xalqlar, eləcə də Azərbaycan xalqı istifadə edir. Latın dili italyan, fransız, rumın və bəzi başqa dillər üçün əsas olmuşdur. İndi də elmdə bitkilərə və heyvanlara latın dilindəki adlar verilmişdir. Xəstəliklərin və dərmanların adları da latıncadır.

Şəkil əsasında mətn hazırlayın.

Yunan və Roma mədəniyyətlərini müqayisə edin.

Vergili "Eneida" poemasını Avqusta oxuyarkən

Din

Romalılar çoxtanrılı dinə ibadət edirdilər. Baş tanrı Yupiter hesab olunurdu. Sonralar Roma imperiyasının ərazisində xristianlıq dini yayılmağa başladı. Təktanrılı dinlərdən biri olan xristianlıq I əsrdə Fələstində meydana gəlmişdir. Bu dinin peyğəmbəri (Allahın elçisi) İsanın nitqləri Fələstində Roma hakimiyyətini sarsıtmağa yönəlmişdi. Çünki o, insanları tək Allaha ibadət etməyə çağırırdı. Buna görə də romalılar İsanı tutub ağacdan düzəldilmiş xaç üzərində çarmıxa çəkdilər. İsanın davamçıları onu Xristos ("Allah tərəfindən seçilmiş"), özlərini isə xristianlar adlandırırdılar. Xristianlığın müqəddəs kitabı "İncil"dir.

Yupiter tanrıların əhatəsində

İsa Peyğəmbər Roma məhkəməsində

Konstantinin xaç suyuna çəkilməsi

Xristian icmalarını birləşdirən və yepiskoplar (nəzarətçi) tərəfindən idarə olunan xristian təşkilatı yarandı. Ona kilsə deyilirdi. Romanın baş yepiskopu Papa adlanırdı. İmperator Konstantin 313-cü ildə xristianlara açıq ibadət etməyə və məbədlər tikməyə icazə verdi. Bundan sonra xristianlıq Roma imperiyasında rəsmi dinə çevrildi. Yunanların və romalıların mədəniyyətini antik (qədim) mədəniyyət adlandırırlar. Bu mədəniyyət Aralıq dənizi ölkələrində geniş yayılmış, başqa ölkələrə də təsir göstərmişdir. Antik mədəniyyət Avropa ölkələrinin mədəni inkişafı üçün əsas olmuşdur.

Sizcə, xristianlığın rəsmi din elan edilməsi Roma mədəniyyətinə necə təsir göstərmişdir?

ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Antik ədəbiyyat antologiyası. İki cilddə, I cild. Bakı, 2006.
2. Antik ədəbiyyat antologiyası. İki cilddə, II cild. Bakı, 2006.
3. Əkbər N.Nəcəf. Hun minilliyi. Bakı, 2015.
4. Əkbər N.Nəcəf. İnanc yaddaşı (köklər və tarixlər). Bakı, 2014.
5. Həsənov Y. Qədim Roma tarixi. Bakı, 1968.
6. Orucov Telman. Ümumdünya tarixi (I kitab). Qədim Dünya tarixi. Bakı, 2011.
7. Plutarx. İskəndər Zülqərneyn. Bakı, 1989.
8. Samuel N.Kramer. Tarix Şumerdə başlayır. Bakı, 2012.
9. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 2007.

Türk dilində

10. İlhami Durmuş. İskitlər (Sakalar). Ankara, 2008.

Rus dilində

11. Великие империи мира. Москва, 2011.
12. Всемирная история. В 24-х томах. Том 1-2. Минск, 1999.
13. Древний Египет. Редактор Питер Дор. Москва, 2015.
14. История востока в 6 томах. Т.1. Москва. 1999.
15. История Востока. В 6 т. Т. 1. Восток в древности / Гл. ред.: И90 Р.Б. Рыбаков (пред.) и др.; [Отв. ред. В.А. Якобсон]. – М: Вост. лит., 2002. 688 с.
16. История Древнего Востока. Москва, 1979.
17. История Древнего Востока. Часть 1. Месопотамия (под ред. И.М.Дьяконова). Москва, 1983.
18. История Древнего мира. В 3-х томах, часть 1. Москва, 1989.
19. История культуры народов мира. В 10-ти книгах. Москва, 2005.
20. История Мидии от древнейших времен до конца IV века до н.э. (Издание 2-е дополненное, 2008).
21. Куликан Уильям. Персы и мидяне. Подданные империи Ахеменидов / пер. с. англ. Л.А.Игоревского. М. 2002.
22. Маргарет Мюррей. Египетские храмы. Москва, 2006.
23. Рой Баррелл. Все войны древности. Москва, 2009.
24. Ф.П.Коровкин. История древнего мира. Москва, 1988.
25. Х.Саггс. Вавилон и Ассирия. Москва, 2004.
26. Эвелин Кленгель-Брандт. Древний Вавилон. Смоленск, 2001.

Buraxılış məlumatı

ÜMUMİ TARİX 6

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün
Ümumi tarix fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Pərviz Ağalarov**
	Niyaməddin Quliyev
	Elşən Qasımov
	Elnur Hüseynov
Psixoloq	**Səidə Əhmədova**
Buraxılışa məsul	**Rafiq Kazımov**
Dizayner və səhifələyici	**Nurlan Nəhmətov**
Multimedia mütəxəssisləri:	**Yusif Qabilov**
	Kənan Yusifzadə
Rəssam	**Kamilla Hüseynzadə**
Redaktor	**Yeganə Abdullayeva**
Korrektor	**Nigar Əliyeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Samirə Bektaşi**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-056

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 12,5. Fiziki çap vərəqi 17,5. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 140.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj 100409. Pulsuz. Bakı – 2021

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 12.08.2021

Çap məhsulunu nəşr edən:
"Şərq-Qərb" ASC
(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)

Çap məhsulunu istehsal edən:
"Çaşıoğlu Ei" MMC
(Bakı, Mikayıl Müşfiq küç., 2A)

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!